Xalqın qəzeti!

# Xalq qəzeti

№ 38 (30442) 20 fevral 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

**Prezident İlham ƏLİYEV:**

**Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu siyasi və mənəvi dəstək bizə yetərli oldu və 30 il ərzində sülh vasitəsilə həll edə bilmədiyimiz tarixi məsələmizi biz savaş meydanında cəmi 44 gün ərzində həll etdik.**

# Azərbaycan–Türkiyə qardaşlığı gücümüzə güc qatır

## Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə rəsmi səfəri

### Ankaranın Esenboğa hava limanında qarşılanma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə fevralın 18-də Türkiyəyə rəsmi səfərə gəlib.**

Ankaranın Esenboğa hava limanında dövlətimizin başçısını və birinci xanım Mehriban Əliyevanı Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu və digər rəsmi şəxslər qarşıladılar.

### Prezident İlham Əliyev Ankarada Anıtqəbiri ziyarət edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Ankarada Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəni – Anıtqəbiri ziyarət edib.**

Prezident İlham Əliyev Mustafa Kamal Atatürkün məzarı önünə əklil qoydu.

Türk dünyasının böyük oğlunun əziz xatirəsi yad edildi.

Sonra xatirə şəkli çəkdirildi.

Dövlətimizin başçısı Xatirə kitabına ürək sözlərini yazdı.

# Azərbaycan–Türkiyə: Yeni hədəflərə doğru

## Bir millətin iki dövlətinin liderlərinin ənənə təntənəsi



**"Bizim ailəmiz Türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir.**

Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox! Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik".

Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev fevralın 14-də Milli Məclisdə keçirilmiş andiçmə mərasimindəki nitqində səsləndirib. Dövlətimizin başçısının Prezident seçildikdən sonra ilk rəsmi səfərini Türkiyəyə reallaşdırması onun andiçmə mərasimində söylədiklərinin təsdiqidir. Prezident seçkiləri Azərbaycanın yeni dövrə qədəm qoymasının ifadəsi idisə, cənab İlham Əliyevin Türkiyəyə rəsmi səfəri yeni dövrün Türk dünyası ilə bağlılığının son dərəcə anlamlı mesajıdır.

**(ardı 9-cu səhifədə)**

# Paşinyanın Münxen sayıqlamaları

Səhifə ⇨ 7

# Yeni dövrün xarici siyasətində növbəti üfüqlər



Səhifə ⇨ 9

# Özbəkistan da Qərbin cəza mexanizminə qoşulur

Səhifə ⇨ 15

## Ağırlıqqaldıranımız 3 qızıl medal qazandı

**Azərbaycan ağırlıqqaldıranı Dadaş Dadaşbəyli Bolqarıstanın paytaxtı Sofiyada keçirilən Avropa çempionatında 3 qızıl medal qazanıb.**



43 ölkədən 402 atletin (202 kişi + 200 qadın) iştirak etdiyi yarışda təmsilçimiz 109 kq çəki dərəcəsində qüvvəsini sınayıb.

Soydaşımız birdən qaldırma hərəkətində 176 kq-ın öhdəsindən gəlib və bu hərəkətdə Avropa çempionatının qalibi olub. Atletimiz təkanla qaldırma hərəkətində də eyni uğuru təkrarlayıb. O, 212 kq-ı başı üzərinə qaldıraraq bu hərəkətdə də qızıl medal qazanıb.

Toplam 388 kq (176+212) nəticə ilə yekun sıralamada da Avropada hər kəsi qabaqlayan idmançımız fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Kişilər arasında bu uğura sonuncu dəfə 2012-ci ildə Türkiyənin Antalya şəhərində keçirilmiş Avropa çempionatında Əfqan Bayramov imza atmışdı.

**XQ**

# Prezident İlham Əliyev Ankarada ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Ankaradakı Heydər Əliyev Parkında Ulu öndərin abidəsini ziyarət edib.**

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin parkda ucaldılan abidəsi önünə gül dəstəsi qoyaraq xatirəsini ehtiramla yad etdi.

Qeyd edək ki, ərazisi təxminən 10 min kvadratmetr olan Heydər Əliyev Parkı 2004-cü ildə salınıb. 2012-ci ildə parkda əsaslı yenidənqurma işləri görülüb. Nəticədə bu park Türkiyə paytaxtının ən gözəl istirahət məkanlarından birinə çevrilib. Parkın girişində Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın 2004-cü il aprelin 4-də əkdikləri Xan çinarı ağacları və bu barədə məlumatın qeyd edildiyi mərmər lövhələr var. Bu istirahət məkanındakı şərait – mərasim meydanı, idman meydançası, uşaq əyləncə sahəsi bütün yaş qrupundan olan şəhər sakinlərinin zövqlərinə uyğun istirahət etmələri üçün imkanlar yaradır.

Heydər Əliyev Parkında 1200 nəfərlik amfiteatr fəaliyyət göstərir ki, burada müxtəlif bədii-kütləvi tədbirlər və konsertlər təşkil olunur.

Parkın ərazisində tikilən "Buta" Azərbaycanı Təbliğ Evi milli mədəniyyətimizin qardaş ölkədə təbliğinə öz töhfəsini verir.

# Azərbaycan liderinin Ankarada rəsmi qarşılanma mərasimi







**Fevralın 19-da Türkiyə Respublikası Prezidentinin Sarayında – Külliyedə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.**

Azərbaycan Prezidenti İlham Əliyev süvari dəstəsinin müşayiəti ilə Türkiyə Prezidentinin Sarayına gəldi.

Sarayın qarşısındakı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Prezident İlham Əliyevin şərəfinə toplardan yaylım atəşinin müşayiəti ilə Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Prezident İlham Əliyev fəxri qarovul dəstəsini salamladı.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Türkiyənin rəsmi şəxsləri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Rəcəb Tayyib Ərdoğana təqdim edildi.

Sonra rəsmi foto çəkdirildi.

# Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü



**Fevralın 19-da Ankarada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.**

# Prezidentlərin geniş tərkibdə görüşü

**Fevralın 19-da Ankarada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə geniş tərkibdə görüşü olub.**



**Görüşdə çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dedi:**

– Hörmətli cənab Prezident, Əziz qardaşım!

Hörmətli heyət üzvləri!

Sizləri ən səmimi duyğularım və məhəbbətlə salamlayıram. Fevralın 7-də keçirilən seçkilərdə tarixi zəfərə imza atmağınızdan sonra ilk rəsmi səfərinizdə Sizi Ankarada qonaq qəbul etməkdən böyük məmnunluq duyuram. Bu yeni dövrdə mükəmməl səviyyədə davam edən əməkdaşlığımızı həmişəkindən daha yüksək səviyyəyə çatdıracağımıza ürəkdən inanıram.

Əziz qardaşımla bir az əvvəl çox faydalı bir görüş keçirdik, xüsusilə ticarət, enerji və müdafiə sənayesi sahələrindəki əlaqələrimizi müzakirə etdik. Ermənistanla münasibətlər başda olmaqla regional proseslər haqqında fikir mübadiləsi apardıq. İkitərəfli ticarət dövriyyəmizi bir il əvvəlkinə nisbətən 16 faizdən çox artımla 7,5 milyard dollar səviyyəsinə çatdırdıq. Təbii ki, bilirsiniz, hədəfimiz 15 milyard dollardır. Hörmətli Qardaşımla bu istiqamətdəki qətiyyətimizi möhkəmləndirdik.

May ayında Ankarada keçirəcəyimiz birgə iqtisadi komissiyanın 11-ci iclası bu istiqamətdə hazırlanacaq "Yol xəritəsi"nin müəyyənləşdirilməsinə fayda verəcək. Bu gün imzalanacaq "Gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş" də hədəflərimizə çatmağımıza töhfə verəcək.

Geosiyasi nizama təsir edən koronavirus pandemiyası və Ukrayna müharibəsi kimi proseslər Orta Dəhlizin etibarlı marşrut olduğunu bir daha göstərmişdir. 2017-ci ildə açılan Bakı–Tbilisi–Qars dəmir yolu xətti Orta Dəhlizin strateji mərhələsi olmuşdur. Bu xətdəki işlərin ən qısa zamanda başa çatdırılması və xəttin tamamilə işlək vəziyyətə gətirilməsi ortaq mənfəətimizə xidmət edir. Çünki təmirlə əlaqədar yaşanan plansız bağlanma səbəbindən yükdaşıyıcıları çətin vəziyyətdə qalıb. Bundan başqa, uzun müddət bağlı qalan xətt beynəlxalq səviyyədə cazibəsini itirir. Quru yolu ilə tranzit daşımalarını ən qısa zamanda sərbəst vəziyyətə gətirməyimiz də əhəmiyyətlidir. Bu məsələdə dəstəyinizə güvənirəm.

Hörmətli cənab Prezident ilə enerji sahəsindəki əməkdaşlığımızı ətraflı müzakirə etdik. Diqqəti Avropadan keçən layihələrdə birgə təşəbbüslərimizin artırılmasının önəminə cəlb etdik. Azərbaycanın Naxçıvan ərazisindən elektrik ixracı və İğdır–Naxçıvan təbii qaz boru kəməri layihələrinin ən qısa zamanda başa çatdırılmasına önəm verirəm.

Təhsil sahəsindəki əlaqələrimizin inkişafından da məmnunluq duyuram. Bu çərçivədə bir az sonra imzalanacaq Türkiyə–Azərbaycan Universitetinin yaradılmasına dair Anlaşma Memorandumu ali təhsil sahəsində əməkdaşlıq baxımından yeni bir dönüş nöqtəsi olacaq. Universitetimiz elm və texnologiya sahələrində münasibətlərimizi yeni səviyyəyə qaldıracaq. Bu istiqamətdə başda səhiyyə olmaqla mühəndislik və texnologiya sahələrində təcrübə mübadiləmiz artacaq.

Digər tərəfdən, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a bu il evsahibliyi etməyinizdən böyük məmnunluq duyuram.

Dəyərli heyət üzvləri, Türk Dövlətləri Təşkilatımıza verdiyim böyük önəm sizə məlumdur. Növbəti fövqəladə Zirvə toplantımızı, inşallah, Şuşada keçirəcəyik. Şimali Kipr Türk Cümhuriyyətinin Zirvə toplantısının tədbirlərinə qatılması məsələsində Azərbaycanın göstərdiyi həssaslığa və dəstəyə görə təşəkkür edirəm. Eyni həssaslığı təşkilatımızın digər üzvlərindən də gözləyirik. Təşkilatımız çərçivəsində əməkdaşlığın daha da inkişafı üçün ortaq səylərimizi davam etdirəcəyimizə inanıram.

İqtisadi Əməkdaşlıq Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və D8 iqtisadi və ticarət sahəsindəki əməkdaşlığımızı taclandıran digər önəmli regional təşkilatlardır. Xüsusilə İqtisadi Əməkdaşlıq Təşkilatının malik olduğu potensialdan daha çox istifadə edəcəyimizə inanıram.

Evsahibliyinizlə keçirilməsi nəzərdə tutulan növbəti Zirvə toplantısı ilə əlaqədar dəstəyimiz tamdır. Azərbaycanın D8-ə üzvlük müraciətini ən güclü şəkildə dəstəkləyirik. Bəzi tərəddüdləri olan Misir başda olmaqla, D8 üzvləri arasında bu istiqamətdə təşəbbüslər irəli sürdüm və irəli sürməkdə də davam edəcəyik.

Bu düşüncələrlə çıxışımı bitirərkən hörmətli qardaşım Əliyevə və dəyərli heyətinə bu səfərə görə bir daha təşəkkür edirəm. Qarşıdakı dövrün Türkiyə və Azərbaycan üçün xeyirli olmasını Uca Rəbbimdən diləyirəm.

(ardı 3-cü səhifədə)

# Prezidentlərin geniş tərkibdə görüşü

(əvvəli 2-ci səhifədə)

**Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

– Əziz Qardaşım, hörmətli cənab Prezident!

Əziz dostlar!

İlk növbədə, dəvətə və qonaqpərvərliyə görə Sizə öz təşəkkürümü bildirmək istəyirəm. Siz də qeyd etdiyiniz kimi, mənim prezident seçkilərindən sonra ilk rəsmi səfərim qardaş Türkiyəyədir. Bu da təbiidir. Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin bənzəri, tayı yoxdur və bu əlaqələr hər gün daha da güclənir.

Bu gün təkbətək görüş əsnasında bir çox məsələləri müzakirə etdik, bu il üçün və gələcək illər üçün "Yol xəritəsi"ni bir daha gözdən keçirdik. Müdafiə sənayesi sahəsində çox gözəl irəliləyişlər var və prezident seçkilərindən iki gün sonra mənim iştirak etdiyim ilk tədbir "Bayraktar Akıncı" PUA-sının təqdimatı idi. Artıq PUA-lar da Azərbaycan səmasında uçur və bu, bizim üçün həm əlavə imkanlar yaradır, eyni zamanda, texnoloji inkişafımız üçün önəmli şərtdir. "Baykar Holding"in Azərbaycanda təlim, tədris və təmir mərkəzinin yaradılması üçün işlər sürətlə gedir. Ümid edirəm ki, bu il və ya gələn il bu gözəl mərkəz açılacaqdır. Eyni zamanda, Türkiyənin bir neçə şirkəti ilə ortaq istehsal üzrə danışıqların son mərhələsindəyik.

*

Görüşdə Şuşa Bəyannaməsinin ölkələrimiz arasındakı münasibətləri müttəfiqlik səviyyəsinə qaldırdığı xüsusilə qeyd olundu.

İkitərəfli ticarət dövriyyəsinin 7,5 milyard dollara çatdığı, müdafiə sənayesi, hərbi, energetika, təhsil və digər sahələrdə əməkdaşlığın, Orta Dəhliz məsələsində Azərbaycan ilə Türkiyənin işbirliyinin, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ötürücülük qabiliyyətinin daha da artırılmasının, həmçinin Naxçıvanda birgə layihələr və sonuncu səfər zamanı imzalanmış sənədlərin, o cümlədən, Naxçıvanın qaz təchizatı istiqamətində layihələrin, Qars-Naxçıvan dəmir yolunun tikilməsinin mühüm əhəmiyyəti vurğulandı.

Dövlətimizin başçısı bir daha 44 günlük Vətən müharibəsində bütün qardaş Türkiyənin və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın yanında olmasının, mənəvi və siyasi dəstəyinin torpaqlarımızın azad edilməsində aparıcı rol oynadığını, Qarabağ dastanının yazılmasında mühüm amil olduğunu bildirdi.

Görüş çərçivəsində beynəlxalq təşkilatlarda Azərbaycanla Türkiyə arasında əməkdaşlıq, ölkələrimizin bir-birini daim dəstəklədiyi vurğulandı.

Prezident Rəcəb Tayyib Ərdoğan COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı iki ölkə arasında bu əsnada əməkdaşlıq üçün böyük perspektivlərin mövcudluğunu, Azərbaycanın da birgə əməkdaşlığa hazır olduğunu qeyd etdi. Həmçinin ölkələrimizin birgə təşəbbüslərlə çıxış etmələrinin vacibliyi diqqətə çatdırıldı.

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının bizim bir ailəmiz olduğunu və Milli Məclisdə keçirilən andiçmə mərasimində çıxışı zamanı da bu faktı vurğuladığını dedi. Böyük coğrafiyaya, təbii qaynaqlara, insani resurslara, geniş potensiala malik Türk Dövlətləri Təşkilatının birgə səylərlə daha da inkişaf etdirilməsinin vacibliyi bildirildi.

Eyni zamanda, müdafiə sənayesi sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsi və iki ölkənin silahlı qüvvələrinin birgə təlimlərinin keçirilməsi məsələlərinə toxunuldu.

# Azərbaycan–Türkiyə sənədləri imzalanıb



**Fevralın 19-da Ankarada Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan–Türkiyə sənədlərinin imzalanması mərasimi olub.**

"Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Türkiyə Respublikasının Ali Təhsil Şurası arasında Türkiyə–Azərbaycan Universitetinin yaradılmasına dair Anlaşma Memorandumu"nu Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev və Türkiyənin Ali Təhsil Şurasının (YÖK) sədri Erol Özvar imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov və Türkiyənin Kənd Təsərrüfatı və Meşə naziri İbrahim Yumaklı imzaladılar.

"Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"i Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Türkiyənin xəzinə və maliyyə naziri Mehmet Şimşek imzaladılar.

# Azərbaycan–Türkiyə prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

**Fevralın 19-da Ankarada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Türkiyə Prezidenti çıxış etdi.**

## Prezident Rəcəb Tayyib Ərdoğanın bəyanatı



– Hörmətli cənab Prezident, əziz Qardaşım!

Hörmətli nazirlər, hörmətli mətbuat nümayəndələri!

Sizləri ən səmimi hisslərlə, hörmətlə, məhəbbətlə salamlayıram!

Əziz Qardaşım İlham Əliyevi xalqının yüksək etimadı ilə beşinci dəfə Can Azərbaycanın Prezidenti seçilməsi münasibətilə bir daha təbrik edirəm!

İlham qardaşımın prezident seçilməsindən dərhal sonra ilk rəsmi xarici səfərini Türkiyəyə etməsindən böyük məmnunluq duyuram.

Bildiyiniz kimi, fevralın 7-də keçirilən prezident seçkiləri ilk dəfə Azərbaycanın suveren torpaqlarının hamısında keçirilməsi ilə əlaqədar tarixi bir önəmə sahibdir. Seçkilərin nəticələrinin Türkiyə–Azərbaycan münasibətləri və qardaş Azərbaycan xalqı üçün xeyirli olmasını diləyirəm.

Azərbaycan seçkilər ərəfəsində, təəssüf ki, bəzi haqsızlıqlara məruz qaldı. Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin bu il keçiriləcək tədbirlərə qatılmasına maneə yaradılması ilə bağlı qəbul edilən qərarlara etirazımızı güclü şəkildə göstərdik. Assambleyanın münaqişə yox, parlament demokratiyasını gücləndirəcək bir dialoq platforması olmasının vacibliyini vurğulamağa davam edəcəyik. Qəbul olunan qərar ləğv edilənə qədər Azərbaycana dəstəyimizi və bu istiqamətdəki səylərimizi davam etdirəcəyik.

Hörmətli mətbuat nümayəndələri, əziz Qardaşımla görüşlərimizdə ikitərəfli əlaqələrimizin bütün istiqamətlərini nəzərdən keçirdik, regional və beynəlxalq məsələləri dəyərləndirdik.

Azərbaycan ilə əməkdaşlığımızın Ümummilli lider Heydər Əliyevin vurğuladığı "Bir millət, iki dövlət" şüarı əsasında irəlilədiyini görürük. Ümumi ticarət dövriyyəmiz keçən il ilk dəfə 7,5 milyard dollar səviyyəsinə çatdı. 15 milyard dollarlıq hədəfimizə çatmaq üçün səylərimizi artırmaqda qətiyyətliyik.

Kritik meydan oxumaların yaşandığı bir dövrdə ölkələrimizin nəqliyyat və enerji sahələrindəki potensialını inkişaf etdirməli olduğumuz aşkardır. Bakı–Tbilisi–Qars dəmir yolu xətti əsasən bunun ən konkret nümunələrindəndir. Bu xətdən ən yüksək səmərə götürmək üçün bərpa işləri sürətlə başa çatdırılmalıdır.

Ötən ilin sentyabrında "Türk qapısı" Naxçıvana səfərim zamanı hörmətli Əliyev ilə birlikdə Qars–Naxçıvan dəmir yolu layihəsi ilə bağlı niyyət protokolunu bu düşüncə ilə imzaladıq.

TANAP-ın imkanlarının artırılması, Xəzərin təbii qazının Türkiyəyə və Avropaya çatdırılması bu istiqamətdəki prioritetlərimiz arasındadır. Naxçıvana səfərim çərçivəsində təməlini qoyduğumuz İğdır–Naxçıvan təbii qaz boru kəməri layihəsi ilə enerji sahəsində əməkdaşlığımızı yeni bir səviyyəyə çatdırdığımızı da xatırlatmaq istəyirəm.

Hörmətli mətbuat nümayəndələri, görüşlərimizdə Cənubi Qafqazda sülh və sabitliyə dair atılan addımları da müzakirə etdik. Azərbaycan ilə Ermənistan arasında davamlı sülhün imzalanmasının bölgəmiz və dünyada sülh, əmin-amanlıq və sabitlik üçün yeni bir ümid mənbəyi olacağı şübhəsizdir. Bu prosesdə Azərbaycan ilə birlikdə çiyin-çiyinə hərəkət edirik. Qarabağda işğala son qoyulması ilə birlikdə bölgəmizdə davamlı sülh üçün tarixi bir fürsət pəncərəsi açıldı. Bu fürsət pəncərəsinin bağlanmaması çox önəmlidir. Ermənistanın uzaqgörənliklə düşünərək strateji bir perspektivlə bu prosesi dəyərləndirməli olduğuna inanıram. Üçüncü tərəfləri də prosesi zəhərləmək əvəzinə, konstruktiv töhfələr verməyə dəvət edirik. Fürsətdən istifadə edərək bir neçə gün əvvəl iki ölkənin sərhədində baş verən hadisələrin bir daha yaşanmamasına ümid etdiyimizi də bildirmək istəyirəm. Azərbaycan Ordusunun yaralanan əsgər qardaşımıza tezliklə şəfa tapmasını diləyirəm.

Görüşlərimizdə İsrailin Qəzzada bütün insanlıq dəyərlərini və beynəlxalq hüququ ayaq altına alan qətliamlarını və bölgəmizi maraqlandıran digər münaqişələri də müzakirə etdik.

Ailə məclisimiz olan Türk Dövlətləri Təşkilatındakı birliyimizin daha da təsisatlanması və güclənməsi üçün çalışmaqda davam edirik. İyul ayında Təşkilatımızın fövqəladə Zirvə görüşünün Türk dünyasının mədəniyyət paytaxtı Şuşada keçirilməsi ilə əlaqədar xüsusilə məmnunluğumu bildirmək istəyirəm.

Qarşıdakı dövrdə Can Azərbaycan ilə qardaşlıq hüququmuz və Şuşa Bəyannaməsində ortaya qoyduğumuz ruhla yol getməkdə davam edəcəyik.

Əziz Qardaşımın şəxsində bütün Azərbaycan xalqına ötən il 6 fevral zəlzələləri zamanı millətimizə göstərdiyi həmrəyliyə görə təşəkkür edirəm. Digər yardımları ilə yanaşı, Azərbaycan Kahramanmaraşda 320 hektar ərazidə 1000 ev və 799 iş yeri inşa etməkdədir. Keçən həftə Kahramanmaraşa etdiyimiz səfərdə "Azərbaycan bulvarı"nda həyata keçirilən işlər barədə məlumat aldıq.

Çıxışımın sonunda dəyərli Qardaşım Əliyevə səfərə görə bir daha təşəkkür edirəm. Rəbbim məhəbbətimizi və qardaşlığımızı daimi etsin!

Sonra Azərbaycan Prezidenti çıxış etdi.

## Prezident İlham Əliyevin bəyanatı



– Əziz Qardaşım, sayın Cümhurbaşqanı, hörmətli xanımlar və cənablar!

İlk növbədə, mənə göstərilən qonaqpərvərliyə və dəvətə görə, əziz qardaşım, Sizə minnətdaram!

Qeyd etdiyiniz kimi, prezident seçkilərindən sonra mənim ilk rəsmi səfərim qardaş ölkəyədir. Bu, təbiidir, bu, bir ənənədir. Biz ədadlarımızdan qalan bütün ənənələrə sadiqik. Bu gün Türkiyə–Azərbaycan birliyi təkcə bölgə üçün deyil, Avrasiya üçün önəmli amilə çevrilib.

Hər dəfə Türkiyədə olarkən qardaş ölkədə gedən genişmiqyaslı inkişaf prosesini izləyirəm. Buna çox sevinirəm və bir daha görürəm ki, əziz Qardaşımın səyləri nəticəsində qardaş ölkə yeni zirvələri fəth edir.

Türkiyə bu gün dünya çapında söz sahibidir. Təkcə bölgəmizdə deyil, dünya çapında bir çox məsələlər Türkiyənin mövqeyindən asılıdır. Türkiyə bölgəmizdə əmin-amanlığın, sülhün və işbirliyinin qarantıdır. Türkiyənin güclü sənaye potensialı, güclü iqtisadiyyatı, o cümlədən, hərbi gücü Türk dünyasına mənsub olan hər bir insanı sevindirir. Təbii ki, Azərbaycan Sizin uğurlarınıza öz uğurları kimi sevinir. 2020-ci ilin noyabr ayında İkinci Qarabağ savaşı başa çatanda Azərbaycan işğalda olan ərazisinin böyük hissəsini azad etmişdir və bütün 44 gün ərzində Türkiyə bizim yanımızda idi. Savaşın ilk saatlarında əziz Qardaşımın çox qəti və dəqiq açıqlamaları bir çoxları üçün ciddi mesaj idi və bir çoxlarını bu işə müdaxilə etməkdən kənarda saxladı. Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu, siyasi və mənəvi dəstək bizə yetərli oldu və 30 il ərzində sülh vasitəsilə həll edə bilmədiyimiz tarixi məsələmizi biz savaş meydanında cəmi 44 gün ərzində həll etdik.

Azərbaycan xalqı bu qardaşlıq dəstəyini heç vaxt unutmayacaq. Bu gün söhbət əsnasında mən demişdim ki, ondan əvvəl də Türkiyə–Azərbaycan əlaqələri qardaşlıq əlaqələri idi. Ancaq İkinci Qarabağ savaşından sonra bizə göstərilən dəstək bu əlaqələri yeni yüksək zirvəyə qaldırdı. Bu gün Müttəfiqlik Bəyannaməsini əsas götürərək biz bütün məsələlərdə bir yerdəyik, bir nöqtəyə vururuq. Biz öz gücümüzə güc qatırıq və təbii ki, Türk dünyasının birləşməsi, ortaq köklərə sahib olan xalqların bir arada olması Türk Dövlətləri Təşkilatının hər bir üzvünü gücləndirəcək. Bu gün bu məsələ ilə də bağlı geniş müzakirə aparılmışdır. Türk Dövlətləri Təşkilatının Şuşada keçiriləcək qeyri-rəsmi Zirvə görüşü hörmətli Prezidentin qeyd etdiyi kimi, bu ilin iyul ayında keçiriləcək. Eyni zamanda, müşahidəçi statusunda olan Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti də mənim dəvətimlə bu görüşdə iştirak edəcək və bu, bizim ümumi işimizə, Türk xalqlarının birliyi işinə növbəti güclü təkan verəcək.

Hörmətli Cümhurbaşqanı söylədi ki, bizim birgə həyata keçirdiyimiz layihələr kifayət qədər çoxdur. Nəqliyyat, enerji layihələri bizim sərhədlərimizdən kənarda da artıq önəmli rol oynayır. Enerji və nəqliyyat təhlükəsizliyi bu gün dünya gündəliyinin ön sıralarında olan mövzulardır. Ticarət dövriyyəmizin sürətlə artması və rekord həddə çatması, əlbəttə ki, bizi çox sevindirir. 7,5 milyard dollar. Beş-altı il əvvəl bizim heç yuxumuza gələ bilməzdi ki, ticarət dövriyyəsi bu dərəcədə artacaq, ancaq bu, reallıqdır. Vaxtilə biz qarşıya müştərək hədəflər qoyduq və indi bu hədəflərə doğru gedirik.

Keçən il Azərbaycandan Türkiyəyə 9 milyard kubmetr təbii qaz ixrac edilmişdir. Əldə edilmiş razılaşmalar əsasında qazın həcminin artırılması nəzərdə tutulur, o cümlədən, Türkiyə ərazisindən Avropaya gedən təbii qaz qitənin bir çox ölkələri üçün önəmli enerji təhlükəsizliyi məsələsidir.

Nəqliyyat ilə də eyni mənzərənin şahidiyik. Bakı–Tbilisi–Qars dəmir yolu yüklərin həcmini 1 milyon tondan 5 milyon tona çatdırmaq üçün bu ilin ortalarında tam istismara verilməlidir.

Əməkdaşlığımızın önəmli istiqamətlərindən biri də hərbi sahədə işbirliyidir. Bizim ordularımız bir yumruq anlamına gəlib, hər il ən azı 10 hərbi təlim həm Türkiyədə, həm Azərbaycanda keçirilir və beləliklə, bizim hərbi gücümüz daha da artır. İkinci Qarabağ savaşı və ondan sonra düz 5 ay əvvəl keçirdiyimiz antiterror əməliyyatı bir daha onu göstərdi ki, Türkiyənin Ordu modeli Azərbaycanda artıq tam oturuşub. Qarabağda keçirilmiş antiterror əməliyyatı ölkəmizin suverenliyini tam təsdiqləmişdir, artıq bölücü, separatçı qüvvələrə Azərbaycan ərazisində yer yoxdur və bundan sonra heç vaxt olmayacaq.

Bu gün təbii ki, müdafiə sənayesi sahəsində yeni imkanlar açılıb. Bu barədə də geniş müzakirələr aparıldı. Birgə istehsalla əlaqədar konkret planlarımız var. Yəqin ki, bu planlar gerçəkləşdikdə ictimaiyyət də bundan xəbərdar olacaqdır.

Bu gün təhsillə bağlı önəmli anlaşma imzalanmışdır. Bu, gələcəyə yönəlmiş təşəbbüsdür. Çünki bizim gənc nəslimiz həm Türkiyədə, həm Azərbaycanda qardaşlıq, müttəfiqlik, ortaq dəyərlər prinsipləri əsasında tərbiyə almalıdır, bizim milli-mənəvi dəyərlərimizə sadiq olmalıdır, yad təsirdən uzaq olmalıdır, bilikli, savadlı vətənpərvər insanlar olmalıdır. Bu gün Türkiyə–Azərbaycan Universitetinin yaradılması, sadəcə olaraq, təhsil məsələsi deyil. Bu, bizim birliyimizin növbəti rəmzidir. Əminəm ki, yaxın gələcəkdə bu universitet nəinki Azərbaycanda, bölgədə ən aparıcı ali məktəblərdən birinə çevriləcəkdir.

Bir daha əziz Qardaşım, göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirirəm və fürsətdən istifadə edərək Sizi yenidən Azərbaycana dəvət etmək istəyirəm. Sağ olun.



# Azərbaycanın və Türkiyənin birinci xanımlarının görüşü



Fevralın 19-da Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan ilə görüşü olub.

# Prezident İlham Əliyevin Türkiyəyə rəsmi səfəri başa çatıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına rəsmi səfəri fevralın 19-da başa çatıb.**

Ankaranın Esenboğa hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu və digər rəsmi şəxslər yola saldılar.

**AZƏRTAC**

## “Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1066-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1066-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin 2.5-1-ci (hər iki halda), 4.1–4.3-cü, 4.4-cü (hər iki halda), 5.1-ci maddələrində, 5.2-ci maddəsinin birinci abzasında, 8.2-ci maddəsinin birinci abzasında, 9.2-ci maddəsində, 12.1-ci maddəsinin birinci abzasında, 15.3-cü, 16.3-cü, 16.4-cü, 20-ci, 22.6-cı (hər iki halda) maddələrində, 22.7-ci maddəsinin birinci abzasında, 22.8-ci, 26.5-ci (hər iki halda), 27.1-ci, 27.2-ci, 29.2-ci, 30.3.1-ci maddələrində, 36.2-ci maddəsinin birinci cümləsində, 43-cü, 44.1–44.4-cü maddələrində, 45-ci maddəsinin ikinci cümləsində, 47.2-ci, 48.5-ci, 49.2-ci, 49.3-cü maddələrində, 61-ci maddəsinin adında, 61.1-ci maddəsində, 61.2-ci maddəsinin birinci cümləsində, 61.4-cü maddəsində, 61.5-ci maddəsinin birinci abzasında (hər iki halda), 62-ci maddəsinin adında, 62.1-ci maddəsinin birinci abzasında, 62.1.8-ci, 63.1–63.4-cü maddələrində, 64.1-ci maddəsinin ikinci cümləsində, 65-ci, 67.1–67.3-cü, 68-ci, 69.1–69.3-cü maddələrində, 83.4-cü və 89-cu maddələrinin birinci və ikinci cümlələrində, 142.2-ci, 182.1-ci maddələrində, 182.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 256.4-cü, 265.4-cü və 275.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 4.4-cü (ikinci halda) maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 2.5-1-ci (ikinci halda), 16.3-cü, 22.6-cı (ikinci halda), 26.5-ci (ikinci halda), 44.1-ci, 47.2-ci maddələrində, 62.1.8-ci, 63.4-cü, 67.1-ci, 142.2-ci, 182.1-ci maddələrində, 182.2-ci maddəsinin ikinci cümləsində və 256.4-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 4.2-ci, 43-cü, 69.1-ci, 69.3-cü maddələrində, 83.4-cü maddəsinin birinci cümləsində və 265.4-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 4.3-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Məcəllənin 20-ci, 27.2-ci və 275.3-cü maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur;

1.7. həmin Məcəllənin 45-ci maddəsinin ikinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur;

1.8. həmin Məcəllənin 61.5-ci maddəsinin birinci abzasında (ikinci halda) “orqan (qurum)” dedikdə, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.9. həmin Məcəllənin 83.4-cü maddəsinin ikinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzərdə tutulur;

1.10. həmin Məcəllənin 2.5-1-ci (birinci halda), 4.1-ci, 5.1-ci maddələrində, 5.2-ci və 8.2-ci maddələrinin birinci abzaslarında, 9.2-ci maddəsində, 12.1-ci maddəsinin birinci abzasında, 15.3-cü, 16.4-cü, 22.6-cı (birinci halda) maddələrində, 22.7-ci maddəsinin birinci abzasında, 22.8-ci, 26.5-ci (birinci halda), 27.1-ci, 29.2-ci, 30.3.1-ci maddələrində, 36.2-ci maddəsinin birinci cümləsində, 44.2–44.4-cü, 48.5-ci, 49.2-ci, 49.3-cü maddələrində, 61-ci maddəsinin adında, 61.1-ci maddəsində, 61.2-ci maddəsinin birinci cümləsində, 61.4-cü maddəsində, 61.5-ci maddəsinin birinci abzasında (birinci halda), 62-ci maddəsinin adında, 62.1-ci maddəsinin birinci abzasında, 63.1–63.3-cü maddələrində, 64.1-ci maddəsinin ikinci cümləsində, 65-ci, 67.2-ci, 67.3-cü, 68-ci, 69.2-ci maddələrində, 89-cu maddəsinin birinci və ikinci cümlələrində və 182.2-ci maddəsinin birinci cümləsində “orqan (qurum)” dedikdə Dövlət Dəniz və Liman Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.11. həmin Məcəllənin 4.4-cü maddəsində (birinci halda) “orqan (qurum)” dedikdə “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti, o cümlədən onun strukturuna daxil olan qurumlar nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin 2.5-1-ci maddəsinə uyğun olaraq, dəniz əməliyyatları bazasının reyestrinin aparılması qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. “Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1066-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

3.1. Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin 61.5-ci maddəsinə uyğun olaraq, Dövlət Dəniz və Liman Agentliyinin dəniz nəqliyyatı sahəsində göstərdiyi xidmətlərə görə haqqın məbləğlərini, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. “Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1066-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**4.** “Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 541 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 478 (Cild I) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

“2. Müəyyən edilsin ki:

2.1. Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin 2.5-ci, 2.5-1-ci (hər iki halda), 4.1–4.3-cü, 4.4-cü (hər iki halda), 5.1-ci maddələrində, 5.2-ci maddəsinin birinci abzasında, 8.2-ci maddəsinin birinci abzasında, 9.2-ci maddəsində, 12.1-ci maddəsinin birinci abzasında, 15.3-cü, 16.3-cü, 16.4-cü, 20-ci, 22.6-cı (hər iki halda) maddələrində, 22.7-ci maddəsinin birinci abzasında, 22.8-ci, 26.5-ci (hər iki halda), 27.1-ci, 27.2-ci, 29.2-ci, 30.3.1-ci maddələrində, 36.2-ci maddəsinin birinci cümləsində, 43-cü, 44.1–44.4-cü maddələrində, 45-ci maddəsinin ikinci cümləsində, 47.2-ci, 48.5-ci, 49.2-ci, 49.3-cü maddələrində, 61-ci maddəsinin adında, 61.1-ci maddəsində, 61.2-ci maddəsinin birinci cümləsində, 61.4-cü maddəsində, 61.5-ci maddəsinin birinci abzasında (hər iki halda), 62-ci maddəsinin adında, 62.1-ci maddəsinin birinci abzasında, 62.1.8-ci, 63.1–63.4-cü maddələrində, 64.1-ci maddəsinin ikinci cümləsində, 65-ci, 67.1–67.3-cü, 68-ci, 69.1–69.3-cü maddələrində, 83.4-cü və 89-cu maddələrinin birinci və ikinci cümlələrində, 142.2-ci, 182.1-ci maddələrində, 182.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 256.4-cü, 265.4-cü və 275.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Məcəllənin 4.4-cü (ikinci halda) maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

2.3. həmin Məcəllənin 42.2-ci və 61.2-ci maddələrinin ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.4. həmin Məcəllənin 2.5-1-ci (ikinci halda), 16.3-cü, 22.6-cı (ikinci halda), 26.5-ci (ikinci halda), 44.1-ci, 47.2-ci maddələrində, 62.1.8-ci, 63.4-cü, 67.1-ci, 142.2-ci, 182.1-ci maddələrində, 182.2-ci maddəsinin ikinci cümləsində və 256.4-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.5. həmin Məcəllənin 13.2-ci, 14.2-ci, 18.2-ci, 22.4-cü və 25.1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir;

2.6. həmin Məcəllənin 18.3-cü və 22.5-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;

2.7. həmin Məcəllənin 4.2-ci, 43-cü, 69.1-ci, 69.3-cü maddələrində, 83.4-cü maddəsinin birinci cümləsində və 265.4-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

2.8. həmin Məcəllənin 4.3-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi nəzərdə tutulur;

2.9. həmin Məcəllənin 20-ci, 27.2-ci və 275.3-cü maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur;

2.10. həmin Məcəllənin 45-ci maddəsinin ikinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur;

2.11. həmin Məcəllənin 61.5-ci maddəsinin birinci abzasında (ikinci halda) “orqan (qurum)” dedikdə, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

2.12. həmin Məcəllənin 83.4-cü maddəsinin ikinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzərdə tutulur;

2.13. həmin Məcəllənin 2.5-ci maddəsində “orqan (qurum)” dedikdə “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyətinə münasibətdə Azərbaycan İnvestisiya Holdinqi, digər limanlara münasibətdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

2.14. həmin Məcəllənin 2.5-1-ci (birinci halda), 4.1-ci, 5.1-ci maddələrində, 5.2-ci və 8.2-ci maddələrinin birinci abzaslarında, 9.2-ci maddəsində, 12.1-ci maddəsinin birinci abzasında, 15.3-cü, 16.4-cü, 22.6-cı (birinci halda) maddələrində, 22.7-ci maddəsinin birinci abzasında, 22.8-ci, 26.5-ci (birinci halda), 27.1-ci, 29.2-ci, 30.3.1-ci maddələrində, 36.2-ci maddəsinin birinci cümləsində, 44.2–44.4-cü, 48.5-ci, 49.2-ci, 49.3-cü maddələrində, 61-ci maddəsinin adında, 61.1-ci maddəsində, 61.2-ci maddəsinin birinci cümləsində, 61.4-cü maddəsində, 61.5-ci maddəsinin birinci abzasında (birinci halda), 62-ci maddəsinin adında, 62.1-ci maddəsinin birinci abzasında, 63.1–63.3-cü maddələrində, 64.1-ci maddəsinin ikinci cümləsində, 65-ci, 67.2-ci, 67.3-cü, 68-ci, 69.2-ci maddələrində, 89-cu maddəsinin birinci və ikinci cümlələrində və 182.2-ci maddəsinin birinci cümləsində “orqan (qurum)” dedikdə Dövlət Dəniz və Liman Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

2.15. həmin Məcəllənin 4.4-cü maddəsində (birinci halda) “orqan (qurum)” dedikdə “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti, o cümlədən onun strukturuna daxil olan qurumlar nəzərdə tutulur.”.

**5.** “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 506 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1053 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**6.** “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 may tarixli 583 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 465 (Cild I) 2-ci hissəsindən “Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin 28.4-cü maddəsində,” sözləri çıxarılsın.

**7.** “Dəniz nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1462 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1106 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 3.1-ci bənddən “(naviqasiya və mayak, bələdçi, kanal, lövbər və gəmi yığımı)” sözləri çıxarılsın;

7.2. həmin Fərmanla təsdiq edilmiş “Dövlət Dəniz və Liman Agentliyinin Nizamnaməsi” üzrə:

7.2.1. 1.1-ci, 2.1.11-ci və 3.1.22-ci yarımbəndlərdən “(naviqasiya və mayak, bələdçi, kanal, lövbər və gəmi yığımı)” sözləri çıxarılsın;

7.2.2. 3.1.15-ci yarımbənddə “və limanlar” sözləri “, limanlar və dəniz əməliyyatları bazaları” sözləri ilə əvəz edilsin;

7.2.3. aşağıdakı məzmunda 3.1.45-1-ci yarımbənd əlavə edilsin:

“3.1.45-1. dəniz əməliyyatları bazalarının reyestrinin aparılmasını təmin etmək;”;

7.2.4. 3.2.5-ci yarımbəndə “dövlət rüsumu” sözlərindən sonra “, habelə Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin 61.5-ci maddəsinin birinci abzasına uyğun olaraq dəniz nəqliyyatı sahəsində xidmətlərə görə haqq” sözləri əlavə edilsin;

7.2.5. 3.2.13-cü yarımbəndə “limana” sözündən sonra “və ya dəniz əməliyyatları bazasına” sözləri əlavə olunsun, həmin yarımbənddə “və ya limandan” sözləri “, habelə limandan və ya dəniz əməliyyatları bazasından” sözləri ilə əvəz edilsin;

7.2.6. 5.6-cı bəndə “dövlət rüsumu” sözlərindən sonra “, habelə Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin 61.5-ci maddəsinin birinci abzasına uyğun olaraq dəniz nəqliyyatı sahəsində xidmətlərə görə haqq” sözləri əlavə edilsin.

**8.** Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 11 sentyabr tarixli 3130 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 9, maddə 1081 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi strategiyası”nda aşağıdakı dəyişikliklər edilsin:

8.1. 3.3.2.5-ci yarımbəndə “dəniz” sözündən sonra “ətraf” sözü əlavə edilsin;

8.2. 4.1.6-cı yarımbənddə “Dövlət Dəniz Administrasiyası” sözləri “Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman Agentliyi” sözləri ilə əvəz edilsin;

8.3. 6.6.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“6.6.4. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman Agentliyi Azərbaycan Respublikasının ərazi sularında və açıq dənizdə gəmilərin uzaq məsafədən tanınmasını və izlənilməsini Beynəlxalq Dəniz Təşkilatının tələblərinə uyğun olaraq həyata keçirir, gəmilər, limanlar və dəniz əməliyyatları bazaları tərəfindən Azərbaycan Respublikasının ərazi sularında üzmə qaydalarının tələblərinə riayət olunmasını təmin edir;”;

8.4. Strategiyaya Əlavə 2 – “Vəzifələrin yerinə yetirilməsi məqsədi ilə qurumlar üçün əsas və dəstək tipli cavabdehlik cədvəli” üzrə:

8.4.1. 2-ci, 3-cü, 9-cu, 11-ci, 12-ci hissələrin, 13-cü hissənin “a” bəndinin, 16-cı və 17-ci hissələrin “Dəstək” sütununda “DDA” akronimi “RİNN DDLA” akronimi ilə əvəz edilsin;

8.4.2. 7-ci hissənin “Əsas” sütununa “BBDTL” akronimindən sonra “və digər dəniz limanları” sözləri əlavə edilsin;

8.4.3. 10-cu hissənin “Dəstək” sütununa “ETSN” akronimindən sonra “, RİNN DDLA” akronimi əlavə edilsin;

8.4.4. 14-cü hissənin “Dəstək” sütununda “DDA” akronimi “RİNN DDLA” akronimi ilə əvəz olunsun və həmin sütuna “BBDTL” akronimindən sonra “və digər dəniz lim

8.4.5. 16-cı hissənin “Dəstək” sütunundan “BBDTL,” akronimi çıxarılsın;

8.4.6. “İxtisarlar” hissəsində “DDA – Dövlət Dəniz Administrasiyası” sözləri “RİNN DDLA – Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman Agentliyi” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 fevral 2024-cü il**

# Azərbaycan Prezidenti İlham Əliyevin Münxen səfəri

## Dövlətimizin başçısı Bundestaqın üzvü ilə görüşüb



**Fevralın 18-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən Bundestaqın Xristian-Demokrat/Xristian-Sosialist İttifaqı (CDU/CSU) fraksiyasının üzvü Armin Laşetin görüşü olub.**

## COP Təşkilat Komitəsi Münxen Təhlükəsizlik Konfransı ilə birgə iş aparacaq



**Fevralın 18-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən Münxen Təhlükəsizlik Konfransının sədri Kriştof Xoysqenin görüşü olub.**

Kriştof Xoysqen Münxen Təhlükəsizlik Konfransına dəvəti qəbul etdiyinə və iştirakına görə dövlətimizin başçısına təşəkkürünü bildirdi, COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransına dəvətə görə təşəkkürünü və COP29 ilə əlaqədar təbriklərə görə minnətdarlığını ifadə etdi.

Kriştof Xoysqen qeyd etdi ki, Münxen Təhlükəsizlik Konfransı çərçivəsində təhlükəsizliyə münasibətdə əhatəli və müfəssəl bir yanaşma var, ona görə iqlim dəyişikliyi də təhlükəsizlik konsepsiyasının bir hissəsi hesab olunur. O, bu xüsusda, Münxen Təhlükəsizlik Konfransının Katibliyi olaraq Azərbaycanla COP29 çərçivəsində əməkdaşlığa və həmin sessiya zamanı ölkəmizdə birgə tədbirin keçirilməsinə hazır olduğunu vurğuladı.

Bu təklif dövlətimizin başçısı tərəfindən məmnunluqla qəbul edildi. Azərbaycanın COP Təşkilat Komitəsi tərəfindən Münxen Təhlükəsizlik Konfransının Katibliyi ilə bu istiqamətində birgə işin aparılacağı diqqətə çatdırıldı.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan COP29-un mahiyyət üzrə nəticəyönümlü sessiya olması üçün bütün beynəlxalq tərəfdaşlarla birgə işləməyə hazırdır. Hazırda COP çərçivəsində üçlük mexanizmi yaradılıb ki, bu, Birləşmiş Ərəb Əmirliklərini, Azərbaycanı və Braziliyanı bir araya gətirir.

Görüşdə, həmçinin regional məsələlər müzakirə olundu. Dövlətimizin başçısı bu xüsusda Azərbaycanın sülh gündəliyini, Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasını, sülh müqaviləsinin imzalanmasını dəstəklədiyini dedi. Bu istiqamətdə Almaniya Kansleri Olaf Şotsun təşəbbüsü ilə təşkil olunan görüşün səmərəli və konstruktiv şəraitdə keçdiyini diqqətə çatdırdı.

## Ölkəmizin Dünya Bankı ilə əməkdaşlığında yeni imkanlar



**Fevralın 18-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən Dünya Bankının baş idarəedici direktoru Aksel Trotsenburqun görüşü olub.**

Aksel Trotsenburq Azərbaycanın COP29-a ev sahibliyi etməsi münasibətilə təbriklərini çatdırdı, bunun ölkəmizin yaşıl keçidə və iqlim dəyişikliyi ilə mübarizəyə verdiyi dəstəyin təzahürü olduğunu bildirdi. O, Dünya Bankının Azərbaycanla bu istiqamətdə əməkdaşlığa hazır olduğunu qeyd etdi.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı Azərbaycan ilə Dünya Bankı arasında əməkdaşlıqdan məmnunluq ifadə olundu. Azərbaycanın xarici borcunun hazırda 7 faiz civarında olmasının çox müsbət göstərici olduğu və bütövlükdə iqtisadi göstəricilərin çox müsbət xarakter daşıdığı vurğulandı.

COP29-un iqlim maliyyələşdirilməsi mövzusuna həsr ediləcəyi nəzərə alınaraq, bu mühüm tədbir çərçivəsində də Dünya Bankı ilə Azərbaycan arasında əməkdaşlıq üçün yaxşı imkanların olduğu diqqətə çatdırıldı.

Prezident İlham Əliyev Azərbaycanda həyata keçirilən bərpaolunan enerji layihələri haqqında məlumat verdi. Bunların, ilk növbədə, milli və regional səviyyədə layihələr olduğunu dedi, bu xüsusda, Qara dənizin dibi ilə çəkiləcək elektrik kabeli layihəsi və Xəzər dənizində Azərbaycanın bərpaolunan enerji potensialının 157 qiqavatdan artıq olduğu, ölkəmizin yaxın müddətdə yaşıl enerji ixracatçısı olacağı qeyd edildi və bütün bunlar müsbət addım kimi qiymətləndirildi.

## Azərbaycan ATƏT-in gərəksiz qurumlarının ləğv edilməsini gözləyir



**Fevralın 18-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən ATƏT-in Baş katibi, Münxen Təhlükəsizlik Konfransı Fondu Şurasının vitse-prezidenti xanım Helqa-Mariya Şmidin görüşü olub.**

ATƏT-in Baş katibi prezident seçkilərində qələbəsi və COP29-un Azərbaycanda keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi.

Söhbət zamanı Azərbaycanla ATƏT arasında iqlim dəyişikliyi mövzusunda əməkdaşlıq, bu xüsusda birgə tədbirlərin keçirilməsi məsələlərinə toxunuldu. Həmçinin regional məsələlər barədə fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Almaniya Kanslerinin təşəbbüsü ilə təşkil olunan görüşün konstruktiv və faydalı mühitdə keçdiyini qeyd etdi, artıq Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, sərhədlərin delimitasiyası və sülh müqaviləsi üzrə danışıqların aparılması istiqamətində razılıqların əldə olunduğunu, bu xüsusda xarici işlər nazirləri səviyyəsində tezliklə görüşün keçiriləcəyinin razılaşdırıldığını diqqətə çatdırdı. Sülhün əldə edilməsinin və sülh müqaviləsinin imzalanmasının çox real olduğunu vurğulayan dövlətimizin başçısı regionda de-fakto sülhün mövcud olduğunu bildirdi. COP29-a sədrliyin Azərbaycana verilməsi prosesinin Ermənistanla Azərbaycan arasında qarşılıqlı anlaşma və kompromis şəraitində reallaşmasının özünün bütövlükdə müsbət bir addım olduğu, bu dinamikanın davam etdirilməsinin vacibliyi diqqətə çatdırıldı.

Azərbaycan Prezidenti ATƏT çərçivəsində keçmişin qalıqları olan bir sıra mexanizmlərin – bu xüsusda Minsk qrupu, Yüksək Səviyyəli Planlaşdırma Komitəsi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi kimi tamamilə fəaliyyətsiz strukturların artıq ləğv edilməsinin vaxtının çoxdan yetişdiyini vurğuladı. Dövlətimizin başçısı hazırda ATƏT çərçivəsində büdcə problemlərinin olduğunu nəzərə alaraq, mövcud məhdud maliyyə resurslarını daha məqsədyönlü hədəflərə doğru yönəltməyin önəmini diqqətə çatdırdı.

## Quido Krosetto İlham Əliyevi yenidən prezident seçilməsi münasibətilə təbrik edib

**İtaliya Respublikasının müdafiə naziri Quido Krosetto dövlətimizin başçısı İlham Əliyevi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə təbrik edib.**

Nazir Quido Krosetto bu barədə sosial şəbəkə hesabında paylaşım edib.

Azərbaycan Prezidentinə ən xoş arzularını çatdıran italiyalı nazirin paylaşımında deyilir: "Azərbaycan Avrasiya məkanında mərkəzi rol oynayır. Biz ölkələrimizi birləşdirən strateji tərəfdaşlıq sayəsində indiyə qədər tutduğumuz yolda əməkdaşlığı inkişaf etdirməkdə davam edəcəyik".

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri.**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırıram və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

**Sauli NİİNİSTÖ,**
**Finlandiya Respublikasının Prezidenti**

***

**Hörmətli cənab Prezident.**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Zati-alinizə Portuqaliya xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırır və ali dövləti fəaliyyətinizdə Sizə uğurlar arzulayıram.

Əminəm ki, ölkələrimizi və xalqlarımızı birləşdirən əlaqələri ikitərəfli səviyyədə bütün sahələrdə və çoxtərəfli kontekstdə daha da inkişaf etdirəcəyik.

Cənab Prezident, bir daha Sizə təbriklərimi çatdırır, Azərbaycan xalqının firavanlığı və inkişafı üçün ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Marselo Rebelo de SOUZA,***
***Portuqaliya Respublikasının Prezidenti***

***

**Hörmətli Prezident Əliyev!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycan xalqının böyük əksəriyyəti yüksək inam göstərərək dövləti idarə etmək üçün növbəti dəfə mandatı Sizə həvalə etdi. Xalq Sizə etimad göstərdi, qətiyyətli və güclü lider olduğunuz üçün ölkənin sükanını yenidən Sizə etibar etdi.

Əminəm ki, Siz Azərbaycan üçün və Birləşmiş Ştatlar ilə əlaqələrin inkişafı istiqamətində gördüyünüz gözəl işləri davam etdirəcəksiniz. Ölkəniz xalqın mənafeyini hər şeydən üstün tutan, həm daxildə, həm də xaricdə sülh və firavanlığa sadiq olan güclü və bacarıqlı liderə layiqdir.

Ümidvaram ki, yeni prezidentliyiniz dövründə ölkələrimiz iqtisadi və təhlükəsizlik sahəsində əməkdaşlığı daha da gücləndirəcək. Hesab edirəm ki, ölkələrimiz arasında ikitərəfli qarşılıqlı faydalı əlaqələr bundan sonra da inkişaf etməli və möhkəmlənməlidir.

Sizi yenidən Prezident seçilməyiniz münasibətilə bir daha təbrik edirəm. Tanrı Sizi və bütün azərbaycanlıları qorusun, yeni liderlik dövrünüz sülh, firavanlıq və böyük uğurlar gətirsin!

**Hörmətlə,**

***Pol QOSAR,***
***ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü***

***

**Hörmətli cənab Prezident.**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Hollivud kinorejissorlarından ibarət komandam, Florida ştatının Sarasota Yəhudi İcması adından və şəxsən öz adımdan təbriklərimi çatdırıram. Qoy bu gözəl ölkə Sizin rəhbərliyinizlə inkişaf etməyə davam etsin.

Mən  Azərbaycanın "mədəniyyət səfiri"yəm. Debüt romanım olan "Yetim səma" – Bakıda böyüdüyüm illərin yarıuydurma təsviri ABŞ və Böyük Britaniyanın əsas KİV-lərində işıqlandırıldı. Hər iki ölkəyə bir neçə qastrol səfərinə çıxdım, kitabımı təbliğ etməklə yanaşı, tamaşaçılara Azərbaycan haqqında məlumat verdim. Kitabımı oxuyan keçmiş birinci xanım Mişel Obama məni Azərbaycanı Ağ Evin multikultural assambleyasında təmsil etmək üçün dəvət etdi.

Hazırda Diasporla İş üzrə Dövlət Komitəsi ilə birgə Azərbaycanın Qafqaz dağlarında çəkilmiş "Leylanın skripkası" qısametrajlı filminin təbliği ilə məşğuluq. Film nominasiyaya layiq görüldü və aparıcı aktrisamız Beynəlxalq Monako Film Festivalında nüfuzlu “Mələk” mükafatını qazandı.

Bu missiyanı davam etdirmək – doğma Vətənimi yaşadığım ölkəyə tanıtmaq həm sevinc, həm də şərəfdir. Ümid edirəm ki, bir gün Sizinlə şəxsən görüşüb bu sevinci bölüşəcəyəm.

Cənab Prezident, Sizə və ailənizə cansağlığı, xoşbəxtlik arzulayıram.

**Hörmətlə,**

***Ella LEYA,***
***ABŞ-da fəaliyyət göstərən "B Elite Productions"ın direktoru***

**Amerika Birləşmiş Ştatları**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri.**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram. Azərbaycan Respublikasının bütün suveren ərazisində keçirilən prezident seçkiləri iqtisadi tərəqqinin sürətləndirilməsi, insan hüquqları və fundamental azadlıqlarının, dinc birgəyaşayışın qorunması üçün mühüm mərhələdir.

Fürsətdən istifadə edərək bildirirəm ki, BMT-nin Əhali Fondu demoqrafiya ilə bağlı məsələlərə, gender bərabərliyinin təşviqi və qadınların sağlamlığının qorunmasına yönəlmiş çoxşaxəli təşəbbüslərində Azərbaycan hökuməti ilə uzunmüddətli tərəfdaşlığa sadiqliyini bir daha təsdiqləyir. Həmçinin BMT-nin Əhali Fondu özünün 2021-2025-ci illər üzrə Ölkə Proqramı çərçivəsində, o cümlədən Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa kontekstində Azərbaycan hökuməti ilə əməkdaşlığa sadiqliyini bir daha bəyan edir. Cari il üçün prioritet COP29 konfransına hazırlıqları dəstəkləmək məqsədilə BMT-nin Əhali Fondunun müqayisəli üstünlüyünə uyğunlaşdırılmış iqlim dayanıqlılığı səylərinə verilecəkdir.

Zati-aliləri, Sizə ən yüksək ehtiramımı ifadə edirəm.

**Hörmətlə,**

**Məryəm XAN,**
**BMT-nin Əhali Fondunun Türkiyədəki nümayəndəsi, Azərbaycan və Gürcüstan üzrə ölkə direktoru**

*

**Zati-aliləri.**

Prezident kimi fəaliyyətə başlamağınız münasibətilə Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) Azərbaycandakı nümayəndəliyi adından səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

UNICEF-lə Azərbaycan Hökuməti arasında 30 ildən artıq müddəti əhatə edən yüksək səviyyəli tərəfdaşlığa istinadən Azərbaycanda uşaq hüquqları gündəliyinin həyata keçirilməsində əməkdaşlığımızın davamını səbirsizliklə gözləyirəm. UNICEF uşaqlar üçün daha yaxşı gələcəyin qurulmasında və onların tam potensiallarının inkişaf etməsi üçün imkanların yaradılmasında Azərbaycan Hökuməti ilə yaxından işləmək öhdəliyinə sadiqdir.

COP29 konfransı qlobal iqlim müzakirələrinin ön sıralarında uşaqlara və gənclərə yer verilməsi baxımından Azərbaycanın aparıcı rol oynaması üçün xüsusi fürsət yaradır. Uşaqların və gənclərin iqlim dəyişikliyi ilə mübarizə tədbirlərində əhəmiyyətli dərəcədə iştirakını dəstəkləmək və onları daha dayanıqlı gələcək üçün tələb olunan təhsil və bacarıqlarla təmin etmək məqsədilə Azərbaycan Hökuməti ilə tərəfdaşlıq etməyə hazırıq.

Zati-aliləri, an yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

**Saca Faruq ABDULLA,**
**UNICEF-in Azərbaycandakı nümayəndəsi**

**Redaksiyanın poçtundan**

# XALQI GƏLƏCƏYƏ APARAN LİDER



**Möhtərəm Cənab Prezident!**

**7 fevral 2024-cü il tarixində keçirilən Prezident seçkilərində parlaq və inamlı qələbə qazanaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə "MATANAT A" Şirkətlər Qrupunun kollektivi Sizi səmimi qəbdən təbrik edir, dünyaya qalib ölkə kimi tanıtdığınız Azərbaycanın yüksələn beynəlxalq nüfuzunun durmadan artması yolunda Sizə böyük uğurlar və yorulmaz fəaliyyət arzulayırıq. Heç şübhəsiz ki, ölkəmizə rəhbərliyinizin yeni dövründə dünyanın aparıcı dövlətləri sırasında Azərbaycanın yeri daha da möhkəmlənəcək. Qlobal gərginliklər fonunda hər zaman öz sözünü deməyi bacaran Azərbaycan Sizin əzmkarlığınız sayəsində daha da güclü, qarşısında hesabat veriləcək bir dövlətə çevriləcək.**

# Qalib lider Münxendə: xarici siyasətin yeni mərhələdə ilk sınağı

**I MƏQALƏ**

### XXI əsrin Qalib lider nümunəsi

Qalib lider Azərbaycanın ərazi bütövlüyünü tam bərpa edən dövlət başçısı və müzəffər Ali Baş Komandandır. Eyni zamanda, Qalib lider xilasedici, birləşdirici və qurucu şəxsiyyətdir. Qalib gəlmək həmişə tarixi mahiyyətlidir: hər dövrün özünəxas qələbə fəlsəfəsi vardır. XXI əsrin geosiyasi turbulentliyi, sosial-iqtisadi və mədəni qloballaşması, müxtəlif böyük dövlətlərin öz dünyalarını yaratmaq uğrunda amansız savaşması və millətlərin öz müstəqil dövlətlərini qurmaq üçün ölüm-dirim mübarizəsini aparması öncəki tarixi mərhələlərdən fərqli Qalib lider nümunəsi tələb edir!

Doğrudan da, zamanənin bu cür qarışıq bir dinamikasında hər an mənəvi və intellektual fəziləti (xeyirxahlıq, qurucuu, barışcıllıq mənalarında) saxlamaqla qəlbləri, mənəviyyatları fəth etmək olduqca çətin işdir. Üstəlik, əgər dövlətə və cəmiyyətə qarşı müxtəlif tərəflərdən qərəzli təsirlər olursa, bu, ikiqat mürəkkəb vəzifədir. Lakin XXI əsrdə uğurlu lider olmaq üçün ən çətin və böhranlı situasiyalarda belə qalib gəlməyi bacarmaq lazım gəlir.

Azərbaycanın yaşadığı geosiyasi tale prizmasında qalib gəlməyin şərtləri bir qədər də konkretləşir. Onun ideya tərəfi 2023-cü ilə qədər olan milli ideyada ifadə olunmuşdur: ərazi bütövlüyünü bərpa etmək və bütün ölkə ərazisində suverenliyi tam təmin etmək! Bu, bizim seçimimiz deyildi – XX əsrin sonu XXI əsrin başlanğıcının geosiyasi dinamikasının diktəsi idi. Azərbaycan lideri Heydər Əliyev bu çağırışı "bir millət, iki dövlət" kəlamı çərçivəsində "hər yerdə, hər zaman, tam müstəqillik, üçrəngli bayrağın yüksəlişi" qətiyyətli mövqeyi ilə qəbul etdi. Bununla Avrasiya məkanında ümummilli liderlik nümunəsini yaratdı!

XXI əsrin başlanğıcından Heydər Əliyevin siyasi varisi XXI əsrin çağırışlarının burulğanında yeni liderlik nümunəsini yaratmağa başladı. Bunun əlamətlərini dünya Qarabağ'ı Azərbaycan Ordusunun 44 günə bir sıra böyük dövlətlərin caynağından tam xilas etməsində gördü! Ancaq onlar dayanmadılar və ikinci cəhdi etdilər. Bu halda da Azərbaycan 23 saat 41 dəqiqəyə işğalçıları darmadağın etdi! Bununla Azərbaycan lideri İlham Əliyev



Cənubi Qafqazda ilk olaraq Qalib lider kimi özünü təsdiq etdi!

Bütün bunlara görə, Prezident İlham Əliyevin yenidən dövlətə başçı seçilməsindən sonra Münxenə səfərini böyük maraqla gözləyirdilər. Bunu şərti olaraq İlham Əliyevin Azərbaycan üçün elan etdiyi yeni mərhələdə ilk siyasi-diplomatik sınağı kimi qəbul edə bilərik! Bu tezisin məna miqyasını, məzmun genişliyini və ideya missiyasını anlamaq üçün Münxen Təhlükəsizlik Konfransının nə demək olduğu üzərində bir qədər geniş dayanmaq lazım gəlir.

### Münxen konfransı: təhlükəsizlik platforması

Bu proses 1963-cü ildən başlamışdır. Təhlükəsizlik üzrə ekspertlər, siyasilər, diplomatlar, hərbçilər, iş adamları, qeyri-hökumət təşkilatları sərbəst şəkildə rəsmi məhdudiyyət olmadan qlobal təhlükəsizliyin aktual məsələlərini müzakirə edirlər. Konfrans bu növ tədbirlər sırasında dünyada ilk sıradadır. Təşkilatçı Münxen konfransı Fondudur.

Konfransın təşkilatçılığını 1998-ci ilə qədər alman naşriyyatçısı Evald-Henrix fon Kleyst-Şmensin etmişdir. 1999-cu ildən bu rolu Helmut Kolun keçmiş məsləhətçisi Horst Tülçik yerinə yetirmişdir. 2009-cu ildən rəhbərliyi Volfqanq İşinger öz üzərinə götürmüşdür. 2022-ci ildə təşkilatçılığı A.Merkelin xarici məsələlər üzrə məsləhətçisi Kristof Hoysqen etmişdir. 2024-cü ilin konfransının da sədri K.Hoysqen olmuşdur.

Bu, sayca 60-cı konfras idi. Fevralın 16-18-i arası keçirilmişdir. Tədbirdə 150-dən çox dövlət və hökumət başçıları, xarici i.lər və müdafiə nazirləri iştirak etmişlər. Ənənəvi şəkildə, Münxen Təhlükəsizlik Konfransı öncəsi ekspertlər məruzə hazırlayırlar. Builki məruzə "Lose-Lose?" adlanır, yeni "hamı uduzur?" BMT-nin Baş katibi A.Quterriş konfransın açılışında deyib ki, məruzənin başlığına sual işarəsi qoymamaq da olardı. Yəni real olaraq bütün dünya üçün təhlükəsizlik ciddi problemə çevrilmişdir. Onların sırasında Yaxın Şərqdə İstrail–Fələstin, Şərqi Avropada isə Rusiya–Ukrayna savaşı xüsusi yer tutur. Və hər ii münaqişə üzrə müsbət real nəticə yoxdur. Bu da bütövlükdə dünya nizamını pozur, xaos artır, təhlükəsizlik sistemi "sabun köpüyü kimi dağılır"! Əgər proses hər bir böyük dövlətin ancaq öz maraqları naminə davranışı fonunda davam etsə, dünyada hər bir dövlət uduzacaq və bəşəriyyət aşınmaya məruz qalacaq. Bununla da Münxenin müasir, dəbdəbəli və rahat "Bayerischer Hof" otelinin siyasi mənzərəsi rahatsızlıq verən "qaranlıq məkanı" xatırladırdı.

### Uğurun "uzaq, yaşıl adası"

Məhz belə bir dönəmdə Azərbaycanın regional və qlobal miqyasda atdığı addımların əhəmiyyəti bütün dünya üçün daha da artmışdır. Bunu Münxendə Prezident İlham Əliyevə göstərilən diqqətdən, ifadə edilən böyük maraqlardan və əməkdaşlığa canatmalardan hiss etmək mümkün idi. İlham Əliyev, sözün həqiqi mənasında, Qalib Lider kimi qarşılanmış və diqqət mərkəzində olmuşdur.

Azərbaycan Prezidenti ilə ABŞ Dövlət katibi, Almaniya Kansleri, müxtəlif ölkələrin prezidentləri, tanınmış diplomatlar danışıqlarda son dərəcə saygı nümayiş etdirmişlər. Dünya mediası bu bağlılıqda onu vurğulayır ki, görüşlərin təşəbbüskarı Azərbaycan tərəfi olmamışdır. Qarşı tərəf danışmaq arzusunu dilə gətirmişdir. Hər bir danışıqda da Azərbaycanın müəyyən etdiyi müzakirə sərhədi gözlənilmişdir. Məsələn, ABŞ Dövlət katibi və ya Almaniya Kansleri Azərbaycan rəhbərini qane etməyən şərtləri dilə belə gətirməmişlər.

A.Şolts N.Paşinyanı İ.Əliyevlə görüşdürmək üçün E.Makronu arxa plana atmışdır. Rəsmi Parisin cidd-cəhdlərinə baxmayaraq Bakı Fransanın iştirakını istisna etmişdir. Bu dəfə Münxendə Almaniya tərəfi də danışıqların iştirakçısı statusunda deyildi – Berlin sadəcə görüşü təşkil etmişdir. Bununla, təbii ki, Avropa İttifaqı (Aİ) müəyyən diplomatik uğur qazanmışdır. Çünki müəyyən müddətdir ki, arası kəsilmiş və Fransanın bərbad fəaliyyəti nəticəsində dayandırılmış danışıqlar prosesi məhz Avropada bərpa olunmuşdur.

Danışıqlarda elə bir ciddi irəliləyiş olmasa da, tərəflər sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı komissiyaların yaradılması haqqında ortaq ilkin razılığa gəlmişlər və sülh danışıqlarını davam etmək fikrində bir olmuşlar.

Hər şeydən öncə, Azərbaycanın dövlət olaraq və Prezident İlham Əliyevin şəxsiyyət kimi nüfuzunun daha da yüksəlməsi faktını vurğulamaq lazımdır. Andiçmə mərasimindəki nitqi ilə Azərbaycan Prezidenti müasir dövrün uğurlu liderlərindən olduğunu bütün dünyaya bir daha sübut etmişdir. Hərb meydanında qalibiyyət, postmüharibə mərhələsində isə siyasi-diplomatik sferada çox ciddi və əhəmiyyətli uğurlar əldə edən Azərbaycan dövləti artıq dünya geosiyasi mənzərəsində "yaşıl ada" kimi görünür və Cənubi Qafqazı qoruyur, sabitliyin pozulmasına imkan vermir. Təbii ki, bu müsbət və ümidverici vəziyyətin memarı Azərbaycan Prezidenti İlham Əliyevdir. Ona görə də Münxendə aydın görünürdü ki, danışıqların moderatoru Prezident İlham Əliyevdir.

Bütün bunların fonunda Azərbaycanın artıq qlobal miqyasda ciddi geosiyasi aktora çevrildiyi aydın olur. Həmin kontekstdə Prezident İlham Əliyevin görüşlərdəki fikirlərinin miqyası və məqsədini dərindən anlamaq son dərəcə vacibdir. Xüsusilə, Azərbaycan Prezidentinin ATƏT, dövlətlərarası əlaqələr və sülh danışıqlarının formatı haqqında irəli sürdüyü tezislər çox maraqlıdır, prinsipial məqamları özündə əks etdirir.

(ardı var)

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki, fəlsəfə elmləri doktoru***

# Paşinyanın Münxen sayıqlamaları

## O, hər şeydən danışdı, amma gərəkli heç nə demədi

**Ermənistan baş naziri Nikol Paşinyan Münxendə erməni icmasının təmsilçiləri ilə görüşdə bir sıra məqamlara toxunub. Nikolun söylədiklərinə nəzər salanda, elə təəssürat yaranır ki, Azərbaycanla sülh gündəliyi məsələsində qeyri-konstruktiv mövqe tutan sanki, o deyil. Amma ilk baxışdan.**

***

Öncədən bildirək ki, N.Paşinyanın görüş keçirdiyi format özlüyündə maraqlıdır. Belə təmas bir daha sübut edir ki, xaricdəki erməni lobbi və diaspor təşkilatları Ermənistanın daxili siyasətinə təsir göstərən əsas faktorlardır. Ona görə də Nikol onları yola gətirməyə çalışır. Hər halda, görüşdən gələnən qənaət budur. Əlbəttə, başqa nəticələr də öz yerində.

Beləliklə, Paşinyanın sözlərinə görə, Ermənistan öz siyasətini beynəlxalq hüquq baxımından legitimlik amili üzərində qurmalıdır ki, güclü olmaq üçün şans yaransın: "Əgər ətrafdakılara elə görünsə ki, biz sülhü məhv etmək üçün güclənməyə çalışırıq, o zaman bizə güclü olmağa imkan verməzlər".

Ancaq gücün legitim olması üçün başlıca faktor səmimiyyətdir. Məsələ ondadır ki, Paşinyanlı Ermənistan Sarkisyanlı və Koçaryanlı Ermənistan kimidir. Yəni, səmimiyyətdən tam uzaqdır. Müvafiq olaraq, rəsmi İrəvan həmişə hansısa legitimlik uydurur və bu proses yalnız illüzionist və avantürist mahiyyət daşıyır. Baxın, Ermənistan xaricdən silah-sursat alır. Nə üçün? Tam aydındır ki, məqsəd heç də ölkənin təhlükəsizliyinin təminatı deyil. Başlıca məqsəd həmin silahları Azərbaycana qarşı çevirməkdir. Çünki rəsmi İrəvan bu gün də hansısa formada Qarabağ ambisiyasının davamına çalışır. Elementar məqama nəzər salaq.

Ermənistan hakimiyyəti və ona yaxın dairələr Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi məsələsini gündəmə gətirirlər. O cümlədən, Qarabağdakı erməni mirası məsələsini. İş ondadır ki, dünyanın müxtəlif bölgələrində kompakt halda yaşayan ermənilərin sayı Qarabağdakı ermənilərin sayından qat-qat çoxdur. O zaman nə üçün indiyədək onlarla bağlı hansısa fəaliyyət gerçəkləşməyib?.. Yəni, heç kəs inanmayacaq ki, Ermənistanın Qarabağ erməniləri ilə bağlı apardığı iş Azərbaycana qarşı ərazi iddiasına əsaslanmır. Dünyada yaxşı anlayırlar ki, erməni təfəkkür tərzi üçün beynəlxalq hüquq legitimlik deyil, avantürizmə leqal mahiyyət qazandırmaq alətidir.

***

Ermənistan ilk növbədə qonşusu Azərbaycanın gözündə bəraət almalıdır. Almağa çalışırmı? Əsla yox! Deməli, güclü Ermənistan ölkəmiz üçün təhlükə mənbəyi olaraq qalacaq. Və deməli, bütün leqal üsullarla onun güclənməsinə imkan verməyəcəyik. Hazırda bu, Azərbaycanın legitim hüququdur.

***

"Biz getdik və beynəlxalq ictimaiyyətə dedik ki, Qarabağ öz müqəddəratını təyinetmə hüququna malik müstəqil olmalıdır. Bizə dedilər ki, öz müqəddəratını təyinetmə hüququnu biz yaratmışıq. Bizə elə gəlirdi ki, Azərbaycana qarşı mübarizə aparırıq, amma bu mübarizəni bütün beynəlxalq ictimaiyyətə qarşı aparırdıq. Bu, ağlabatan deyil". N.Paşinyan Münxendə erməni icmasının təmsilçiləri ilə görüşündə bu fikirləri də səsləndirib.

Qeyd edək ki, Nikol hələ hakimiyyətə gəlməzdən əvvəl çıxışlarının birində Qarabağ məsələsinin erməni xalqının boynundan asılmış ağır daş olduğunu vurğulamış və bunu edənləri sərt şəkildə qınamışdı. Paşinyan 2018-ci ildə hakimiyyətə yiyələndi və həmin vaxt belə təəssürat yarandı ki, hökumət rəhbərinin işi haqqında danışdığı ağır daşı erməni xalqının boynundan atmaq olacaq.

Ancaq Paşinyan nə etdi? Bildirdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Görünür, Münxendə barəsində söz açdığı Qarabağın öz müqəddəratını təyinetmə hüququndan imtinanı məhz bu cür görürmüş və hesab edirmiş ki, "Qarabağ Ermənistandır və nöqtə" deməyi beynəlxalq ictimaiyyətə deyil, yalnız Azərbaycana qarşı çıxmaqdır. Onun hakimiyyətə gəlməzdən əvvəl bir, sonra başqa bir fikir səsləndirməsi, həqiqətən də, ağlabatan deyil.

O da məlumdur ki, Paşinyanın sözügedən bəyanatı 44 günlük müharibənin başlanması üçün, bir növ, katalizator rolunu oynadı. Müharibədə Ermənistanın hansı acınacaqlı və rüsvayçı duruma düşdüyünün də əlavə sübuta ehtiyacı yoxdur. Amma məsələ ondadır ki, Nikol və komandası bundan dərs götürmədi. Nəzərə alaq ki, ötən ilin sentyabrında Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdikləri lokal xarakterli antiterror tədbirlərindən əvvəl "Qarabağın öz seçkili hakimiyyəti var" fikrini dilə gətirən məhz Paşinyan olmuşdu. Hələ Qarabağdakı artıq canını tapşırmış separatçı rejimdə keçirilmiş "prezident seçkisindən" sonra təbrik məktubu da ünvanlamışdı. Görəsən, Nikol beynəlxalq ictimaiyyətə qarşı çıxdığını anlayırdı?..

Bir halda ki, Qarabağ münaqişəsi beynəlxalq aləmə qarşı çıxmaq mahiyyəti daşıyan məsələdir, o zaman nə üçün Ermənistan indi də eyni kursu götürür və destruktiv mövqe tutur? Yeri gəlmişkən, Paşinyan Münxendə erməni icması nümayəndələri ilə görüşündə həmin destruktiv və pozucu, səmimiyyətdən uzaq yanaşmasını bir daha ortaya qoydu. Erməni baş nazir elə təəssürat yaratdı ki, sanki Azərbaycanla Rusiya birləşib Ermənistana qarşı çevriliblər. O, fikrini özünün də imzasının yer aldığı 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanat məsələsində əsaslandırdı. Əlbəttə, buna əsaslandırma demək mümkünsüzdür.

Bu yerdə Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin N.Paşinyanın Münxendə erməni icması ilə görüşdə səsləndirdiyi fikirlərə dair şərhindəki bir hissəni xatırladaq: "Baş nazirin "Qarabağın öz müqəddəratını təyinetmə hüququnun beynəlxalq ictimaiyyət arasında dəstəklənməməsi" fikrinə gəldikdə, göründüyü kimi, baş nazir Azərbaycanın ərazilərinə qarşı iddialarının əsassız olduğunu deyil, yalnız beynəxalq ictimaiyyət tərəfindən dəstəklənmədiyi üçün davam etdirilməsinin ağılsız hərəkət olduğunu bildirir".



Həqiqətən, belə çıxır ki, Paşinyan xaricdəki ermənilərin özgə torpağına göz dikməyin düzgün olmamasına yox, məsələnin beynəlxalq birlik tərəfindən qəbul olunmamasına inandırmağı vacib sayır. Bəlkə də, ikincilərin mövcud istiqamətdə fəaliyyətə keçməyə də çağırıb. Hər şey mümkündür. Deməli, A.Hacızadənin dili ilə desək, Ermənistan konstitusiyasında və qanunvericilik aktlarında ərazi bütövlüyümüz və suverenliyimizə qarşı iddiaların aradan qaldırılması zəruridir. Yəni, məhz bu preambula ölkənin mövqeyinin səmimilik indiqatorudur. Ancaq...

***

Daha bir məqama diqqət yetirək. N. Paşinyan bildirir: "Mən bütün bunları (Qarabağ xüsusunda beynəlxalq aləmə qarşı çıxmaq – red.) niyə deyirəm və edirəm? Xain olduğum üçün? Mən yenidən torpaq satmaq arzusunda olan agentəm? Elə insanlar var ki, belə düşünür. Amma bütün bunları yalnız bir səbəbdən edirəm – başa düşürəm ki, bir hissəsini öz üzərimə götürdüyüm yolla getsək və onu davam etdirsək, o zaman vətənimizi itirəcəyik".

Bəli, N.Paşinyan əvvəllərdəki kimi, Ermənistan dövlətçiliyinin itirilməsindən danışır. Onun mövcud xüsusdakı ritorikasında məntiq yoxdur. Görəsən, Nikolun yolu nədir ki, həmin yolla getməyi vətənin itirilməsi sayır? Yaxşı, məsələnin mahiyyətini anlayırsa, nə üçün o yolla gedir? Əslində, təzadlı məqamlar kifayət qədərdir. Realliq isə budur ki, Ermənistan müharibə məğlubu kimi üzərinə götürdüyü öhdəliyi yerinə yetirmək istəmir. Məhz bu amil dövlətçiliyin əldən çıxmasını doğura bilməzmi?

Belə gedişat tam mümkündür. Çünki rəsmi İrəvan nəinki üzərinə düşən öhdəliyi yerinə yetirmək istəmir, eyni zamanda, avantürizmindən qalmır, Cənubi Qafqazda yeni situasiya formalaşdırmağa çalışır. Nikolun sözlərindən hasil olan qənaət isə budur ki, hansısa qüvvələr Ermənistanı hazırda yön aldığı fəlakət yolunda getməyə sürükləyir və həmin güclər onu xainə, agentə çevrilməyə qoymurlar.

***

Ələqərəz, Paşinyan bildirir ki, sözügedən bəyanatın doqquzuncu bəndində Rusiyanın Ermənistan ərazisində nəyəsə nəzarət etməsinə dair heç nə yoxdur. Nikol ağ yalan danışır və faktiki olaraq Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yolda Rusiya Federal Təhlükəsizlik Xidmətinin nəzarət funksiyası yerinə yetirməsinə dair müddəanı danır, bu, öz yerində. O, eyni zamanda, bildirir ki, Azərbaycan və Rusiya sənədin digər müddəalarını sıradan çıxardılar, bəyanatın səkkizinci bəndi ilə üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirməkdən yayındılar.

Yeri gəlmişkən, üçtərəfli bəyanatın səkkizinci bəndində bildirilir ki, "hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir". Görəsən, bu proses indiyədək olmayıb? Əlbəttə, olub, amma məsələ başqadır.

Çox güman ki, Nikol 44 günlük müharibədən sonra Azərbaycan ərazisində kəşfiyyat-diversiya fəaliyyəti həyata keçirənləri də hərbi əsir və girov sayır. Əslində, onun məntiqi ilə yanaşsaq, belə münasibət tam mümkündür. Çünki üçtərəfli bəyanatın dördüncü bəndində göstərilir ki, "Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir".

Amma erməni silahlıları Qarabağda qaldılar. Hər halda qalmasaydılar, lokal xarakterli antiterror tədbirlərinə ehtiyac yaranmazdı. Nəzərə alaq ki, həmin tədbirlərədək bölgədə separatçı qurum da saxlanılırdı. Əlbəttə, Nikol həyasızlığına salıb deyə bilər ki, üçtərəfli bəyanatda qondarma rejimin aradan qaldırılmasına dair heç nə yoxdur. Yəni, onun belə fikir bildirməsi mümkündür. Çünki üçtərəfli bəyanatın səkkizinci bəndinə Azərbaycan və Rusiyanın məhəl qoymadıqlarından söz açıb cəfəngiyyata varırsa, sənədin 4-cü bəndinə zidd mövqe tuta və bölgədə qalan şəxsləri hərbçi saya bilər. Deməli, Nikolun məntiqi ilə həmin şəxslər ələ keçiriləndə, hərbi əsir olmalıdırlar.

Təbii ki, onun belə münasibəti saxlanılan erməni diversantlarına cinayətkar kimi baxmağımıza maneçilik törətmir.

Digər tərəfdən, necə olur ki, Rusiya qoşunları Ermənistanın Türkiyə və İranla sərhədində keşik çəkir, amma Naxçıvana yolda belə bir məsələnin reallaşması qeyri-mümkündür? Tam aydındır ki, rəsmi İrəvanın məqsədi Azərbaycana qarşı çıxmaqdır. Elə ona görə də A.Hacızadə bunları bildirir: "Almaniya Kanslerinin təşəbbüsü ilə Azərbaycan və Ermənistan liderləri arasında görüşün konstruktiv və faydalı mühitdə keçməsinə, Azərbaycan–Ermənistan münasibətlərinin normallaşdırılması, sərhədlərin delimitasiyası və sülh müqaviləsi istiqamətində çağırışlara baxmayaraq, Ermənistan Baş naziri Nikol Paşinyanın beynəlxalq ictimaiyyəti yanlış məcraya yönləndirən iddiaları təəssüf doğurur".

***

Nəhayət, N.Paşinyan bilavasitə ölkəmizlə sülh gündəminin üzərində dayanır. O bildirir ki, Azərbaycan Prezidenti İlham Əliyevlə Münxendə Almaniya Kanslerinin təşəbbüsü ilə keçirilmiş görüşdə daha əvvəl Praqa və Brüsseldə əldə olunmuş razılaşmalara sadiqlik təsdiqlənib. Azərbaycan XİN-in mətbuat katibi A.Hacızadə isə deyib: "Ermənistan tərəfi anlamalıdır ki, bölgədə sülh və sabitliyin təminatının yolu ərazi bütövlüyünün və suverenliyin təsdiq olunması və hörmət edilməsi əsasında qonşu ölkələrlə münasibətlərin qurulmasından və sülhün bərqərar olunması üçün Azərbaycanla birbaşa konstruktiv danışıqlardan keçir".

Göründüyü kimi, Paşinyanın "Praqa və Brüsseldə əldə olunmuş razılaşmalara sadiqlik" məntiqi də manipulyativ xarakter daşıyır. Əvvələ, Nikol həmin razılaşmalara əməl etməyib. Yəni, o, Azərbaycanın, Qarabağ da daxil olmaqla, ərazi bütövlüyünü tanıdığını bildirsə də, bölgədə separatizmin saxlanmasına çalışıb. Bundan başqa, hazırda prioritet olan məsələ ikitərəfli danışıqlardır ki, İrəvan buna getmir, müxtəlif beynəlxalq dairələri prosesə qoşmağa baş vurur. Həmin dairələrin nə "məqsəd" daşıdıqlarını da gördük. Onların sıradan çıxdıqları da nəzərimizdədir. Götürək elə Fransanı və Avropa İttifaqını. Vaxt var idi onlar vasitəçilik missiyasını yerinə yetirirdilər. İndi Almaniya bu ampluada çıxış edirmiş kimi görüntü yaradır. Halbuki, rəsmi Berlin Azərbaycan–Ermənistan nizamlanmasına bağlı olan aktiv qütb deyil. Bəli, ölkə tərəfləri bir araya gətirib müəyyən pozitiv nəticələrə ümid bəsləyə bilər. Amma onun missiyası fundamental sayılmır və bu, hər kəsə yaxşı məlumdur. Elə Paşinyanın özünə də. Deməli, Nikol köhnə havalarda qalıb vaxt udmağa çalışmamalıdır. Çünki vaxt onun və ölkəsinin əleyhinə işləyir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirdiyi görüşlər dünyada rezonans yaradıb. Bu, beynəlxalq ictimai rəyin formalaşmasında rol almış transmilli KİV-lərin səhifələrində daha aydın görünür. Məsələn, fevralın 17-də ABŞ-nin Dövlət Departamentinin saytından başlamış, Reuters və Anadolu Ajansına, hətta "Free Malaysia Today" portalına qədər ən müxtəlif resurslar daxildir. Azərbaycan Prezidentinin Ermənistan baş naziri Nikol Paşinyan, ATƏT-in fəaliyyətdə olan sədri İan Borq və digər şəxslərlə keçirdiyi görüşlər də xarici media vasitələri tərəfindən eyni həssaslıqla izlənilib. İnternet axtarış sistemləri bu istiqamətdə 119 məqalə göstərir.**

Beynəlxalq KİV-lərin belə bu diqqətini Münxen Təhlükəsizlik Konfransının özünün əhəmiyyəti və ya keçirlən görüşlər zamanı müzakirə edilən mövzuların aktuallığı ilə də əlaqələndirmək olardı. Lakin, mövzunun ardıcıl izlənməsi ortada həm də fərqli tendensiyaların olmasından xəbər verir. Nəzərə alaq ki, Münxen Təhlükəsizlik Konfransının açılışından 2 gün öncə-fevralın 14-də Azərbaycan Prezidenti İlham Əliyevin inaqurasiya mərasimi keçirilmişdi. İnternet axtarış sistemləri göstərir ki, xarici KİV-lər 7 fevral səsvermə günü və 14 fevral inaqurasiya mərasiminə həsr edilmiş 196 məqalə yayıblar. Ümumilikdə, prezident seçkiləri prosesi barədə isə xarici KİV-lərdə ən azı 2 dəfə artıq məqalə yaymlanıb.



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

# Azərbaycanı beynəlxalq media trendinə çevirən amillər

Əlbəttə, dərc edilmiş məqalələrdə mövzuya yanaşma fərqlidir. Məsələn, Fransa mətbuatının bu istiqamətdə yazdıqları kontentlə Türkiyə KİV-lərinin hazırladıqları kontent, yaxud, Səudiyyə Mətbuat Agentliyinin (SPA) yaydığı məqalələrin keyfiyyəti eyni deyil. Amma, bu, tendensiyanı dəyişmir. Son dövrlərdə Azərbaycanın adının çəkildiyi bütün proseslərin ciddi şəkildə beynəlxalq reaksiya doğurduqu, xarici media vasitələrinin Azərbaycan mövzusuna geniş diqqət yetirdikləri müşahidə edilir.

Bu məqamda diqqət çəkən daha bir nüans vardır. Ənənəyə uyğun olaraq, ayrı-ayrı ölkələrdə baş verən proseslər barədə, adətən, Qərb KİV-ləri məlumat yayırdılarsa, qlobal ictimai rəydə mövzu üzrə təəssürat onlar yaradırdılarsa, indi vəziyyət dəyişib. 7 fevral səsvermə günü və ya 14 fevral inaqurasiya mərasimi barədə məlumat yayan, şərh yazan KİV-lərin coğrafiyası ənənəvi çərçivəni aşıb. BBC, CNN, France 24, Reuters, The Guardian, Al-Jazira, The Wall Street Journal, Euronews TV, Deutsche Welle (DW), TRT World və digər Avropa KİV-ləri ilə yanaşı, Asiya, Afrika və digər qitələrin nüfuzlu KİV-ləri də öz səhifələrində Azərbaycana həsr edilmiş məqalələr yayıblar.

Məsələn, Çinin "China Daily" nəşri Azərbaycanda prezident seçkilərinə həsr edilmiş bir neçə məqalə yayımlayıb. Məlumat üçün qeyd edək ki, "China Daily" ölkənin aparıcı ingilisdilli qəzeti olmaqla yanaşı, onlayn və mobil versiyaları ilə 350 milyon nəfərlik oxucu auditoriyasını əhatə edir. Çindən əlavə, Şimali və Cənubi Amerikanı, Avropa, Asiya-Sakit Okean hövzəsini və Afrikanı da əhatə edir. Onun internet saytı olan "Chinadaily.com.cn" isə Çinin ən nüfuzlu ingilisdilli multimedia platformasıdır.

Azərbaycandakı son prezident seçkisinin Çinlə yanaşı, Hindistan mediasında da əhəmiyyətli yer tutduğunun şahidi oluruq. Uniten News of India , The Times of India, "Hindistan TV" və digər nüfuzlu KİV-lər Azərbaycandakı seçkilər mövzusuna geniş yer ayırıblar. Bu sırada Vyetnam, Yaponiya, Səudiyyə Ərəbistanı, Qətər ( Qatar Tribune), İordaniya (The Jordan Times), Türkmənistan, Qazaxstan və sair digər ölkələrin KİV-nin Azərbaycan mövzusunu sistemli şəkildə gündəmdə saxladıqları görünür. Nəticə çıxır ki, xarici KİV-lər təkcə aktuallığına deyil, həm də Azərbaycanın adı qarışdığına görə mövzulara diqqət göstərirlər.

Azərbaycan iqtidarının uzun müddət ərzində apardığı müstəqil və balanslı xarici siyasət kursu öz bəhrəsini verir. Azərbaycan dünyanın bütün qitələrində, fərqli qütblərdə yerləşən ölkələrdə eyni dərəcədə diqqətlə izlənilir. Həmçinin, Azərbaycanın həmmüəllif və əsas icraçılardan olduğu regional və beynəlxalq layihələr onu dünya üçün vazkeçilməz ölkəyə çevirir. Azərbaycan Qərb ölkələri üçün əhəmiyyətli enerji qaynaqlarından biridir. Bu kontekstdə Avropa Birliyinə üzv ölkələrdə fəaliyyət göstərən KİV-lərin Azərbaycan mövzusunu gündəmdə saxlamaları təbiidir. Paralel şəkildə Azərbaycan Avropa ilə Asiya arasında ən mühüm nəqliyyat qovşağıdır. İki qitəni birləşdirən ən sərfəli nəqliyyat dəhlizləri Azərbaycandan keçir. Bu dəhliz Avropa və Asiya ilə yanaşı, bütövlükdə dünya üçün əhəmiyyət daşıyır.

Amma Azərbaycan adı dünyada təkcə nəqliyyat dəhlizləri və ya enerji layihələri üzrə diqqət çəkmir. Çox mühüm geopolitik proseslər mövcuddur ki, Azərbaycan orada açar nöqtələrdən biridir. Geopolitik güc mərkəzlərinin Cənubi Qafqaz və ətraf regionlar üzrə layihələrinin taleyi həm də Azərbaycanın iradəsindən asılıdır. Azərbaycan iqtidarı bu amilləri ölkəmiz üçün avantaja çevirə bilir.

# Bakı ilə qardaşlaşmış şəhərlər – Ciddə

## *Dünyanın faizsiz kredit verən ilk bankı bu şəhərdədir*

**Anamız Yer kürəsi o qədər müharibə, münaqişə, problem və iztirablar görüb ki, indi artıq mütərəqqi təfəkkürlü dünya siyasətçiləri təkcə ölkələr və ya xalqlar arasında deyil, hətta şəhərlər arasında da dostluq, əməkdaşlıq münasibətləri yaratmağa, bu müsbət tendensiyadan bəhrələnməyə çalışırlar. Qardaşlaşmış şəhərlər ənənəsi bu baxımdan ən mükəmməl addımdır. On illərdən bəri davam edən bu prosesdə Azərbaycan paytaxtı da təxminən iyirmi şəhərlə qardaşlaşıb.**

Mən məmnunam ki, həmin şəhərlərin beşində olmuşam. Moskva – həm yüz illər boyu tərkibində olduğumuz dövlətin paytaxtı kimi, həm də nəhəng çay sahili boyunca düzülmüş möhtəşəm saraylarına görə xoşuma gəlmişdi. Təbriz – canı, qanı, dili, dini, imanı ilə qohum-əqrabalarımdan qətiyyən fərqlənməyən insanların gözündəki həsrət, kədər və nisgillə yaddaşıma əbədi yazılıb. İstanbul – dünyanın bir başından o biri başına, Şimalından Cənubuna, Şərqindən Qərbinə, səhrasından ümmanlarına yük daşıyan saysız-hesabsız gəmi-bərələrin bir-birindən fərqli siqnalları (fitləri) ilə mənim üçün unudulmaz olmuşdu. Bəsrə – türkmən qardaşlarımızın da, ərəb dindaşlarımızın da yaşadığı başıbəlalı İraq dövləti üçün çıxış yolu, dolanacaq ünvanı, satmaq mümkün olan nəyisə satıb, həyat əhəmiyyətli nələrisə almaq imkanı verən şəhər olduğuna görə, onun barəsində təəssüratlarım heç də ürəkaçan deyil. Ciddə – xoşbəxtəm ki, Ərəbistan yarımadasının bu cənnət məkanında bir neçə dəfə olmuşam.



Səudiyyə Ərəbistanı Krallığının ikinci paytaxtı, ölkənin məlyə və əsas turizm mərkəzi olan Ciddə şəhəri təkcə İslam ölkələrinin tarixinə deyil, ümumiyyətlə, dünya tarixinə özünəməxsus ştrixlərlə yazılmışdır. Xatırladım ki, buradakı şəhər infrastrukturuna aid olan bütün müasir tikinti, qurğu və digər uğurları bir kənara qoysaq belə, təkcə İslam İnkişaf Bankının nüfuzu bu şəhəri hamının gözündə ucaldır.

(ardı 8-də səhifədə)

# Beynəlxalq səhnədə “yeni paradiqma”

## Söhbət Fransa–Ermənistan–Hindistan hərbi alyansından gedir

**Paris və Dehlinin hər birinin bu yeni “üçlər ittifaqı”ndan umacaqları olduğu kimi, strateji məqsədləri də var. Onların bu korporativ məqsədlərindən İrəvanın maksimum öz xeyrinə yararlanmağa çalışdığı şübhə doğurmur. Xüsusilə Bakının 2023-cü il sentyabrında düzənlədiyi lokal antiterror tədbirindən sonra İrəvanın müasir silahlar almağa girişməsi və bu məqsədlə Paris və Dehli ilə bir neçə hərbi müqavilə imzalaması nəzərdən yayınmayıb. Fəqət bu zaman Hindistan və Fransa ilə müqayisədə Ermənistanın beynəlxalq nüfuz və çəki dərəcəsindəki ciddi fərq də özünü göstərir.**

Makron Fransasının İrəvan üzərində böyük təsirə malik olması danılmaz faktdır. Əslində, Yelisey sarayının müvəqqəti sahibi Cənubi Qafqazla bağlı özünün təxribatçı mövqeyini heç vaxt gizlətməyib. Ermənistanın bu ölkələrlə münasibətlərini üçtərəfli rəsmi çərçivəyə salmağa can atır. Bəs, İrəvanın Qərb və Şərq istiqamətli bütün bu çırpıntıları, Parisin erməni revanşizmini reabilitasiya cəhdləri bölgədə yeni müharibənin alovlanmasına gətirib çıxara bilərmi? Bu mövzuya məqalənin sonunda aydınlıq gətirməyə çalışacağıq.



* **

“Ermənistan baş naziri Nikol Paşinyan Fransa və Hindistandan silah tədarükü üzrə müqavilələri müdafiə edərək, ölkənin milli təhlükəsizliyinin və müdafiəsinin təminatının vacibliyini önə çəkib. Azərbaycan isə buna qarşıdır, Ermənistanın adıkeçən dövlətlərlə hərbi sövdələşmələrinə Cənubi Qafqaz bölgəsində silahlanma yarışının kəskinləşməsi kimi baxır. Üçlərin hərbi-texniki əməkdaşlığı özündə Ermənistanın xarici siyasətində Rusiyadan çoxdankı asılılığından əhəmiyyətli dərəcədə uzaqlaşmasını ehtiva edir”. Bu barədə “The Geopolitics” nəşri yazıb.

Məqalədə qeyd olunur ki, bu yaxınlarda Fransa prezidenti Emmanuel Makronun əsas qonaq qismində Hindistan Respublikasının 75-ci ildönümünü ilə bağlı bayram tədbirlərində iştirakı zamanı iki ölkə bir-birnə “müdafiə sənayesinin yol xəritəsini” təqdim ediblər. Həmin sənədin başlıca tezisi hərbi silahların birgə istehsalıdır. Bundan başqa, tərəflər arasında kosmosda əməkdaşlıq barədə razılıq əldə olunub, eləcə də Hindistan və digər “dost ölkələr” üçün helikopterlər, sualtı qayıqlar kimi müdafiə texnikasının birgə istehsalı üzərində işləmək öhdəliyi götürüblər.

“Bu hərbi əməkdaşlığın əsas istiqamətlərindən biri Hind–Sakit okean strategiyasıdır”, – yazan “The Geopolitics” Fransanın Hindistanın BMT Təhlükəsizlik Şurasında daim üzv olmasını dəfələrlə dəstəklədiyini də vurğulayıb.

Fransa–Ermənistan–Hindistan triosunu Azərbaycana dost olmayan dövlətlərin ittifaqı kimi xarakterizə etmək lazımdır. Parisin və Dehlinin İrəvanı silahlandırmaq istiqamətindəki davamlı və sistemli fəaliyyətinin nüvəsində məhz bu amil dayanır. Yeri gəlmişkən, keçən ilin yayında Hindistan mediası baş nazir Narendra Modinin Parisə səfəri ərəfəsində Hindistan və Fransa arasında birgə hərbi istehsalla bağlı müqavilələrin imzalanacağı barədə məlumatları tirajlamışdı. Bir müddət sonra Dehlinin Parisdən qırıcı təyyarələr alması ilə bağlı silah tədarükü müqavilələri imzalandı. Aydındır ki, Fransa və Hindistan arasındakı hərbi-texniki əməkdaşlığın indiki vəziyyəti bölgəmizdə də yaxından izlənilir. Bu zaman biz rəsmi İrəvanın Dehli ilə hərbi-texniki sahədə əməkdaşlığı canlandırmasına da şahidlik edirik. Ermənistanın Hindistandan artilleriya və PUA sistemləri tədarük edəcəyinə dair məlumatlarda onların arasında Fransa istehsalı olan sistemlərin mövcudluğuna diqqət çəkilirdi.

***

“The Geopolitics”in məqaləsində daha sonra qeyd olunur ki, Fransa özünün Ermənistanın müdafiə potensialını möhkəmləndirməyə meylini açıq şəkildə nümayiş etdirir: “Xüsusilə hava hücumundan müdafiə sahəsində əməkdaşlığı Cənubi Qafqazdakı regional problemlərə cavab olaraq düşünülür. “Yer–hava” tipli müasir raketlərin və radiolokasiya texnologiyasının göndərilməsi də bu məqsədə xidmət edir.

Fransa Senatının 2001-ci ildə “erməni soyqırımı”nı tanıması, eləcə də bu ölkənin ATƏT-in Minsk qrupunun “Dağlıq Qarabağ münaqişəsi” üzrə vasitəçilik missiyasında həmsədr olması iki ölkənin siyasi münasibətlərinin təməlini təşkil edir. İqtisadi planda isə əməkdaşlıq daha etibarlıdır və genişlənməkdədir. İki ölkə arasında ticarət dövriyyəsi artan templə inkişaf edir. Ermənistanın həyati əhəmiyyətli sahələrinə yatırılan sərmayə sayəsində Fransa 2016-cı ildə maliyyə həcminə görə İrəvanın ikinci ən böyük investoru olub”.

2020-ci ilin noyabr məğlubiyyətindən sonra isə Paris və İrəvan arasında əməkdaşlığın ağırlıq yükü hərbi sahəyə yönəldildi. Amma Makron hakimiyyətinin bu yöndə cəhdlərinin heç bir faydasının olmayacağını indidən söyləmək mümkündür. Avropalı və asiyalı tərəfdaşlarının Ermənistanı silahlandırmasının İrəvan üçün hansı təhlükələrə səbəb olacağı barədə Azərbaycan Prezidenti İlham Əliyev 2023-cü il dekabrın 6-da ADA Universitetində keçirilən “Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər” Forumunda söyləyib:

“Fransa və Hindistan Ermənistanı silahlandırmaqla, necə deyərlər, tonqala yanacaq tökürlər və Ermənistanda reallıqdan uzaq fikir formalaşdırırlar. Ermənistan fikirləşə bilər ki, həmin silahları istifadə etməklə yenidən Dağlıq Qarabağı işğal edə bilər. Mən hələ o silahların keyfiyyəti haqqında danışmıram. Ən müasir silahları olsa belə, bu, mümkün deyil. Çünki müharibənin aqibəti insanlar və onların ruhu sayəsində həll edilir. Hətta, İkinci Qarabağ müharibəsindən sonra Ermənistan özü bəyan etdi ki, müharibə zamanı onların 12 min fərarisi olub. Yəni, onlar Azərbaycan qarşısında tab gətirə bilməzlər”.

Cənab Prezidentin məsələyə qəti və birmənalı qiyməti İrəvana mesaj kimi qəbul edilməlidir. Əgər İrəvan bundan lazımi nəticəni çıxarmayıb, silahlanmaya davam etməyi məqbul sayırsa, son nəticəni də gözünün qabağına gətirsin.

***

Məqalənin sonunda “The Geopolitics”in analitiki yazır ki, bu yeni üçtərəfli (Fransa–Ermənistan–Hindistan) əməkdaşlıq ikitərəfli münasibətlərdən qlobal çağırışlara kompleks yanaşmaya strateji dönüş deməkdir: “Burada uzunmüddətli üç məqsədin yaxınlaşmasını qeyd etmək olar: Fransanın Hindistanın qlobal rolunu qəbul etməsi, Hindistanın Ermənistana texnoloji müdaxiləsi və Ermənistanın Avropaya inteqrasiyaya can atması. Fransa, Ermənistan və Hindistan arasında strateji ittifaqın formalaşması beynəlxalq münasibətlərdə yeni paradiqmanı nümayiş etdirir. Perspektivə hesablanmış bu sintez çoxqütblü və balanslaşdırılmış dünya düzəninin qurulmasına yönəldilib”.

İlk baxışda mütərəqqi ideya təsiri bağışlayan və gəlişigözəl sözlərlə müşayiət olunan bu hərbi alyansın əsl məqsədinin heç də dünya düzənini sağlamlaşdırmağa hesablanmadığını anlamaq üçün politoloji təhsilə mailk olmağa gərək yoxdur. Sadəcə, düşmənçiliyi kənara qoymağa tələsməyən İrəvanın bu və buna bənzər hərəkətləri ilk növbədə Cənubi Qafqazda qeyri-standart situasiyalar, arzuolunmaz böhran şəraiti yarada bilər. Bunun da altını yenə İrəvan çəkməli olacaq. Ermənistan, doğrudanmı, Azərbaycanla yeni müharibəyə hazırlaşır? Onu növbəti və əvvəlkilərdən daha ağır fəlakətə düçar edəcək bu avantürist addımı atmağa kim təhrik edə bilər: Paris, yoxsa Dehli? Bəlkə ikisi də eyni vaxtda?

Yeni “hərbi alyans”, “beynəlxalq paradiqma” adlandırdıqları “üçlər ittifaqı”nın üzvlərinin gündəliyinə bu notu salmağımız yetərlidir: xarakter və məqsədindən asılı olmayarq, heç bir alyans Azərbaycanın yer aldığı və artıq beynəlxalq güc mərkəzlərindən birinə çevrilmiş Türk Dövlətləri Təşkilatının ortaq hərbi gücü qarşısında heç nə etməyə qadir deyil.

**İmran BƏDİRXANLI**
**XQ**

# Münxen konfransı, Cənubi Qafqaz və İrəvan–Dehli yaxınlığı

## Rusiyalı siyasi ekspert nələrə diqqət yetirir?

**Yubiley toplantısı, yəni sayca altmışıncı olan Münxen Təhlükəsizlik Konfransında, təbii ki, Cənubi Qafqaz gündəliyi əsas yer tutmurdu. Bununla belə, bölgə ilə bağlı tədqiqatçılar toplantıya diqqət yetirdilər. Bu fikirləri Rusiya Xarici İşlər Nazirliyinin Beynəlxalq Tədqiqatlar İnstitutunun Avro-Atlantik Təhlükəsizlik Mərkəzinin aparıcı elmi işçisi, politoloq Sergey Markedonov özünün “Donskoy Kazak” teleqram kanalında yazıb.**



S.Markedonov bildirib ki, mötəbər forum çərçivəsində Ermənistan–Azərbaycan münasibətlərinin nizamlanması müzakirə olundu. “Kimsə deyəcək ki, böyük işdir, görünməmiş hadisədir. Ancaq məsələ onilliklərdir müzakirə olunur. Eləcə də Qarabağdakı və Ermənistanda hərbi-siyasi status-kvo da, həmçinin”, – deyən politoloq 44 günlük müharibədən sonra Azərbaycanın bir neçə dəfə vəziyyəti dəyişdiyini, lakin uzun müddətdir davam edən problemin həllinin göz önündə olmadığını vurğulayıb.

Rusiyalı siyasi ekspert qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan baş naziri Nikol Paşinyan arasında Almaniya Kansleri Olaf Şoltsun moderatorluğu ilə keçirilmiş görüş hər iki ölkə liderinin 2024-cü ildəki ilk təmasıdır. Onun sözlərinə görə, bu görüş 2023-cü ildə diplomatik durğunluğa yol açan sülh sazişinin imzalanması ilə bağlı müsbət yeni il proqnozları dalğasından sonra gerçəkləşdi: “Üstəlik, fevralın 13-də bir neçə aylıq sakitlikdən sonra, ilk dəfə olaraq, hərbi eskalasiya (Azərbaycan-Ermənistan şərti sərhədindəki hərbi toqquşma – red.) yaşandı. Bundan bir neçə gün sonra Paşinyan və Əliyev danışıqlar masasına qayıtmaq qərarına gəliblər. Masa üzərində çoxdan tanış olan “menyu”dur– demarkasiya-delimitasiya, sülh müqaviləsinin hazırlanması, əlaqəli mövzu kimi Ermənistan–Türkiyə münasibətlərinin normallaşması”.

S.Markedonov Qərbin Cənubi Qafqazdakı mövcud vəziyyətdən öz xeyrinə istifadə etməyə çalışdığını vurğulayıb. Bu baxımdan Münxen konfransının təşkilatçısı kimi Almaniyanın danışıqlara təşəbbüs göstərdiyini önə çəkib. O, eyni zamanda, Münxen konfransı çərçivəsində ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinkenin tərəflərlə danışıqlar aparması üzərində dayanıb. Həmçinin Blinkenin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O`Brayenin “Vaşinqton İrəvan və Bakının mövqelərini yaxınlaşdırmağa çalışacaq” fikrini qabardıb.

Rusiyalı siyasi ekspertin düşüncəsinə görə, Bakının Münxen Təhlükəsizlik Konfransında iştirakı rəsmi İrəvandan tamamilə fərqli mövqedədir. Politoloqun qənaətincə, Azərbaycan bütün gücü ilə özünün əhəmiyyətini bir münaqişədən daha geniş tutmağa çalışır. “İqlim gündəliyinin müzakirəsində Azərbaycan liderinin iştirakı da bundan irəli gəlir. Qeyd edək ki, İlham Əliyev Co Baydenin iqlim məsələləri üzrə xüsusi nümayəndəsi Con Kerri ilə görüş keçirib”, – deyən Markedonov diqqəti ölkəmizin COP–29-a evsahibliyinə yönəldib və bildirib ki, tədbir Bakının “orta güc” iddiasını əsaslandırmaq üçün yaxşı platformadır.

S.Markedonov yalnız Ermənistan–Qərb deyil, eyni zamanda, İrəvan–Dehli əməkşdalığından da söz açıb. Deyib ki, ikinci xüsusda artan təmaslar əksər analitiklərin “kor nöqtəsində”dir. Politoq yazıb ki, həm Rusiyada, həm də Birləşmiş Ştatlarda ekspertlər bütün mövcud problemləri “soyuq müharibə”nin remeyki formatında təsvir etməyə üstünlük verirlər. “Bu məntiqlə Ermənistan “Rusiyadan qaçaraq” ABŞ və Avropa İttifaqının “qucağına girir”. Lakin belə bir sxemi aksioma kimi qəbul etmək çox sadədir. Münxen konfransı isə Ermənistan və Hindistanın xarici işlər nazirləri Ararat Mirzoyan və Subrahmanyam Caişankar arasında danışıqlar platformasına çevrildi. Nazirlərin təması zamanı siyasi dialoqun yüksək səviyyədə olmasından məmnunluq vurğulandı.

Rusiyalı analitik bu kimi fikirlərin quru sətirlər olmadığı qənaətindədir. O bildirib ki, Hindistan və Ermənistan son vaxtlar hərbi-texniki əməkdaşlığı artırırlar. Hindistanın ekspert icmasının nümayəndələri hind-erməni yaxınlaşması perspektivlərinə dair bəzi qiymətləndirmələr aparırlar: “Məsələn, professor Hriday Sarma hətta üçtərəfli Avrasiya strateji ittifaqının (Paris–Dehli–İrəvan) yaradılmasından da danışır. İlk baxışdan, belə konstruksiyalar ümidsiz proyeksiya kimi görünür. Ancaq burada düşüncə qatarının özü vacibdir: strateji qiymətləndirmələrin qurulmasında ikiqütblülük yoxdur”.

Sonda politoloq bütün bunların fonunda Rusiyanın mövqeyinin nədən ibarət olması üzərində dayanıb. O bildirib ki, baş verənlər, daha doğrusu, Paris–Dehli–İrəvan üçbucağı fonunda Moskvanın, əslində, çıxarmalı olduğu nəticə var. Rusiya ətalət ssenarilərini, hər şeydən əvvəl, informasiya sferasında aradan qaldırmalıdır: “Eyni zamanda, başa düşmək lazımdır ki, həm Qərbdən, həm də Şərqdən gələn təşəbbüslərə Moskvanın tərəfdaşları üçün faydalı olan və təkcə keçmişə deyil, gələcəyə yönəlmiş mənalı layihələrə əks çıxmaq lazımdır”.

***R.ƏVƏZ***
***XQ***

# Bakı ilə qardaşlaşmış şəhərlər – Ciddə

**(əvvəli 7-ci səhifədə)**

Məmnunam ki, 2001-ci ilin payızında bir qrup azərbaycanlı diplomat və jurnalistlərlə bərabər Ciddədə olarkən, İslam İnkişaf Bankının prezidenti, doktor Əhməd Məhəmməd Əli bizi qəbul etmiş və bankın fəaliyyəti barədə ətraflı məlumat vermişdi. Bu barədə səfər təəssüratlarım “Salam, qibləm olan diyar” adlı kitabda yazmışdım.

Dünyanın aparıcı maliyyə-kredit qurumlarından biri olan bu bankın üzvlərinin hamısı müsəlman ölkələridir. Bildirilir ki, 1973-cü ilin dekabrında Ciddədə keçirilən İslam Əməkdaşlıq Təşkilatına daxil olan ölkələrin Maliyyə Nazirlərinin Konfransında imzalanan niyyət bəyannaməsinin nəticəsində İslam İnkişaf Bankı təsis edilmişdir. Bu bank faizsiz maliyyə sistemi sahəsində fəaliyyətə başlayan ilk beynəlxalq maliyyə təşkilatıdır.

Əlavə edilir ki, bankın məqsədi quruma üzv olan ölkələrin və fərdi müsəlman cəmiyyətlərinin iqtisadi inkişafının və sosial tərəqqisini İslam hüququ (fiqhi) əsasında təmin etməkdir. Bankın əsas funksiyası iqtisadi və sosial inkişaf üçün layihələrin maliyyələşdirilməsi, müəssisələrin xüsusi kapitalında iştirak və ya investitsiya qoyuluşu, qrantların və ssudaların verilməsi şəklində üzv dövlətlərə maliyyə yardımını təmin etməkdən ibarətdir. Bankın 56 üzvü var. Azərbaycan bu quruma üzv olan 49-cu ölkədir.

Bu bank Azərbaycanda Bakı bərk məişət tullantılarının yandırılması zavodunun tikintisini, Yevlax – Gəncə avtomobil yolunun yenidən qurulmasını, Mingəçevir SES-in yenidən qurulmasını, Vəlvələçay –Taxtakörpü kanalının tikintisini və Cənub istilik elektrik stansiyasının tikintisi layihəsini maiyyələşdirib.

Səudiyyə Ərəbistanı Krallığı İnformasiya və Mədəniyyət Nazirliyinin bizə təqdim etdiyi bukletlərdə qeyd edilirdi ki, müsəlmanların “dini turizmin ürəyi” adlandırdığı Ciddə şəhəri həm ziyarət, həm də səyahət baxımından olduqca maraqlı məkandır. Qırmızı dəniz sahilindəki bu liman şəhəri ərəb dünyasının işgüzar camiyyəsi üçün kifayət qədər cəlbedicidir. Bundan başqa, Qurban bayramı günlərində həcc ziyarətinə gələn milyonlarla zəvvar öncə Ciddə şəhərində olur. Çünki bu şəhər quru, dəniz və hava daxil olmaqla nəqliyyat şəbəkəsi ilə təchiz edilmişdir.

Şəhər öz göydələnləri və ecazkar yol infrastrukturu ilə göz oxşadığı kimi, tarixi məhəllələrin və binaların qorunması da diqqətdən yayınmır. Məsələn, buradakı Abdul Rauf Xəlil muzeyi həm 2500 ildən çox tarixi ilə, həm də İslam mədəni irsinə ev sahibliyi etməsilə məşhurdur. Al Shallal Tame parkı isə müasirliyi ilə seçilir. Nəhəng oyuncaqları, buz meydançası (bəli, düz oxudunuz, Ərəbistanda buz meydançası), rəqs otaqları və şənlik salonları ilə məşhurdur. Maraqlı konseptlərə malik zallar və amazon parkı bu məkanı xüsusilə cəlbedici edir.

Biz orada başqa bir maraqlı faktla, daha doğrusu, oxşarlıqla da rastlaşmışdıq. Belə ki, Bakıda İçərişəhər olduğu kimi, Ciddədə də Köhnəşəhər (Al Balad) mövcuddur. Bu ünvan yarımadada 2500 illik tarixi olan ən qədim yaşayış məntəqəsidir. Köhnəşəhər mərcan rəngli köhnə üslublu evləri ilə diqqət çəkir. Bakıdakı kimi orada da çoxlu fəvvarə var. Ən böyüyü isə şəhərin rəmzlərindən biri kimi qəbul edilən Kral Fəhd fəvvarəsi(fontanıdır) .

Mən “Xalq qəzeti”ndə verilmiş bir yazımda Qırmızı dənizdəki həmin fəvvarənin rəngbərəng gecə görüntüsünü “bir rəngli dənizin çox rəngli möcüzəsi” adlandırmışdım. Yol yoldaşımız, ərəb dili mütəxəssisi olan rəhmətlik Müqəddəs Payızovun təşəbbüsü ilə gecə dənizdə keçirilən su şousuna da getmişdik. Şou zamanı suyun hündürlüyünün 321 metrə qədər yüksəldiyi görünürdü. Həm də çoxsaylı işıq effektləri ilə.

Ciddənin ən görkəmli yerlərindən biri də Məkkə qapısıdır. Bu qapı 1979-cu ildə Ciddə ilə Məkkəni birləşdirən əsas yolda tikilib. Dedilər ki, qapının Məhəmməd peyğəmbərin (s.) doğulduğu yerdə inşa edilməsinə görə buranın İslam dünyasında xüsusi əhəmiyyəti var. Buradakı nəhəng rəhil ( quran kitabının yerdə əyləşmiş insanın qarşısına açıq şəkildə qoyulması üçün taxtadandan hazırlanan vasitə) heykəli də sərnişin, səyahətçi və zəvvarların böyük marağına səbəb olur. Şəxsən mən o rəhilin altından bir neçə dəfə keçmişəm.

Şəhərin əsas bəzəklərindən, görməli yerlərindən biri də Ciddə qülləsidir. Çox təəssüf ki, mən onu görməmişəm. Çünki biz Səudiyyə Ərəbistanına sonuncu dəfə 2013-cü ildə getmişik, həmin qüllə isə 2019-cu ildə istifadəyə verilib. Həmin qülləni görməsəm də, həm Ər-Riyadda, həm də Ciddədə onlarca göydələnin fotolarını çəkmişdim. İnternet resurslarında deyilir ki, ümumi hündürlüyü 1001 metr olan Ciddə qülləsini şəhərin, demək olar ki, hər yerindən görmək mümkündür. Elə Səudiyyə Ərəbistanını da dünyanın hər yerindən”görmək” mümkündür.

Bax, bizim Bakı, gözəl paytaxtımız məhz belə bir möhtəşəm şəhərlə qardaşlaşmışdır.

**İttifaq MİRZƏBƏYLİ**
**XQ**

# Yeni dövrün xarici siyasətində növbəti üfüqlər



**Zəngin tarixi keçmişə, çoxəsrlik dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı suveren ərazilərinin, əzəli torpaqlarının işğal altında qalması ilə barışmayaraq, 2020-ci ildə 44 günlük Vətən müharibəsi apararaq ərazi bütövlüyünü bərpa etdi. Ötən ilin sentyabrında keçirilən lokal xarakterli antiterror tədbirləri dövlət suverenliyimizin tam bərqərar olunması ilə nəticələndi. 2024-cü il fevralın 7-də keçirilən növbədənkənar prezident seçkiləri isə ötən dövrə bir növ yekun vurulması idi. Seçkilərdən sonra ölkəmiz yeni dövrə qədəm qoydu.**

Yeni dövr yeni nəfəs, yeni imkanlar, yeni hədəflər deməkdir və xarici siyasətimizin qarşısında yeni üfüqlər açır. Bu dövrdə Azərbaycanın beynəlxalq nüfuzunun yüksəldilməsi, onun dünya birliyindəki layiqli yerinin qorunub saxlanılması, daha da möhkəmləndirilməsi prioritet təşkil edir. Qeyd etmək lazımdır ki, Azərbaycan yeni dövrə özünə güvəni yüksək şəkildə daxil olub. Uzun illərdir xarici siyasət sahəsində, beynəlxalq təşkilatlarla iş istiqamətində toplanmış zəngin təcrübə burada bazis rolunu oynayır.

Bu gün Azərbaycan sözü eşidilən, mövqeyi ilə hesablaşılan ölkələrdən birinə çevrilib. Bütün bunların kökündə isə Prezident İlham Əliyevin elan etdiyi xarici siyasətdə müdafiədən hücum diplomatiyasına keçilməsi strategiyası mühüm rol oynayır. Məhz bu siyasət nəticəsində artıq dünyada Azərbaycan həqiqətlərini aydın dərk edirlər.

Sözsüz ki, bu məqamda ulu öndər Heydər Əliyevin tarixi xidmətlərini qeyd etməmək mümkün deyil. 1990-cı illərin əvvəllərində Azərbaycan ərazilərinin 20 faizi işğal edilmiş, 1 milyondan çox vətəndaşı qaçqın və məcburi köçkünə çevrilmiş dövlət idi. Bir iqtisadi formasiya dağılmış, digərinə isə keçid hələ baş tutmamışdı. Ölkəmiz "bazar iqtisadiyyatına keçid" adlanan bir dövr yaşayırdı. Humanitar yardımlardan asılılığın dərəcəsi böyük idi. Heydər Əliyev Prezident kimi səfər etdiyi hər bir ölkədə o vaxtlar dünya birliyində hələ yaxşı tanınmayan Azərbaycanın həqiqətlərini çatdırırdı. Bütün bunlar həm uzun vaxt, həm gərgin əmək tələb edirdi, həm də yorucu proses idi. Buna baxmayaraq, Heydər Əliyev yorulmadan Ermənistanın işğalçı dövlət olduğunu səfər etdiyi yerlərdə, eləcə də Bakıda keçirdiyi görüşlərdə, qəbullarda diqqətə çatdırırdı.

Eyni zamanda, ulu öndərin bilavasitə rəhbərliyi altında müdrik neft strategiyası formalaşırdı. 1994-cü il sentyabrın 20-də dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 məşhur neft şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında müqavilə imzalandı. Həmin saziş, eləcə də sonralar neft-qaz sahəsində imzalanmış sazişlər Azərbaycanın iqtisadi müstəqilliyinin təminatçısı oldu. Ulu öndərin vaxtilə dediyi kimi, "iqtisadiyyatı güclü olan dövlət isə hər şeyə qadirdir". Bu mənada ölkəmizin hazırda əldə etdiyi uğurlarda Ümummilli liderin çox böyük payı var.

2003-cü ildən etibarən isə cənab İlham Əliyev ulu öndərin qoyduğu, necə deyərlər, möhkəm bünövrə üzərində dayanıqlı, etibarlı, qarşılaşdığı çağırışlara cavab vermək imkanına malik dövlətin qurulması istiqamətində gərgin işə başladı. Görülən işlər ilk olaraq, iqtisadi sahədə özünü büruzə verdi. 2009-cu il noyabrın 2-də Bakı Dövlət Universitetinin 90 illik yubileyində Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan iqtisadi cəhətdən artıq oturuşmuş dövlət kimi tanınır: "Mən hesab edirəm ki, biz artıq iqtisadi sahədə keçid dövrünü başa vurmuşuq. Nəzərə alsaq ki, dünyanın aparıcı maliyyə qurumları Azərbaycanda aparılan islahatları çox yüksək qiymətləndirir. Müxtəlif hesablamalara görə, Azərbaycan postsovet məkanında iqtisadi islahatlar və iqtisadi inkişaf baxımından birinci yerdədir. Mən hesab edirəm ki, artıq bu sahədə keçid dövrü başa çatıb". Prezidentin həmin fikirləri Azərbaycanın iqtisadi inkişaf, bütövlükdə dövlətçiliyinin, ictimai həyatının tarixində çox əhəmiyyətli bir dövrünün başa çatması, yeni keyfiyyət mərhələsinin əsasının qoyulmasını ifadə edən bəyanat idi.

İqtisadi uğurların effekti özünü digər sahələrdə – xarici siyasət, idman, mədəniyyət... sahələrində də göstərməyə başladı. Ölkəmiz 2011-ci il oktyabrın 24-də BMT Təhlükəsizlik Şurasının iki illiyə (2012–2013) qeyri-daimi üzvü seçildi. Həmin il xalqımız və dövlətimiz üçün daha bir böyük uğurla yadda qaldı. Azərbaycan "Avroviziya-2011"in qalibi oldu. Bunu nəticəsində, növbəti ildə bu nüfuzlu beynəlxalq mahnı yarışması Bakıda keçirildi. Bunların hər ikisi lider ölkə olmaq yolunda mühüm məqamlar idi. BMT-nin üzvü olan bütün dövlətlər içərisində sayılıb-seçilənlərdən, məhz siyasət müstəvisində bir çox böyük dövlətləri arxada qoyaraq, beynəlxalq problemlərin həllində səs sahibi olmaq Azərbaycanın siyasət iyerarxiyasında yeni mövqeyindən xəbər verirdi. Ölkəmiz TŞ-dəki mövqeyindən qlobal problemlərin həlli üçün tribuna kimi, məharətlə istifadə etdi.

Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsində Qoşulmama Hərəkatına üzvlüyümüz də mühüm rol oynadı. Öz xarici siyasətində heç bir hərbi alyansa qoşulmamaq istiqamətini seçmiş Azərbaycan 2011-ci il mayın 26-da hərəkata üzv olan dövlətlərin yekdil dəstəyini əldə edərək, QH-yə tamhüquqlu üzv qəbul olundu. 2019–2022-ci illərdə isə ölkəmiz üzvlərinin sayına görə BMT-dən sonra ən böyük təşkilat olan QH-yə sədrlik etdi. Hərəkatın növbəti sədri olacaq Uqandanın sədrliyi bir il gec təhvil ala biləcəyini ifadə etməsindən sonra, QH üzv dövlətləri, hərəkata uğurlu sədrliyini nəzərə alaraq Azərbaycanın əlavə 1 il müddətinə təşkilata sədrlik etməsi ilə bağlı ölkəmizə müraciət etdilər. Rəsmi Bakı isə hərəkatın fundamental prinsiplərinə və dəyərlərinə olan sadiqliyini əsas götürərək, müraciətə müsbət cavab verdi. Beləliklə, Azərbaycanın QH-yə sədrliyi 4 il (2019-2023-cü illərdə) davam etdi. Azərbaycan QH-yə uğurlu sədrliyi dövründə dünyanın müxtəlif regionlarını bir araya gətirdi və konsensusu inkişaf etdirdi.

Yazımızın girişində Azərbaycanın prezident seçkilərindən sonra yeni dövrə qədəm qoyduğunu bildirməyimiz təsadüfi deyildi. Qarabağ məsələsi uzun illər Azərbaycanın, belə deyək, əsas enerjisini alırdı. Ölkə rəhbərliyinin əsas diqqəti məsələnin həlli istiqamətində cəmləşmişdi. Münaqişənin qalması ölkəmizin böyük potensialının ortaya qoyulmasına maneçilik törədirdi. İndi isə ölkəmizin Qarabağ adlı problemi yoxdur.

Hazırda ölkəmiz Xəzər–Qara dəniz hövzəsi, Mərkəzi Asiya, Yaxın Şərq, postsovet məkanı, Avropa və digər regionlarla geniş əlaqələrə malikdir. Bu bölgələrin bir çox ölkələri ilə yaxın tərəfdaşlıq əlaqələri qurub və səmərəli qarşılıqlı əməkdaşlığın inkişafına nail olub. Buna görə də ölkəmiz qlobal səviyyədə öz siyasətini həyata keçirməyi bacaran etibarlı tərəfdaş imicini qazanıb. Prezident İlham Əliyevin fevralın 14-də keçirilən andiçmə mərasimində bildirdiyi kimi, Azərbaycan artıq lokal səviyyədə fəaliyyət göstərən dövlət deyil, dünyanın müxtəlif bölgələrində fəal əməkdaşlığı təşviq edən, etibarlı tərəfdaş kimi qəbul olunan, dünyada qlobal problemlərin həllində aktiv iştirak edən və buna əməli töhfələr verən ölkə kimi qəbul olunur.

Bu çərçivədə iqlim dəyişikliyi məsələləri üzrə dünya miqyasında ən böyük beynəlxalq konfransın – COP29-un (BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası) bu il Azərbaycanda keçirilməsi xüsusi önəmə malikdir. COP29 və Azərbaycanın evsahibliyi etdiyi və edəcəyi digər qlobal tədbirlər ölkəmizin dünyada nüfuzunun böyük dərəcədə artdığını göstərir. Dünyanın gündəliyində dayanan ən mühüm problemin (iqlim dəyişilmələri probleminin) həllinə həsr olunan qlobal tədbir olan COP29-a Azərbaycanın evsahibliyi etməsinin beynəlxalq aləmdə dəstəklənməsi ölkəmizin effektiv, çoxtərəfli danışıqlar aparmaq, dünyanın ayrı-ayrı regionlarında fərqli baxışları bir araya gətirmək, konsensus əldə etmək, qlobal problemlərin həllinə töhfə vermək bacarığının və güclü potensialına olan inamın nəticəsidir. Şübhəsiz ki, Azərbaycan bundan sonra da xarici siyasətini bu prinsiplər və parametrlər əsasında quracaq və inkişaf etdirəcək.

**Dövlət İdarəçilik Akademiyasının müşaviri, politoloq Zaur Məmmədov "XQ"yə açıqlamasında bildirdi ki,** beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş olmaq hər ölkəyə nəsib olmur.



Əgər ölkələr 1950–60-cı illərdə İkinci dünya müharibəsinin sonunda yaradılan Yalta–Potsdam sisteminə uyğun olaraq böyük koalisiyalara ayrılmışdılarsa, 1990-cı illərdən ikitərəfli və çoxtərəfli əməkdaşlıq platformaları xüsusi rol oynamağa başlayıb: "Biz Azərbaycanın xarici siyasət trayektoriyasına nəzər yetirsək görərik ki, rəsmi Bakı ilk gündən beynəlxalq təşkilatlardan əlavə, ikitərəfli və çoxtərəfli münasibətlərin qurulmasına və inkişafına da xüsusi diqqət yetirib. Bunun nəticəsidir ki, hazırda Azərbaycan dünyanın, demək olar bütün ölkələri ilə əməkdaşlıq edir. Bu əlaqələr çərçivəsində ölkəmiz, ilk növbədə, milli maraqlarının həyata keçirilməsinə çalışır".

Z.Məmmədov qeyd etdi ki, Ermənistanın yer aldığı bir sıra hərbi-siyasi təşkilatlarda təmsil olunan ölkələr belə Vətən müharibəsi zamanı ya neytral qaldılar, ya da Azərbaycanı dəstəklədilər. Politoloqun fikrincə, postsovet məkanına daxil olan bir sıra ölkələrlə münasibətlərin strateji səviyyəyə qaldırılmasının xüsusi əhəmiyyəti var. Ona görə ki, həmin ölkələr müxtəlif beynəlxalq təşkilatlarda Azərbaycanla bağlı bu və digər məsələlərdə ədalətli mövqe nümayiş etdirirlər: "2005–2006-cı illərdən etibarən bir sıra dövlətlərlə münasibətlərdə dönüş baş verdi. Həmin ölkələrdən bir çoxu isə postsovet məkanı ölkələri idi. Biz o ölkələrin BMT Baş Assambleyasında, AŞPA-da, digər platformalarda ölkəmizin lehinə səs verdiklərini yaxşı xatırlayırıq".

Müsahibimiz onu da dedi ki, hazırkı həssas məqamda Azərbaycanın mövqeyi, atacağı addımlar çox vacibdir. Belə ki, ölkəmiz Mərkəzi Asiyaya çıxış rolunu oynayır, həmçinin Çinlə Qərbi Avropanı birləşdirən yolayrıcında yerləşir: "Buna görə də ağlı başında olan hər kəs başa düşməlidir ki, erməni məsələsi və digər cılız mövzular ikitərəfli münasibətlərdə aktual deyil. İkitərəfli münasibətlərdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə predmeti olmalıdır. Əlbəttə, biz yalnız belə olan təqdirdə inkişafdan danışa bilərik. Azərbaycan son illərdə qlobal miqyasda vacib dövlətlərdən olduğunu sübut edib. Eyni zamanda, sübut olunub ki, ölkəmizin iştirakı və razılığı olmadan bölgə ilə bağlı heç bir layihəni həyata keçirmək mümkün deyil".

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycan–Türkiyə: Yeni hədəflərə doğru

(əvvəli 1-ci səhifədə)

Bəli, Prezident İlham Əliyevin yenidən dövlət başçısı seçiləndən sonra ilk rəsmi səfərini qardaş Türkiyəyə reallaşdırması indiyədək əsası qoyulmuş ənənənin davamı olmaqla yanaşı, tarixi dostluğa, qarşılıqlı etimada, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan əlaqələrə ehtiramın bariz nümunəsidir. Bu nümunə xalqlarımızın dil, din, mədəniyyət yaxınlığına, doğmalığa əsaslanır. Bu nümunədə sevincli və kədərli günlərdə bir-birinin yanında olmaq kimi dövlətlərarası münasibətlər səviyyəsini aşan müstəsna durum, fövqəladə üstünlük var.

Qeyd edək ki, Türkiyənin dövlət və hökumət başçılarının xaricə ilk rəsmi səfərlərinə Azərbaycandan başlamaları da artıq xoş ənənəyə çevrilib. Həm bu mənada, həm də Azərbaycan–Türkiyə qardaşlığının nümunəviliyinin ifadəsi baxımından qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın vaxtilə səsləndirdiyi dəyərli fikir var: "Türkiyə ilə Azərbaycan arasında münasibətlər köklü tarixi və mədəni bağlardan qaynaqlanan işinə də öz töhfəsini verir".

Bəli, Bakı və Ankaranın hədəfi türk dünyasının birləşməsi, möhkəmlənməsidir. Azərbaycan–Türkiyə qardaşlığı bu prosesin təminatıdır. Ona görə də Prezident İlham Əliyev bildirmişdi: "Türkiyə–Azərbaycan əlaqələri, eyni zamanda, bütün türk dünyası üçün də mühüm rol oynayır. Biz türk dünyasının birləşməsi, türkdilli dövlətlər arasında əlaqələrin inkişafı üçün birgə səylər göstəririk".

Qeyd edək ki, Azərbaycan–Türkiyə qardaşlığa söykənmiş əlaqələri, müttəfiqliyi, xüsusən də hərbi müttəfiqliyi, bütövlükdə, Avrasiya məkanında sülh və təhlükəsizlik üçün son dəcərə müstəsna təminatdır. Hesab edirik ki, bu mənada üzərində dayanılmalı olan başlıca məqam İkinci Qarabağ müharibəsidir. Qardaşlığın mühüm sınağı olan bu müharibə hər iki dövlətin mətanət, iradə və dözümünün birgə təzahürünə, nəsillərə miras qalacaq nümunəsinə çevrildi.

İkinci Qarabağ müharibəsi dönəmində qardaş ölkənin, onun hökumətinin və xalqının, ümumən Türkiyənin qətiyyətli mövqeyinin təntənəsi idi. Bütün dünya



qardaşlıq təməli üzərində hər sahədə inkişaf etməkdə və güclənməkdədir. Bu münasibətlərin memarlarından biri olan böyük lider, hörmətli Heydər Əliyevin dediyi kimi, Türkiyə və Azərbaycan eyni millətin iki ayrı dövlətidir. Mərhum prezidentin iki ölkə arasında əlaqələrin ideal qiymətini ifadə etmək üçün istifadə etdiyi bu şüar real həyatda əksini tapıb. Sevincdə də, kədərdə də bir olan Türkiyə və Azərbaycana bütün dünya qibtə ilə baxır".

Bəli, ulu öndər Heydər Əliyev Azərbaycanı və Türkiyəni bir millətin iki dövləti kimi xarakterizə edirdi. "Azərbaycanın kədəri – kədərimiz, sevinci – sevincimiz" – deyirdi dahi Mustafa Kamal Atatürk. Bu gün sevincli anlarda da, kədərli durumlarda da birlikdə olan bir millətin iki dövləti özünün ən yüksək inkişaf mərhələsindədir. Onların qarşılıqlı əməkdaşlığı, birgə hədəfləri onu deməyə əsas verir ki, müştərək inkişaf xətti daha da dərinləşəcək və güclənəcək. Ümummilli liderin Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətindəki fikirləri isə mövcud istiqamətdəki mühüm mənəvi istinadgahdır: "1993-cü ilin yayından başlayaraq, Türkiyəyə münasibətdə də xarici siyasət kursunda ciddi dəyişikliklər edildi və Azərbaycan–Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir mərhələ başlandı. Bu gün Türkiyə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabərhüquqlu iqtisadi tərəf-müqabilidir. İki qardaş dövlətin başçılarının qarşılıqlı rəsmi səfərləri zamanı hərtərəfli əməkdaşlığımızı əhatə edən bir sıra mühüm sənədlər imzalanmışdır. Azərbaycan–Türkiyə münasibətləri iki qardaş xalqın mənafelərinə xidmət etməklə yanaşı, dünyada və bölgədə sülhün və əmin-amanlığın bərqərar olması gördü ki, söhbət Vətənin təhlükəsizliyi, torpaqların bütövlüyü, qardaş hüququnun qorunmasından düşəndə heç kəsə güzəşt yoxdur. Mövcud xüsusda bir çox mətləbləri yada salmaq olar. Ancaq hesab edirik ki, onlardan yalnız birinin üzərində dayanmaqla fikrimizə aydınlıq gətirə bilərik. Söhbət Türkiyə Prezidenti Ərdoğanın savaş günlərində Azərbaycana dəstəklə bağlı dilə gətirdiyi bir fikirdən gedir: "Ancaq, qırmızı xəttimiz aşılarsa, heç kəs inciməsin atamızın oğlu olsa gözümüz görməz"

Azərbaycan–Türkiyə münasibətləri kifayət qədər çoxşaxəli və genişmiqyaslıdır, dinamik struktura malikdir. İqtisadiyyat, ticarət, elm, təhsil, hərbi sahədə əməkdaşlıq, dünyanın müasir informasiya məkanında birgə təmsilçilik və sair istiqamətlər üzrə keçmişə əsaslanmış etibarlı baza var. Əminliklə söyləmək olar ki, son zamanlar iki ölkənin birgə həyata keçirdikləri layihələr Azərbaycan ilə Türkiyə arasında münasibətləri daha yüksək səviyyəyə yüksəldəcək. Hesab edirik ki, Prezident İlham Əliyevin dövlət başçısı seçildikdən sonra Türkiyəyə səfəri qarşılıqlı işbirliyində yeni səhifə açdı. Nəzərə alaq ki, səfər zamanı siyasi, hərbi, iqtisadi, ticarət, mədəniyyət, enerji və s. sahələrdə olan mövzular diqqətdə saxlanıldı. Onu da nəzərə alaq ki, bir sıra sənədlərlə, xüsusilə də Şuşa Bəyannaməsi ilə möhkəmlənmiş iki ölkənin strateji müttəfiqliyi istər regional, istər beynəlxalq məsələlərdə dövlətlərin bir-birinə dəstəyi baxımından son dərəcə vacibdir. Bu tarixi sənəd, eyni zamanda, dünyada sülhün, ədalətin qorunmasına töhfə nöqteyi-nəzərdən də əhəmiyyətlidir.

***XQ***

# Hava hücumundan müdafiə təlimi

**Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2024-cü ilin hazırlıq planına uyğun olaraq, hava hücumundan müdafiə bölmələrinin şəxsi heyəti ilə məşğələlər keçirilir.**



Məşğələlər zamanı həyəcan siqnalı ilə qaldırılan S-300 "Favorit" zenit-raket komplekslərinin divizionlarının döyüş heyətləri texnikanın döyüşə hazır vəziyyətə gətirilməsi, obyektlərin hava hücumundan mühafizəsi, şərti düşmənin raket zərbələrinin dəf edilməsi, eləcə də digər tapşırıqları icra edirlər.

Məşğələlərin keçirilməsində əsas məqsəd hərbi qulluqçuların nəzəri bilik və praktiki vərdişlərinin artırılması, həmçinin hava hücumundan müdafiə bölmələrinin döyüş hazırlığının daima yüksək səviyyədə saxlanılmasıdır.

# Dövlət özəl sektorun inkişafını fəal dəstəkləyir

*Sahibkarlara kreditlər üzrə 71,5 milyon manat faiz subsidiyası ödənilib*




**İqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında bildirib ki, koronavirus (COVID-19) pandemiyasından zərər çəkmiş biznes subyektlərinə mövcud kreditlər üzrə faiz subsidiyalarının ödənilməsi məqsədilə borcu olan sahibkarların müraciəti əsasında subsidiyaların verilməsi ötən il də davam etdirilib. Belə ki, cari ilin əvvəlinə kreditin qalıq məbləğinin 893,4 milyon manat olan 5 min 71 müraciət üzrə 71,5 milyon manat faiz subsidiyası ödənilib. Dəstək proqramı çərçivəsində pandemiyadan zərər çəkən sahibkarlara ayrılan dövlət zəmanətli kreditlər üzrə subsidiyanın ödənilməsi istiqamətində isə 52 milyon manat vəsait verilib.**

Qeyd edək ki, ölkədə biznes subyektlərinin dinamik inkişafı məqsədi daşıyan belə tədbirlərin həyata keçirilməsi təsadüfi olmayıb. Ümumiyyətlə, iş adamlarına güzəştli kreditlərin verilməsi, investisiya təşviqi mexanizminin tətbiqinin davam etdirilməsi, sahibkarlıq sahəsində yoxlamaların, lisenziyaların sayının minimuma endirilməsi, lisenziya verilməsi qaydalarının sadələşdirilməsi, bütün bunlarla bağlı dövlət dəstəyinin daha da artırılması sahibkarların xərclərinin azalmasına səbəb olub, eyni zamanda, büdcəyə vergi ödənişlərinin həcminin artırılmasını şərtləndirib.

İş adamlarına dəstək tədbirləri sırasında Prezident İlham Əliyevin imzaladığı "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında qanunda dəyişiklik edilməsi barədə" Qanun mühüm yer tutub. Sənəddə sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması müddətinin gələn il yanvarın 1-nə qədər uzadılması qərara alınıb. Bu dövrdə yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən yoxlamaların aparılması nəzərdə tutulub.

Prezident İlham Əliyev dövlət başçısı kimi fəaliyyətinin bütün mərhələlərində sahibkarlığın inkişafına əngəl olan inhisarçılıq, sahibkarlıq fəaliyyəti subyektlərinin dövlət qurumları tərəfindən qanunsuz yoxlanılması və çoxsaylı əsassız lisenziyaların verilməsi, iş adamları qarşısında qanunazidd tələblər irəli sürülməsi kimi neqativ halların aradan qaldırılması istiqamətində ciddi tədbirlər həyata keçirib. Ümumiyyətlə, sahibkarların hamisi kimi daim qətiyyətli qərarlar qəbul edən dövlətimizin basçısı bununla bağlı dövlət strukturlarına, ayrı-ayrı nazirliklərə müvafiq tapşırıqlar verib, fərman və sərəncamlar imzalayıb.

Bütün bunların müsbət nəticəsi isə son 20 ilin iqtisadi statistikasında öz ifadəsini tapıb. Məsələn, ötən dövr ərzində ümumi daxili məhsulun (ÜDM) illik real dəyəri 3,6 dəfədən çox artıb, adambaşına düşən ÜDM-in dəyəri 769 dollardan 7 min 798 dollara, qeyri-neft-qaz ÜDM-nin illik dəyəri 4,1 milyard dollardan 41,1 milyard dollara, ölkənin xarici ticarət dövriyyəsinin illik dəyəri isə 9,5 dəfədən çox artaraq 50 milyard dollara çatıb.

Onu da xatırladaq ki, respublikada 20 il ərzində böyük maliyyə ehtiyatları formalaşıb və nəticədə, iqtisadi və maliyyə təhlükəsizliyinin əsas dayaqlarından olan strateji valyuta ehtiyatları 42,8 dəfədən çox artaraq 2023-cü ilin sonuna 69,5 milyard dollara yüksəlib. Belə bir şəraitdə xarici borclanma da azalıb. Dövlətimizin başçısı fevralın 14-də yenidən ölkə Prezidenti seçilməsi münasibətilə keçirilən andiçmə mərasimindəki çıxışında deyib: "Bu, bizə iqtisadi və maliyyə müstəqilliyi verən əsas amillərdən biridir. Aparılan siyasət nəticəsində birbaşa xarici borcumuz 6,4 milyard dollara düşüb, bu da ümumi daxili məhsulumuzun cəmi 9 faizini, ondan da az təşkil edir. İnkişaf etmiş ölkələrdə bu rəqəm 100 faiz, bəlkə də 140 faiz təşkil edir, bizdə isə 9 faizdən az. Yəni, bu, nəyi göstərir? Bizim sağlam maliyyə sistemimizin göstəriciləridir və bu, bizə imkan verir ki, biz müstəqil siyasət aparaq. Bu gün heç kimdən asılı olmayan Azərbaycan inamla, uğurla inkişaf edir, öz xarici siyasətini də buna uyğun şəkildə aparır".

Bütün bu uğurlar təsadüfi xarakter daşımır. İdarəetmə sisteminə novator düşüncə tərzi, dinamizm və müasirlik çalarları gətirən dövlətimizin başçısı İlham Əliyev daim hökumətin həyata keçirməli olduğu tədbirlərin əhatə dairəsini və vaxtını dəqiq müəyyənləşdirməklə onların icra prosesini nəzarətdə saxlayır, habelə ölkənin strateji resurslarını milli inkişafa təkan verən qlobal layihələrin reallaşdırılması yönündə səfərbər edir. Bu baxımdan 20 ildən çox bir müddət ərzində qeyri-neft sektorunun inkişafı naminə həyata keçirilən tədbirləri xüsusi vurğulamaq olar.

Bölgələrin tarazlı və davamlı inkişafının təmin olunması, yeni iş yerlərinin açılması, infrastrukturun yeniləşdirilməsi, mövcud problemlərin aradan qaldırılması məqsədilə Prezident İlham Əliyev imzaladığı dövlət proqramlarının, fərman və sərəncamların icrası vəziyyəti ilə yerində tanış olmaq, sıravi vətəndaşlarla birbaşa ünsiyyət quraraq mövcud çətinliklər barədə informasiyaları ilk mənbədən almaq üçün vaxtaşırı respublikamızın müxtəlif rayonlarına səfərlər edir.

Azərbaycanda bu gün iqtisadiyyat üçün yeni istiqamətlər formalaşıb. Bu istiqamətlər idxaldan asılılığın azaldılması, qeyri-neft əmtəə və xidmət ixracının genişləndirilməsi, qeyri-neft emal sənayesinin inkişafının sürətləndirilməsi, biznesin bank kreditlərinə çıxışının genişləndirilməsi, dövlət investisiyalarının iqtisadi səmərəsinin artırılması, özəl investisiyaların dominant rolunun təmin edilməsi, kiçik və orta sahibkarlığın iqtisadi artımın başlıca qüvvəsinə çevrilməsi, şəffaflığın yüksəldilməsi və kölgə iqtisadiyyatının səviyyəsinin minimuma endirilməsindən ibarətdir. Yeni məqsədlərə doğru yolda əldə edilən ilkin nəticələr müsbətdir. Yuxarıda xatırladılan göstəricilər də bunun bariz ifadəsidir.

Hazırda qarşıda duran ən mühüm vəzifə Azərbaycanı inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırmaqdır. Bu gün ölkədə aparılan hər bir iqtisadi islahatın əsasında sosial problemlərin aradan qaldırılması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və hər bir vətəndaşın rifahının artırılmasına imkan verən mühitin yaradılması məqsədi dayanır. Belə bir mühitin yaradılması isə dayanıqlı iqtisadi inkişafın reallaşdırılması, maliyyə sisteminin, əlverişli sahibkarlıq şəraitinin etdirilməsi, insanların hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi yolu ilə, həmçinin sosial problemlərin birbaşa həllinə yönələn tədbirlər vasitəsilə həyata keçirilir.

***Vaqif BAYRAMOV***
***XQ***

## Meyvə-tərəvəz ixracı 21 faiz çoxalıb

**2024-cü ilin yanvar ayı ərzində Azərbaycan 54 milyon 611 min dollar dəyərində 49 min 606 ton meyvə-tərəvəz ixrac edib. Dövlət Gömrük Komitəsinin hesabatına görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə ölkədən ixrac edilən meyvə-tərəvəzin dəyəri 21,2 faiz və ya 9,5 milyon dollar, həcmi isə 21 faiz və ya 8,6 min ton artıb.**



Qeyd edək ki, hesabat dövründə əsas ixrac olunan meyvə-tərəvəz məhsulları 17 milyon dollar dəyərində xurma (21 min ton), 16,5 milyon dollar dəyərində tomat (11,8 min ton), 10,4 milyon dollar dəyərində meşə fındığı (1782 ton), 6,1 milyon dollar dəyərində alma (9,4 min ton ), 1,4 milyon dollar dəyərində nar ( 1709 ton), 88 min dollar dəyərində kartof (285 ton) olub.

Əlavə edək ki, cari ilin yanvar ayında meyvə-tərəvəzin ümumi ixracda xüsusi çəkisi 2,96 faizə, qeyri-neft məhsullarının ixracında olan çəkisi isə 24,59 faizə çatıb.

## Mədənçıxarma sənayenin üstün bölməsidir

**Bu ilin yanvar ayında neft-qaz sektorunda məhsul istehsalı 2,5 faiz azalıb, sənayenin qeyri-neft-qaz sektorunda isə 8,9 faiz artıb.**



Dövlət Statistika Komitəsinin məlumatında daha sonra bildirilir ki, sənaye məhsulunun 66,6 faizi mədənçıxarma, 27,1 faizi emal, 5,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub.

***XQ***




## Ağdamda sement istehsal ediləcək

**İqtisadiyyat naziri Mikayıl Cabbarovun məlumatına əsasən, "Qreys.A." MMC-yə Ağdam Sənaye Parkının rezidenti statusu verilib.**

Nazirin sözlərinə görə, şirkət sənaye parkına 6,5 milyon manat investisiya yatıraraq sement və beton qatqıların istehsalı müəssisəsi yaradacaq. Eyni zamanda, müəssisədə 35 daimi iş yeri yaradılacaq.

## 1 ayda 2 dəfə çox avtomobil

**Bu ilin yanvar ayında Azərbaycanda 406 ədəd minik avtomobili istehsal olunub ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,1 dəfə çoxdur.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, fevralın 1-nə ölkədə 266 ədəd hazır məhsul ehtiyatı yaranıb. Ümumilikdə isə, Azərbaycanda 50,8 milyon manat dəyərində maşın və avadanlıqlar, sair nəqliyyat vasitələri, avtomobil, qoşqu və yarımqoşquları istehsal edilib. 2023-cü ilin yanvar ayı ilə müqayisədə maşın və avadanlıqların istehsalı eyni səviyyədə qalıb, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 54,1 faiz artıb, sair nəqliyyat vasitələrinin istehsalı isə 66,5 faiz azalıb.

Bildirilib ki, yanvar ayında Azərbaycanda 49 ədəd traktor istehsal edilib, fevralın 1-nə 10 ədəd hazır məhsul ehtiyatı yaranıb. Bundan əlavə, hesabat dövründə ölkədə 63 ədəd yük avtomobili istehsal edilib ki, bu da əvvəlki ilin eyni ayı ilə müqayisədə 57,5 faiz çoxdur.

***XQ***

# Ölkəmiz beynəlxalq daşımalar məkanıdır

**Son illər regionun qlobal nəqliyyat-logistika mərkəzinə çevrilən Azərbaycanın beynəlxalq arenada nüfuzu getdikcə artır. Hazırda bütün regionun sabitlik məkanı kimi tanınan, əlverişli geosiyasi mövqedə və beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən ölkəmiz, həm də tranzit yükdaşımalar sahəsində ən etibarlı tərəfdaş kimi qəbul edilir. Belə ki, Azərbaycanın ərazisindən keçən Şərq–Qərb, Şimal–Cənub dəhlizlərindən və Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutundan (Orta Dəhliz) digər çoxsaylı ölkələr də faydalanır.**



Ötən müddətdə Azərbaycan özünün yol-nəqliyyat infrastrukturunu dünya standartlarına uyğunlaşdırmaq üçün milyardlarla dollar vəsait xərcləyib. Artıq ölkəmizin ərazisindən keçən bütün yollar tamamilə modernləşdirilib. Bunun da nəticəsində Qərbdən Şərqə və Şimaldan Cənuba istiqamət alan nəqliyyat vasitələrinin mənzil başına daha rahat, tez və təhlükəsiz hərəkəti təmin olunub.. Eyni zamanda, son illər regionun tranzit mərkəzinə çevrilən Azərbaycanda dəniz limanlarının infrastruktur imkanlarının artırılması, xüsusən də beynəlxalq səviyyəli Bakı Dəniz Ticarəti Limanının tikilib istifadəyə verilməsi və onun yükaşırma qabiliyyətinin genişləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlər ölkəmizi bu sahədə də ön mövqelərə çıxarıb. Bunun nəticəsidir ki, son illər Şərq–Qərb, Şimal–Cənub və Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu layihələrinə qoşulan ölkələrin sayı getdikcə artır.

Təsadüfi deyil ki, fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisdə keçirilən andiçmə mərasimindəki nitqində bu vacib məqama toxunaraq deyib: "Biz nəqliyyat sahəsində işləri davam etdirəcəyik. Bu gün Azərbaycan dünya miqyasında nəqliyyat mərkəzi kimi qəbul edilir. Bizə həm Qərbdən, həm Şərqdən, həm Şimaldan, həm Cənubdan müraciətlər daxil olur. Azərbaycan ərazisində bütün nəqliyyat infrastrukturu işlək vəziyyətdədir. Sadəcə olaraq bəzi dəmir yollarında modernləşdirmə işləri aparılmalıdır və biz bunu da edirik. Dünyadakı geosiyasi vəziyyətin yaxın gələcəkdə dəyişməsi, yəqin ki, mümkün deyil. Belə olan halda bizim nəqliyyat infrastrukturumuza olan ehtiyac daha da artacaq".

Göründüyü kimi, vaxtilə bütün lazımi infrastruktur layihələrini uğurla icra etməsi ölkəmizə əlavə üstünlük qazandırıb. Dövlət başçısının qeyd etdiyi kimi, həm Xəzər dənizindəki limanlarımız, həm dəmir yolu infrastrukturumuz, həm də avtomobil yollarımız tam gücü ilə fəaliyyət göstərir. Bununla yanaşı, hazırda 8 beynəlxalq aeroportu olan Azərbaycan hava məkanı ilə yükdaşımalara da önəmli töhfələr verir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ildə Azərbaycanda bütün növ nəqliyyat vasitələri ilə 230 milyon 232 min ton yük daşınıb ki, bu da əvvəlki illə müqayisədə 5,3 faiz çoxdur. İl ərzində Azərbaycanda daşınan ümumi yüklərin 134 milyon 216 min tonu avtomobil nəqliyyatının payına düşüb. Bu isə 2022-ci ilə nisbətən 6,5 faiz artım deməkdir. Hesabat ilində avtomobil nəqliyyatı ilə 1 milyard 828,5 milyon ABŞ dolları dəyərində 2 milyon 27 min ton yük ixrac edilib. Bununla yanaşı, il ərzində magistral avtomobil yolları ilə ölkəmizə 10 milyard 269 milyon dollar dəyərində 3 milyon 398,2 min ton yük idxal olunub. Göründüyü kimi, həm ixrac, həm də idxal yüklərinin həcmində əhəmiyyətli artım qeydə alınıb.

Ötən il ölkəmizin dəmir yolları ilə 18 milyon 262 min ton yük daşınıb. İl ərzində ölkəmizin polad magistralları ilə daşınan yüklərin 7 milyon tona yaxınını tranzit yüklər təşkil edib. Hesabat ilində dəniz nəqliyyatı ilə 9 milyon 10,8 min ton (artım 19,8 faiz), hava nəqliyyatı ilə 339 min tona yaxın müxtəlif növ yüklər daşınıb.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

## Ekspert rəyi

**Samir HEYDƏROV,**
**iqtisadçı ekspert**



Azərbaycan coğrafi olaraq Qərblə Şərqin, Şimalla Cənubun inteqrasiya etdiyi beynəlxalq nəqliyyat-tranzit yollarının kəsişməsində yerləşir. Belə əhəmiyyətli coğrafi mövqe imkan verir ki, ölkəmiz tranzit potensialından istifadə edərək dünya iqtisadiyyatının təchizat zəncirində əhəmiyyətli mövqeyə sahib olsun.

Postpandemiya dönəmində, 2022-ci ilin yanvar-oktyabr aylarında Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yük daşımalarının həcmi əvvəlki ilin analoji dövrü ilə müqayisədə 27 faiz, mütləq ifadə ilə 42,5 milyon tona yaxın artıb. 2022-ci ildə Şərq–Qərb nəqliyyat dəhlizi vasitəsilə ötürülən tranzit yüklərin həcmi əvvəlki ilin analoji dövrü ilə müqayisədə 20 faiz, Şimal–Cənub dəhlizi vasitəsilə isə 33 faiz çoxalıb. 2023-cü ilin 8 ayına görə isə 2022-ci ilə nisbətən 37 faiz azalıb.

Yeri gəlmişkən, rəsmi Bakı son iki ildə Avropa ölkələrinə Orta Dəhlizin əhəmiyyətini və iqtisadi səmərəliliyini təşviq etməyə çalışsa da, bu dəhlizə kifayət qədər əhəmiyyət verilməyib. Bu da ondan irəli gəlir ki, Avropa ölkələri tərəfindən yüklərin ənənəvi yollarla ötürülməsinin onlar üçün qənaətbəxş olduğu hesab edilib. Amma mürəkkəb geosiyasi vəziyyət yüklərin 52 günə mənzil başına çatmasına gətirib çıxarıb. Halbuki rəsmi Bakı region ölkələri ilə aparılan əməkdaşlıq çərçivəsində yüklərin Orta Dəhlizlə çatdırılmasını 22 günə endirib.

Son aylar Qırmızı dənizdə husi yaraqlılarının Avropa və Amerika ticarət gəmilərinə hücumlar təşkil etməsi Orta Dəhlizin aktuallığını daha da artırır. Bu baxımdan ölkəmizin tranzit imkanları da genişlənməkdədir. Bu isə milli iqtisadiyyat üçün əlavə gəlir deməkdir. Azərbaycanın birbaşa açıq dənizə çıxışı olmasa da, ölkəmizə məxsus coğrafi mövqe və onun beynəlxalq ticarət yollarının kəsişməsində yerləşməsi tranzit imkanlarını daha da artırıb. Təbii ki, burada limanların, terminalların və dəmir yollarının yükaşırma, yükqəbuletmə və yükötürmə imkanları da artırılıb.

Artıq Şimal–Cənub dəhlizi üzrə Astara terminalının tikintisi böyük ölçüdə yekunlaşıb. Ötən il bu terminal vasitəsilə 700 min dən çox yük aşırılıb. Tranzit imkanlarının artması isə ölkəmizin daha çox gəlir əldə etməsinə səbəb olub. Belə ki, 2022-ci ilin 9 ayında yükdaşımalardan gəlir 33,2 faiz artaraq 539,6 milyon manat təşkil edib. Tranzit yükdaşımalarından isə 230 milyon manat gəlir əldə edilib.

Sonda qeyd etmək istəyirəm ki, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən təsdiq edilmiş "2022-2026-cı illər ölkənin sosial-iqtisadi inkişaf strategiyası"na görə, tranzit imkanlar artırılaraq əldə edilməsi nəzərdə tutulan gəlirin həcmi qarşıdakı 5 il ərzində 450 milyon manata çatdırılacaq.

# Ermənistan Cənubi Qafqazı ekoloji fəlakət bölgəsinə çevirib

**İşğalçılığı, qonşularına qarşı ərazi iddiaları ilə çıxış etməyi özünün dövlət siyasətinə çevirən Ermənistan regionun ekoloji tarazlığı üçün də ciddi təhlükələr yaradır. Azərbaycanın tarixi torpaqlarını uzun illər işğal altında saxlayan bədnam qonşumuz yurd yerlərimizi viran qoymaqla, dinc insanları hədəfə almaqla yanaşı, təbiət abidələrini, flora və faunanı da vandalcasına məhv edib.**



Zəngin biomüxtəlifliyi ilə seçilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları Ermənistanın işğal altında olduğu 30 il müddətində ağlasığmaz ekoloji fəaləkətlə üzləşib, düşmənin barbar hərəkətləri nəticəsində bölgənin flora və faunasına misilsiz ziyan dəyib. Düşmənin həyata keçirdiyi ekoloji terror nəticəsində 10-dan çox qoruq və yasaqlıq, ölkəmizin "Qırmızı Kitab"ına və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahı"sına daxil olunan nadir bitki və heyvan növləri, Azərbaycan və Qarabağ endemləri birdəfəlik məhv edilib. Təkcə onu qeyd etmək kifayətdir ki, Qarabağ və ətraf ərazilərin 280 min hektardan çox meşə fondu, o cümlədən Avropada yeganə çinar meşəsinin əksər hissəsi, yaşı 120 ildən 2600 ilədək olan yüzlərlə ən qiymətli ağac–təbiət abidəsi vəhşicəsinə talan edilərək Ermənistana daşınıb və ya yarımfabrikant şəklində xarici ölkələrə satılıb.

Bununla kifayətlənməyən təbiət qənimləri minlərlə hektar meşə və bağ sahələrini dəfələrlə yandırıb, bunun da nəticəsində endemik heyvanlar yaşayış yerlərindən məhrum olublar. Ermənistanın bu vəhşi əməlləri nəticəsində torpaqlar deqredasiyaya uğrayıb, su hövzələri bilərəkdən zəhərli maddələrlə çirkləndirilib. Bununla, həm də regionda biomüxtəlifliyi məhv edən Ermənistan ekoloji mühitin toxunulmazlığı haqqında beynəlxalq konvensiyaların tələblərini, BMT-nin ətraf mühit üzrə müvafiq təşkilatlarının normativ aktlarını kobud şəkildə pozub.

Torpaqlarımız düşmən işğalından azad olunduqdan sonra Azərbaycanın qeyri-hökumət təşkilatları, ekofəallar tərəfindən Ermənistanın bu vəhşi əməlləri, regionda biomüxtəlifliyin məhvinə səbəb olan bəşəri cinayətləri ilə bağlı dünya ölkələrinə, beynəlxalq ekoloji təşkilatlara çoxsaylı müraciətlər ünvanlanıb. Çox təəssüf ki, müraciətlərin əksəriyyəti cavabsız qaldığından Ermənistanın bu vəhşi əməllərinin üstündən sükutla keçilib. Bu da təbiət, ekolgiya qənimi olan Ermənistanı ətraf mühitə, biomüxtəlifliyə qarşı yeni cinayətlərə sövq edib. Hətta iş o yerə çatıb ki, bu ölkə öz ərazisində həyata keçirdiyi ekoloji terrorun fərqində belə deyil. Ermənistanın dağ-mədən sənayesinin son illərdəki fəaliyyəti bu baxımdan ciddi narahatlıq doğurur. Çünki bu ölkədə dağ-mədən sənayesi işləri zamanı heç bir ekoloji norma və standartlar gözlənilmir, nəticədə ətraf mühitə vurulan ciddi zərərin, ekoloji fəsadların miqyası sürətlə artır.

Ermənistanda genişlənən qanunsuz dağ-mədən işləri səbəbindən isə bölgə ekoloji fəlakətin astanasındadır. Bu isə beynəlxalq miqyasda olduğu kimi, ölkə daxilində də ciddi narazılıqla qarşılanır. Amma Ermənistan rəhbərliyi daxili etirazlara, xarici ölkələrin və beynəlxalq təşkilatların müraciətlərinə məhəl qoymaq fikrində deyil.

Davam edən mədən əməliyyatları nəticəsində ekosistemin korlanması təkcə Ermənistanın ətraf mühiti üçün təhdid deyil, həm də qonşu ölkələrə böyük təhlükədir. Ekoloji zərərin transsərhəd xarakteri regionda və ondan kənarda yaşayan icmaların sağlamlığını və rifahını riskə atır.

Artıq Ermənistanın Cənubi Qafqazı ekoloji fəlakət bölgəsinə çevirməsi beynəlxalq miqyasda narahatlıqla qarşılanır. İndi bütün dünya anlayır ki, işğalçı ölkənin bu qanunsuz əməlləri təkcə region üçün deyil, həm də bütün bəşəriyyət, ümumi evimiz olan planetimiz üçün ciddi təhlükə yaradır. Bu səbəbdən də hazırda dünya ekoloqları, qeyri-hökumət təşkilatları (QHT) həyəcan təbili çalır, Ermənistanın siyasi rəhbərliyini ekoloji terrordan çəkindirməyə çalışırlar.

Bugünlərdə 22 ölkəni təmsil edən 49 QHT və ekofəallar Azərbaycan və Ermənistanın qeyri-hökumət təşkilatlarının səsinə səs verərək həmrəylik nümayiş etdiriblər. Onlar Ermənistanın dağ-mədən sənayesində beynəlxalq ekoloji norma və standartları pozaraq həyata keçirilən işlərin dünyanın ekosistemini pozmasına dair bəyanat yayıblar. Onların bu xoşməramlı bəyanatında Cənubi Qafqaz regionu üçün ekoloji ədalət tələb olunur.

Bəyanatda qeyd olunur: "Biz, aşağıda imza edən xarici ölkələrin vətəndaş cəmiyyəti təşkilatları və fəalları Ermənistan Respublikasının dağ-mədən sənayesində beynəlxalq ekoloji norma və standartları pozaraq həyata keçirilən işlərin ekologiyaya vurduğu ciddi ziyanla bağlı dərin narahatlığımızı bildiririk. Ermənistanın dağ-mədən sənayesindəki hava və suyun çirklənməsi vaxtilə lokal xarakterli olsa da, artıq onun fəsadları təkcə Cənubi Qafqaz üçün deyil, bütün dünya üçün ciddi təhdidə çevrilib. Ermənistanın mədən sənayesi transsərhəd çayları çirkləndirməklə Şərqi Avropadan Mərkəzi Asiyaya qədər geniş coğrafiyada bir sıra ekoloji problemlərə səbəb olmaqda davam edir".

Birləşmiş Millətlər Təşkilatının təmiz, sağlam və davamlı ətraf mühiti əsas insan hüququ kimi tanıdığını vurğulayan bəyanat müəllifləri qeyd edirlər ki, qlobal ictimaiyyətin BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərini gerçəkləşdirmək üçün səfərbər olduğu, ekoloji problemlərin həlli üçün səylərini gücləndirdiyi bir vaxtda Ermənistanın bu hərəkətləri Transsərhəd Çaylar Konvensiyası və BMT-nin Avropa İqtisadi Komissiyasının Transsərhəd Kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Konvensiyasının (Espoo Konvensiyası) tələblərini ciddi şəkildə pozur.

Sənəddə o da bildirilir ki, yaxın zamanda COP29-un Cənubi Qafqaz regionunda, Azərbaycanda keçiriləcəyini nəzərə alaraq, Ermənistan da ətraf mühitə ziyan vuran əməllərdən çəkinməli, bununla da, beynəlxalq konvensiyalardan irəli gələn öhdəliklərini yerinə yetirməlidir.

Bəyanatda Ermənistan hökuməti və Ermənistanın dağ-mədən sənayesi müəssisələrinin məxsus olduğu özəl şirkətlər həmin müəssisələrdə təftiş, qiymətləndirmə və monitorinq işləri aparmaq üçün ekologiya və sağlamlıq sahəsində ixtisaslaşmış beynəlxalq ekspertlərə, o cümlədən qonşu ölkələrdən olan ixtisaslaşmış QHT-lərə şərait yaratmağa çağırılır. Bununla yanaşı, xarici QHT-lər Amuldağ mədənində işlərin dərhal dayandırılması ilə bağlı Azərbaycanın və Ermənistanın vətəndaş cəmiyyəti təşkilatlarının müraciətinə həmrəy olduqlarını da bəyan edirlər.

Bəyanat müəllifləri, həmçinin Ermənistan hökumətini və Ermənistanın dağ-mədən sənayesi müəssisələrinin məxsus olduğu özəl şirkətləri həmin müəssisələrdə təftiş, qiymətləndirmə və monitorinq işləri aparmaq üçün ekologiya və sağlamlıq sahəsində ixtisaslaşmış beynəlxalq ekspertlərə, o cümlədən qonşu ölkələrdən olan ixtisaslaşmış QHT-lərə şərait yaratmağa çağırırlar.

Sənəddə daha sonra qeyd olunur: "Biz Amuldağ qızıl mədənində ekosistem üçün əhəmiyyətli dərəcədə zəhərli və radioaktiv çirklənmə riskləri yaradan mədən işlərinin dayandırılması ilə bağlı Ermənistan və Azərbaycanın vətəndaş cəmiyyəti təşkilatlarının bu yaxınlarda Ermənistan hökumətinə və bütün maraqlı şirkətlərə ünvanlanmış müraciətində qeyd olunan dərin narahatlığa da bölüşürük".

Ermənistan hökumətinin qanunsuz dağ-mədən sənayesi əleyhinə çağırışlar bununla bitmir. Bu günlərdə "Environmental Protection First" (EPF) Koalisiyasına ekologiya və səhiyyə sahəsində fəaliyyət göstərən daha 15 QHT qoşulub. Xatırladaq ki, 2023-cü ilin avqustunda təsis olunmuş koalisiya Ermənistanın dağ-mədən sənayesindəki proseslərin bütün qanuni vasitələrlə davamlı izlənilməsini, ekoloji pozuntular əleyhinə mübarizənin gücləndirilməsini əsas işi elan edib.

Ötən dövrdə Ermənistanın ekoloji yönümlü QHT-ləri də koalisiyanın müraciətlərinə səssiz qalmayaraq qurumla həmrəylik nümayiş etdiriblər. EPF Ermənistan hökumətindən Cənubi Qafqazda ekologiya və səhiyyə böhranı yaradan dağ-mədən sənayesi müəssisələrinin qapılarını ekoloji monitorinqlər üçün açmağı tələb edib. Yeri gəlmişkən, ötən həftə "Environmental Protection First" Koalisiyası Ermənistanın və digər xarici ölkələrin ekologiya və səhiyyə sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilatları, beynəlxalq qurumlarla birgə "Amuldağ" qızıl yatağında ekoloji monitorinq aparmağa hazır olduğunu bəyan edib.

Bu günlərdə isə Azərbaycanın vətəndaş cəmiyyəti təşkilatları Ermənistanın dağ-mədən sənayesinin Cənubi Qafqaz regionunda ekoloji sabitliyi pozması barədə bu ölkənin baş naziri Nikol Paşinyana açıq məktub ünvanlayıblar. Məktubda Ermənistan Respublikasının dağ-mədən sənayesində aparılan işlərin ətraf mühitə regional və qlobal təsirlərinin yol açdığı ciddi ekoloji böhranla bağlı dərin narahatlıq ifadə olunur, beynəlxalq ekoloji norma və standartları, region əhalisinin hüquqlarını pozmaqla aparılan dağ-mədən sənayesi işlərinin dayandırılmasını tələb edilir. Məktubda qeyd olunur ki, davam edən mədən əməliyyatları nəticəsində ekosistemin korlanması təkcə Ermənistanın ətraf mühiti üçün təhdid deyil, həm də qonşu ölkələrə böyük təhlükədir.

Azərbaycanın vətəndaş cəmiyyəti təşkilatları tərəfindən erməni baş nazirinə ünvanlanan müraciətdə Ermənistanda regionun ekosistemini ciddi şəkildə korlayan Qacarandakı Zəngəzur mis-molibden, Qafandakı dağ-mədən, Əkərək mis-molibden müəssisələrinin, Qafandakı manqan və Göyçə misəritmə zavodlarının, Amuldağ və Göyçədəki Daşdəm qızıl mədənlərinin fəaliyyətinin, eləcə də Arazdəyəndə ekoloji normaların, beynəlxalq konvensiyaların tələblərinə zidd olaraq inşa edilən yeni metallurgiya zavodunun tikintisinin dərhal dayandırılması tələb olunur.

Məktub müəllifləri Ermənistan hökumətini məsuliyyətli idarəetməyə, regionumuza, planetimizə təhlükə yaradan dağ-mədən sənayesindəki işləri dərhal dayandırmağa, region əhalisi üçün davamlı inkişafı, sağlam gələcəyi reallaşdıran qərarlar qəbul etməyə çağırıblar.

***M. YAQUBZADƏ***
***XQ***

**Naxçıvan Muxtar Respublikası – 100**

# Qocaman Gəncənin qədim Naxçıvana ehtiramı

**"Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2023-cü il tarixli sərəncamı ilə əlaqədar Gəncə Şəhər İcra Hakimiyyəti və AMEA Gəncə Bölməsi dəyirmi masa keçiriblər.**



"Naxçıvan bölgəsinin qədim tarixinin araşdırılması və erməni yalanlarının ifşa edilməsi" adlanan məclisdə AMEA Gəncə Bölməsi sədrinin müavini Sara Əzizova yubileylə bağlı tədbirlər planı hazırlandığını bildirib. Sonra bölmənin Diyarşünaslıq İnstitutundan Mətanət Əliyeva "Naxçıvanın real tarixi və erməni uydurmaları", Hamlet Abdullayev "Ermənilərin Naxçıvanda törətdikləri qanlı hadisələr", Müşərrəf İbrahimova "Araz Türk Cümhuriyyəti", Humanitar Tədqiatlar İnstitutundan filologiya üzrə fəlsəfə doktoru Ruziyə Quliyeva "Naxçıvan: tarixi gerçəklik və həqiqətlər", Fatimə Qurbanova "Naxçıvanın tarixi abidələri" və Nizami Gəncəvi Mərkəzindən filologiya üzrə fəlsəfə doktoru Əlimuxtar Muxtarov "Nizami Gəncəvinin "Xəmsə"sində Naxçıvan toponimləri" mövzularında elmi məruzələrlə çıxış ediblər.

Məruzələr ətrafında müzakirələr aparılıb.

Gəncə Şəhər İcra Hakimiyyətinin şöbə müdiri Yadigar Bədəlov ulu öndər Heydər Əliyevin milli varlığımızı yaşadan tarixi torpaq kimi Naxçıvana istər sovet dövründə, istərsə də müstəqillik illərində xüsusi diqqət göstərdiyini, onun Azərbaycana töhfələrinin yüksəldilməsi üçün mühüm addımlar atdığını xatırladıb. Natiq Naxçıvanın əlamətdar yubileyi ilə bağlı ilk tədbirlərdən birinin AMEA Gəncə Bölməsi tərəfindən keçirildiyini vurğulayıb və bunun üçün bu elm ocağının rəhbərliyinə, akademik Fuad Əliyevə şəhər rəhbərliyi adından təşəkkür edib.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Prezident İlham Əliyevin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı, onun rifahının təminatı prinsipi dayanır və bunun nəticəsi olaraq ötən 20 ildə ölkəmiz güclü sosial siyasətə malik dövlət olaraq böyük inkişaf yolu keçib. Sosial sahənin prioritetliyi və dövlət büdcəsinin sosialyönümlü olmasının ildən-ilə uğurla davam etdirilməsi təmin edilib. Aparılan güclü sosial siyasət, eyni zamanda, ötən 20 ildə əməkhaqqı və pensiyaların, digər sosial ödənişlərin dəfələrlə artmasına imkan verib. Şəhid ailələri və müharibə ilə əlaqədar əlil olanların mənzil, fərdi ev və avtomobillə təminatı proqramları əhəmiyyətli dərəcədə genişləndirilib.**

# Sosial siyasət – yüksələn rifah




Dövlət başçısının fevralın 15-də imzaladığı sərəncamlar şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial müdafiəsinin ölkə Prezidentinin daim diqqət mərkəzində olduğunu və onların yüksək qayğı ilə əhatə olunduqlarını bir daha göstərir. "Müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin dövlət icbari şəxsi sığorta vəsaiti hesabına maliyyələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli 3493 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Sərəncam həmin maliyyələşdirmə müddətinin uzadılmasını nəzərdə tutur. Bu məqsədlə əvvəlki sərəncamın 1-ci hissəsindəki "2022-ci və 2023-cü" sözləri "2022–2025-ci" sözləri ilə əvəz edilib.

Qeyd edək ki, mövcud qanunvericilikdə dövlət icbari şəxsi sığortası üzrə daxil olan sığorta haqlarından formalaşan sığorta vəsaitindən müharibə ilə əlaqədar əlil olanların və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin maliyyələşdirilməsi istiqaməti üzrə də istifadə edilməsi nəzərdə tutulub.

Dövlət başçısının "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 yanvar tarixli 2449 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" yeni Sərəncamında isə əvvəlki Sərəncamın 1.2-ci bəndindəki "2020–2022-ci" sözlərinin "2020–2023-cü" sözləri ilə əvəz edilməsi tapşırılır.

Beləliklə, yerli icra hakimiyyəti orqanlarında yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış və 2023-cü ildə aparılmış hərbi əməliyyatlar zamanı ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olan şəxslərin və şəhid ailələrinin də 2021–2025-ci illər ərzində mərhələlərlə mənzil və ya fərdi evlə təmin edilməsi nəzərdə tutulur.

## Şəhid ailələri və qazilərə diqqət




Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırıqları əsasında şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı genişmiqyaslı sosial dəstək paketinin icrası uğurla davam etdirilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra olunan sosial dəstək tədbirləri çərçivəsində postmüharibə dövründə şəhid ailələri üzvləri və müharibə veteranları olan 105 min şəxsə 118 min aylıq sosial ödəniş, 22 min 500 nəfərə isə birdəfəlik ödəmə təyin olunub. Həmçinin şəhid ailələri, müharibə əlillərinin mənzillə təminatı proqramı 5 dəfə genişlənib, onlara 6 min mənzil və fərdi ev verilib. Həmçinin müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 494 avtomobil təqdim edilib.

Bundan başqa, şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 11 min nəfərə 57 min 300 sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib, müharibədə əlil olan 2 min 94 şəxs 50 min 700 reabilitasiya vasitəsi, o cümlədən 462 şəxs 483 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub. Şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 20 min 900 işsizin məşğulluğu təmin edilib, o cümlədən 10 min 400 nəfər özünüməşğulluq proqramına cəlb olunub.

Ümumiyyətlə, postmüharibə dövründə qeyd olunan sosial dəstək paketi 128 min şəxsi əhatə edib və onlara dəstək yönümlü 331 min xidmət göstərilib.

## Bərpa xidmətləri davamlıdır

Qeyd etməliyik ki, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi bu ilin yanvar ayında əlillərə 9 min 100 reabilitasiya vasitəsi verib. Onlardan 612-i təkərli oturacaq (o cümlədən 3-ü mühərrikli təkərli oturacaq), 190-ı aşağı və yuxarı ətraf, habelə 235-i eşitmə aparatı, 227-si qoltuqaltı və dirsəkaltı ağac olub. Həmçinin əlillərə 247 cüt protez ayaqqabı, 454 cüt ortopedik ayaqqabı, 7 korset və s. reabilitasiya vasitələri təqdim olunub. Yanvar ayında, ümumilikdə 1,3 min nəfər əlil reabilitasiya vasitəsi ilə təmin edilib.

Agentlik yeni xidmət istiqaməti olaraq ötən ilin noyabr ayından onkoloji xəstəliklə əlaqədar əlil olanlara sosial-psixoloji dəstək və reabilitasiya xidmətləri də göstərir. Bu xidmətlər ötən dövrdə artıq 219 şəxsi əhatə edib. Agentliyin reabilitasiya mərkəzləri tərəfindən onlar üçün ambulator, səyyar və ya onlayn formada fərdi və qrup seanslar həyata keçirilir. Onkoloji xəstələrin sosial-psixoloji xidmətlə təmin edilməsi onlarda stress səviyyəsinin azaldılması, kədər və yalnızlıq hisslərinin, bədbinliyin aradan qaldırılması, reabilitasiya prosesinin dəstəklənməsi məqsədi daşıyır.

Xidmət çərçivəsində həmin şəxslərin ailə üzvləri də emosional dəstək və qayğı göstərmək bacarıqlarının gücləndirilməsi məqsədilə psixo-maarifləndirmə tədbirlərinə cəlb edilirlər.

## Pensiyalara yeni əlavə




Vətəndaşlara göstərilən diqqətdən danışanda pensiyaçıların rifahının daha da yaxşılaşması üçün atılan addımlardan da söz açmaq yerinə düşər. Ötən il və bu ilin yanvar ayında Dövlət Sosial Müdafiə Fondu yaşa görə pensiya təyin olunduqdan sonra azı 6 il işləmiş 4 min 367 şəxsin pensiyalarını yenidən hesablayaraq artırıb.

"Əmək pensiyaları haqqında" Qanuna əsasən, vətəndaş yaşa görə pensiya təyin olunduqdan sonra da işləməkdə davam edərsə, hər 6 ildən bir onun hesabında toplanmış sosial sığorta haqqı 72-yə (6 il × 12 ay) bölünərək onun pensiyasının üzərinə əlavə olunur. Bu da işləyən pensiyaçıların mənafelərinin daha dolğun təminatına xidmət edir. Həmçinin yaşa görə pensiyaya çıxdıqdan sonra işləməkdə davam edən şəxslər arasında sosial sığorta sistemində aktiv iştiraka marağın artmasını stimullaşdırır.

Onu da qeyd edək ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 2019-cu ilin əvvəlindən başlayaraq pensiyaların, daha sonra isə müavinət və təqaüdlərin təyinatını elektronlaşdırıb. 2024-cü ilin 1 fevral tarixinədək həmin sosial təminat növləri üzrə 694 min (o cümlədən pensiya üzrə 107 min, müavinət və təqaüdlər üzrə 587 min) təyinat e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib. Bununla da vətəndaşların hüquqları yarandığı halda nazirliyə, yaxud onun yerlərdəki qurumlarına müraciətlərinə və sənəd təqdim etmələrinə ehtiyac qalmadan, həmin sosial ödənişlər onlara proaktiv qaydada təyin edilib.

## Məşğulluğa dəstək




İşsiz vətəndaşların problemləri də ötən dövrdə daim diqqətdə saxlanıb. Dövlət Məşğulluq Agentliyi bu ilin yanvar ayında 33 mindən artıq şəxsi aktiv məşğulluq tədbirləri ilə əhatə edib. Onlardan 17 min nəfəri işlə təmin edilib. 476 nəfər işsiz şəxs üçün isə işəgötürənlərlə əməkdaşlıq çərçivəsində peşə hazırlığı kursları təşkil edilib. Digər bir istiqamət olaraq 15 min 540 şəxsə peşəyönümü xidmətləri göstərilib.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Qədim türk yurdu – Azərbaycanın ayrılmaz hissəsi

**(Əvvəli XQ-nin 10, 11, 13, 17 fevral 2024-cü il tarixli saylarında)**

Muxtariyyət illərində Naxçıvan çətin, mürəkkəb və eyni zamanda, parlaq inkişaf yolu keçmişdir. Muxtar Respublikanın 100 illik yubileyinin qeyd edilməsi barədə Prezident İ sərəncamda deyildiyi kimi: “Strateji mövqeyi ilə seçilməsi tarixən Naxçıvanı vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyar qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf etmişdir”.

## Muxtariyyətin tarixi önəmi

Sovet hakimiyyəti dönəmində Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində özünəməxsus inkişaf yolu keçib, sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında böyük nin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün xüsusən Moskva müqaviləsinin və Qars müqaviləsinin burada böyük əhəmiyyəti vardır. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir”.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Naxçıvan Muxtar Respublikası ilə bağlı sərəncamlar, bu diyara tarixi səfərləri, ərazi bütövlüyü və təhlükəsizliyi üçün gördüyü tədbirlər, muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi və həlli vacib olan digər məsələlərin həyata keçirilməsi muxtar respublikanın hərtərəfli inkişafı üçün zəmin yaratmış və təmin etmişdir.

Naxçıvan Muxtar Respublikasının 80 illik, 2009-cu il 9 fevral tarixli Sərəncamı ilə 85 illik, 2014-cü il 14 yanvar tarixli Sərəncamı ilə 90 illik yubileylərinin ölkəmizdə geniş qeyd olunması bunun bariz nümunəsidir.

Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli Sərəncamında qeyd olunur: “Naxçıvan diyarı Azərbaycanın çoxəsirlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır... Naxçıvanın... qəhrəman əhalisi bu qədim Azərbaycan torpağını işğal təhlükəsindən qurtarmış, Azərbaycanın müstəqilliyi uğrunda atdığı cəsarətli addımlarla milli dövlətçiliyin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsi naminə fədakarlıq nümayiş etdirmişdir. 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Naxçıvanın igid övladları şanlı Zəfər salnaməmizə parlaq səhifələr yazmışlar”.




nailiyyətlər əldə edib. Lakin bunlarla yanaşı, Naxçıvan sovet bolşevik terrorunun, zorakı kollektivləşmənin, 30-cu illər repressiyasının ağır fəsadlarını da yaşayıb. Xüsusilə, 60-cı illərin ortalarınadək Naxçıvanda vəziyyət daha ağır olub. Amma 70-ci illərin əvvəllərindən başlayaraq, Naxçıvan inkişaf etməyə başlayıb. Naxçıvan MSSR qabaqcıl sənaye, kənd təsərrüfatı, elm və mədəniyyətə malik güclü diyara çevrilib.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətdə olması, bütün digər regionlar kimi, Naxçıvanda da miqyaslı və sürətli inkişafa zəmin yaradıb. Ulu öndərin apardığı məqsədyönlü siyasət, sosial-mədəni sahədə milliləşdirmə nəticəsində Naxçıvanın görkəmi tamamilə dəyişib.

Amma 80-ci illərin sonlarında Respublikada mürəkkəbləşən siyasi vəziyyət fonunda Naxçıvanda da proseslər ürəkaçan səviyyədə deyildi. Sovet imperiyasının süqut etdiyi bir ərəfədə ittifaq rəhbərlərinin ikiüzlü siyasəti, erməniləri müdafiə etmələri, milli münaqişələrə rəvac verirdi. 1990-cı il yanvarın 19-da ermənilər işğal etdikləri ərazilərdən Sədərək qəsəbəsinə təcavüzə başladılar. SSRİ rəhbərlərinin riyakarlığına görə Naxçıvan MSSR SSRİ-nin tərkibindən çıxdığını elan etdi.

Bu çətin dövrdə Heydər Əliyevin Naxçıvana gəlməsi, burada yaşaması, Azərbaycan və Naxçıvan parlamentlərinə deputat, 1991-ci il 3 sentyabrda isə Ali Məclisin sədri seçilməsi və fəaliyyəti Naxçıvan MR-i xilas etdi. O zaman Muxtar Respublika rəhbərliyinin milli istiqlaliyyət yollarında atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən böyük rəğbətlə qarşılanaraq dəstəkləndi və respublikada gedən siyasi proseslərə öz müsbət təsirini göstərdi. Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti, müstəsna əhəmiyyət kəsb edən qərarların qəbul edilməsi tariximizin ən parlaq səhifələrindəndir.

Ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə Azərbaycanda hakimiyyətə gəldikdən sonra da onun fəaliyyətində Naxçıvan MR-in inkişafı, təhlükəsizliyinin təmin olunması prioritet istiqamətlərdən oldu.

Naxçıvanın muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsində 1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil Azərbaycan Respublikası Konstitusiyasının mühüm rolu oldu. Müstəqil dövlətimizin Konstitusiyası əsasında Naxçıvan Muxtar Respublikasının da yeni Konstitusiyası hazırlandı və 1998-ci il aprelin 28-də Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edildi, həmin il dekabrın 29-da isə təsdiq olundu.

Ulu öndər Naxçıvanın muxtariyyət statusu əldə etməsinin tarixi əhəmiyyətini və bu sahədə beynəlxalq müqavilələrin rolunu qiymətləndirərək demişdir: “Naxçıvanın muxtariyyəti tarixi hadisə olubdur. Bu, çətin bir dövrdə böyük bir mübarizə



Müxtəlif dövrlərdə Naxçıvan Muxtar Respublikasının təşkil olunmasının ildönümləri dövlət səviyyəsində qeyd olunmuş, 1949-cu ildə muxtar respublikanın 25, 1964-cü ildə 40, 1974-cü ildə 50, 1984-cü ildə 60 illik yubileyləri keçirilmişdir. Keçirilən yubileylərin ikisi – 50 və 75 illik yubileyləri – Ulu öndərin qərarı və iştirakı ilə keçirilmişdir. Ümummilli lider Naxçıvana gələrkən Bakı hava limanında jurnalistlərlə söhbətində qeyd etmişdi ki, “Naxçıvan Muxtar Respublikasının yaranması Azərbaycan xalqının, respublikanın həyatında tarixi hadisədir. Bu respublikanı vaxtilə yaradanlar çox müdrik, uzaqgörən insanlar olublar, Azərbaycan torpaqlarının ayrı-ayrı iddiaçılar tərəfindən parçalanmasının qarşısını alıblar”.

## Müstəqillikdən güc alan diyar

Əsası ümummili lider Heydər Əliyev tərəfindən qoyulmuş siyasi kurs hazırda da davam etdirilir. Biz bunu Naxçıvan Muxtar Respublikasına dövlətin diqqət və qayğısında da görürük. Ulu öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev öz fəaliyyətində Muxtar Respublikanın inkişafını, təhlükəsizliyinin təmin olunmasını, “yaşıl enerji zonası”na daxil edilməsini, kommunikasiyaların bərpa edilməsini prioritet olaraq müəyyənləşdirib.

Ulu öndər Heydər Əliyevin Naxçıvanın muxtariyyət statusu qorunması, muxtar respublikanın yubileylərinin keçirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər bu gün də uğurla davam etdirilir. Azərbaycan Prezidenti İlham Əliyevin 2004-cü il 9 fevral tarixli Sərəncamı ilə

Bu gün muxtar respublikanın statusunun və sərhədlərinin beynəlxalq təşkilatlar səviyyəsində tanıdılması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. 2012-ci il oktyabrın 16-18-də Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin Strasburqda keçirilən 23-cü plenar sessiyasında qəbul olunan sənədlərin birində Naxçıvan Muxtar Respublikası ilə bağlı çox mühüm və tarixi əhəmiyyət daşıya biləcək məqam əks olunmuşdur. Həmin hissə Konqresdə iştirak edən Naxçıvan MR nümayəndə heyəti tərəfindən hazırlanmış və Memoranduma daxil edilmişdir.

Sənəddə qeyd olunur ki, Naxçıvan Muxtar Respublikasının konstitusiya statusu Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarına, habelə hazırda qüvvədə olan iki beynəlxalq müqavilələrə əsaslanır. Bundan başqa, qeyd edilmişdir ki, muxtar respublikanın statusu həm milli qanunvericilik, həm də beynəlxalq müqavilələrlə müəyyən olunmuşdur. Maddənin sənədə daxil edilməsi Azərbaycan, eləcə də Naxçıvan Muxtar Respublikası üçün böyük siyasi əhəmiyyət kəsb edir.

İlk dəfə idi ki, Naxçıvan Muxtar Respublikasının statusunu, sərhədlərini müəyyən edən 1921-ci il Moskva və Qars beynəlxalq müqavilələri beynəlxalq təşkilatın sənədlərində hazırda qüvvədə olan hüquqi sənəd kimi qiymətləndirilirdi. Ölkəmiz, o cümlədən muxtar respublikamız üçün mühüm olan beynəlxalq müqavilələrin hüquqi qüvvəsinin Avropa Şurası kimi bir beynəlxalq təşkilat tərəfindən tanınması şübhəsiz ki, ölkə rəhbərliyinin bu sahədə apardığı fəal diplomatik fəaliyyətin məntiqi nəticəsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə bağlı sərəncamları, muxtar respublikaya 16-dək səfəri, göstərdiyi diqqət və qayğı muxtar respublikanın hərtərəfli, dinamik və dayanıqlı inkişafını təmin etmişdir. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, bu gün Naxçıvanın sosial-iqtisadi inkişaf proqramı və bundan irəli gələn strateji layihələr həyata keçirilir.

Prezident İlham Əliyevin 2022-ci il dekabrın 22-də “Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin təsis edilməsi haqqında” fərman imzalaması bu qədim diyarda mühüm hadisəyə çevrildi. Bu tarixi əhəmiyyətli sənəd muxtar respublikada reallaşdırılan kadr islahatlarında, dövlət idarəçiliyinin təkmilləşdirilməsində yeni dövrün başlanmasından xəbər verdi. Səlahiyyətli Nümayəndəlik qısa müddət ərzində Prezidentin tapşırıqlarını yerinə yetirmək istiqamətində uğurlu fəaliyyətə başlamışdır və ilk nəticələr diqqət çəkir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı” təsdiq edilib. Dövlət Proqramı olduqca əhatəli və geniş spektrə malikdir. Proqram muxtar respublika iqtisadiyyatının inkişafının dövlət tənzimlənməsini və yeni hədəfləri müəyyənləşdirir. Dövlət Proqramında əksini tapmış inkişaf strategiyasının həyata keçirilməsinin 11 istiqamət üzrə ən əlverişli və münasib icra mexanizmləri və maliyyə mənbələri müəyyən edilib.

Naxçıvanın muxtar respublika olduğu son 100 il ərzində bu regionun inkişaf etdirilməsinə dair indiki miqyasda dövlət proqramı heç vaxt qəbul edilməyib. Azərbaycan Respublikası Nazirlər Kabineti artıq 2024-cü il üçün Tədbirlər Planını açıqlayıb. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli 2023-cü ilin sonunda jurnalistlərə müsahibəsində qeyd etmişdi ki, artıq 2024-cü ilin mart-aprel aylarından başlayaraq Naxçıvan Muxtar Respublikasında tikinti işlərinə geniş vüsət veriləcək və bir sıra böyük infrastruktur layihələri icra olunacaq.

2023-cü il də Naxçıvan Muxtar Respublikasında yaddaqalan, şanlı bir tarix oldu. Naxçıvanda Azərbaycan Respublikasının Prezidenti ilə Türkiyə Cümhuriyyəti Prezidentinin görüşü keçirildi, hökumətlərarası görüşlər oldu. Naxçıvan Muxtar Respublikası 2023-cü ildə 40-dan çox tədbirə ev sahibliyi etdi.

Naxçıvan Muxtar Respublikasında baş verən dəyişikliklər “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında”kı Sərəncamda da öz əksini tapmışdır: “Naxçıvan Muxtar Respublikası bu gün dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir. Hazırda Naxçıvan beynəlxalq miqyaslı mötəbər tədbirlərin ardıcıl keçirildiyi məkanlardandır. Azərbaycanın ətraf mühitin mühafizəsinə yönəlmiş fəaliyyəti çərçivəsində muxtar respublika “yaşıl enerji” zonası elan olunmuşdur. Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat imkanlarının genişləndirilməsi istiqamətində işlər davam etdirilir”.

Bir əsr bundan əvvəl Azərbaycanın bu qədim diyarında, ulu türk yurdunda Naxçıvan Muxtar Respublikasının yaranması bölgənin 1 əsrlik tarixi taleyində, onun ərazisinin qorunub saxlanılmasında və təhlükəsizliyinin təmin edilməsində çox mühüm rola malik olmuşdur. Bu illər ərazində Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi qüdrətinin yüksəlməsinə və hərtərəfli inkişafına da öz layiqli töhfəsini vermişdir.

Prezident İlham Əliyevin dediyi kimi: “Milli istiqlaliyyət yolunda Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanmış, respublikada cərəyan edən ictimai-siyasi proseslərə öz müsbət və həlledici təsirini göstərmişdir. Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılması və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verir”.

***İsmayıl HACIYEV,***
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

# Dövlət Proqramı muxtar respublikaya yeni həyat gətirir

**Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027- ci illər üçün Dövlət Proqramı” üzrə Əlaqələndirmə Qrupunun onlayn formatda ilk iclası keçirilib.**

Naxçıvan MR İqtisadiyyat Nazirliyindən bildirilib ki, dövlət qurumlarının nümayəndələrinin qarşılıqlı müzakirələri formatında keçən iclasda Muxtar Respublika Nazirlər Kabineti ilə yanaşı, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, ölkənin İqtisadiyyat, Energetika, Rəqəmsal İnkişaf və Nəqliyyat, Kənd Təsərrüfatı nazirliklərinin, Mərkəzi Bankın, Dövlət Gömrük Komitəsinin, Dövlət Turizm Agentliyinin nümayəndələri iştirak ediblər.

İclasda qeyd olunub ki, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı” təsdiq edilib. Dövlət Proqramının məqsədləri davamlı iqtisadi artımın təmin edilməsi və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması sayəsində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi və ölkə iqtisadiyyatına tam inteqrasiyasının təmin olunmasıdır.

11 prioritet üzrə 81 tədbirdən ibarət olan Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planında nəzərdə tutulan tədbirlərin daha effektiv və keyfiyyətli icrası məqsədilə Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın tərkibində İqtisadiyyat Nazirliyinin rəhbərliyi altında xüsusi Əlaqələndirmə Qrupu yaradılıb.

İclasda bildirilib ki, hazırda Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın tərkibində sosial-iqtisadi sahələr üzrə 25 işçi qrupu, 4 alt qrup və Qlobal İnnovasiya İndeksi üzrə əlaqələndirmə qrupu fəaliyyət göstərir. Qeyd olunan qruplarda, ümumilikdə 600-dən çox üzv, o cümlədən özəl sektor, biznes assosiasiyası, qeyri-hökumət təşkilatı və akademik müəssisələrin nümayəndələri fəaliyyət göstərir.

Tədbirlər Planının əsas icraçı qurumlarının nümayəndələri tərəfindən müvafiq layihələr üzrə görülmüş işlər və cari il üçün qarşıya qoyulan məqsədlər barədə məlumat verilib.



İclasda Əlaqələndirmə Qrupunun fəaliyyəti üzrə 2024-cü il üçün Yol Xəritəsinin layihəsinin hazırlanması ilə bağlı konkret istiqamətlər müəyyənləşdirilib. Dövlət Proqramı çərçivəsində müvafiq yeni qanunverilicik və təşəbbüs layihələrinin Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın rəqəmsal idarəetmə platforması vasitəsilə digər işçi qruplarında özəl sektorun iştirakı ilə müzakirəyə çıxarılması ilə bağlı mexanizmin ilkin layihəsinin hazırlanması və münasibət bildirilməsi üçün əlaqələndirmə qrupunun üzvlərinə göndərilməsi barədə qərar qəbul edilib.

***Səbuhi HƏSƏNOV***

# BP-nin Azərbaycan təhsilinə növbəti töhfəsi



**Dünən M.F.Axundov adına Milli Kitabxanada BP–Azərbaycan şirkəti beynəlxalq universitetlərdə geniş istifadə edilən seçilmiş növbəti dərsliklərin Azərbaycan dilinə tərcümə olunmuş nəşrlərinin təqdimatını keçirdi.**

Təqdimat mərasimini giriş sözü ilə açan şirkətin xarici kommunikasiyalar üzrə rəhbəri Tamam Bayatlı bildirdi ki, BP şirkəti ölkəmizdə fəaliyyət göstərdiyi 31 il ərzində təhsilə dəstək verməyi özünün sosial siyasətin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirib. İndiyədək şirkətin maliyyə dəstəyi ilə 24 kitab Azərbaycan dilinə tərcümə olunaraq nəşr olunub. Qeyd olundu ki, BP-nin yerli universitetlər üçün qabaqcıl beynəlxalq təhsil resurslarına, bilik və təcrübələrə çıxış imkanının təmin edilməsinə yönəlmiş iri təhsil layihəsinin davamı kimi daha 5 kitabın tərcüməsi davam edir və həmin dərs vəsaitlərinin təqdimatı gələn ilə planlaşdırılır.

M.F.Axundov adına Milli Kitabxananın direktoru, professor Kərim Tahirov çıxış edərək BP–Azərbaycan şirkətinin təhsilimizə göstərdiyi dəstəyi yüksək qiymətləndirdi. Qeyd olundu ki, yeni kitabları tələbələrin iqtisadi biliklərinin artrılması istiqamətində dəyərli mənbə hesab etmək olar.

BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli qeyd etdi ki, bu gün ictimaiyyətə təqdim olunan beş kitab indiyədək Azərbaycana gətirilmiş 19 qabaqcıl beynəlxalq dərsliyin siyahısına dəyərli əlavədir. Bu kitabların yerli universitetlərin professor-müəllim heyətləri tərəfindən diqqətlə seçilərək tövsiyə edildiyini diqqətə çatdıran vitse-prezidentin sözlərinə görə, yeni nəşrlərin hamısına, həqiqətən də, böyük ehtiyac var və onlar Azərbaycanda ən çox tələb olunan dərsliklərdəndir. "Nəzərə alsaq ki, bu dərsliklər dünyada ali təhsil üzrə ixtisaslaşan ən nüfuzlu nəşriyyatlar tərəfindən nəşr olunub, universitetlərimizin bu kitablara birbaşa çıxışının təmin edilməsi professor-müəllim heyəti və tələbələr üçün böyük bir dəstəkdir. Biz isə çalışacağıq ki, bu dəstəyi davam etdirək",– deyə o, əlavə etdi.

Təqdimat mərasimində elm və təhsil nazirinin müavini İdris İsayev, Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Fərid Əhmədov və Bakı Dövlət Univesitetinin rektoru Elçin Babayev çıxış edərək ölkəmizdə bir sıra sosial layihələr həyata keçirən "BP-Azərbaycan" şirkətinin bu nəcib təşəbbüsünü yüksək dəyərləndirdilər.

Qeyd edək ki, şirkətin maliyyə dəstəyi ilə tərcümə olunaraq nəşr edilən kitablar aşağıdakılardır:

1. Marketinq strategiyası: ilkin prinsiplərin və verilənlərin təhlili əsasında (Müəllif: Robert Palmatier, Şrihari Sridar). Nəşriyyat: "Red Globe Press", 2021, 2-ci nəşr.
2. Rəqəmsal marketinq. Strategiya, tətbiq və təcrübə (Müəlliflər: Deyv Çaffi, Fiona Ellis-Çadvik). Nəşriyyat: Pearson, 2019, 7-ci nəşr.
3. İqtisadi siyasət. Nəzəriyyə və praktika (Müəlliflər: A.Benassi-Küer, B.Köre, P.Jake, J.Pizani-Ferre). Nəşriyyat: Oksford Universitetinin Nəşriyyatı, 2019, 15-ci nəşr.
4. İnformasiya təhlükəsizliyi prinsipləri (Müəlliflər: Maykl E.Vitman, Herbert C.Mattord). Nəşriyyat: "Cengage Learning", 2021, 7-ci nəşr.
5. Növbəti. Gələcəyin qısa tarixi (Müəllif: Avi Yoriş). Nəşriyyat: Gefen, 2022.

BP-nin yerli universitetlərə, kitabxanalara və müvafiq elm və təhsil müəssisələrinə hədiyyəsi olan bu dərsliklərin çap edilmiş 2 min nüsxəsi ilə yanaşı, rəqəmsal versiyası da yerli "Teas Press" nəşriyyat evinin onlayn platformalarında yerləşdirilib.

**XQ**

# bp "Şəfəq" layihəsinin icraçısı kimi elan edir

**bp "Şəfəq" layihəsinin icraçısı kimi elan edir ki, layihə üzrə iş proqramı çərçivəsində "Şəfəq" layihəsi üçün Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədinin ilkin variantı hazırlanıb və dərc edilib.**

**Bu sənəddə "Şəfəq" layihəsi üzrə aparılacaq fəaliyyətlərin ətraf mühitə və sosial-iqtisadi sahəyə potensial təsirləri nəzərdən keçirilir və tövsiyə edilən təsirazaltma tədbirləri təsvir edilir. ƏMSSTQ prosesinin məqsədi nəzərdə tutulan işlərin ətraf mühitə və sosial-iqtisadi sahəyə hər hansı mənfi təsirlərinin müəyyənləşdirilməsini və minimuma endirilməsini, mümkün olduqda isə aradan qaldırılmasını təmin etməkdir.**

**Azərbaycanın cənub qərbində yerləşən Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl rayonunda "Şəfəq" layihəsi çərçivəsində fotovoltaik (PV) günəş elektrik stansiyasının yaradılması məqsədi daşıyan bu layihə üzrə işlər bp şirkəti tərəfindən aparılır. Layihə üzrə tikinti işlərinin 2024-cü ilin ikinci yarısında başlanacağı və bu işlərin təxminən 18 ayadək davam edəcəyi gözlənilir.**

**PV günəş elektrik stansiyası təxminən 802 hektarlıq ərazini əhatə edəcək və 240 meqavatt dəyişən cərəyan (MVtAC) gücünə malik olacaq. Layihəyə 240 MVtAC gücündəki PV günəş elektrik stansiyasının layihələndirməsi, təchizatı, mühəndislik, tikinti, quraşdırma, sınaq, istismara buraxma işləri və istismar mərhələsi daxildir.**

**Maraqlı tərəflərlə məsləhətləşmə ƏMSSTQ prosesinin mühüm elementidir. Maraqlı tərəflərin rəy və təkliflərinin dinlənilməsi və sənədləşdirilməsi prosesi əsas maraqlı tərəflərin kollektiv fikirlərinin layihənin planında və ƏMSSTQ-də nəzərə alınmasını təmin edir.**

**ƏMSSTQ sənədinin tam layihə variantı və qısa xülasəsi Azərbaycan və ingilis dillərində hazırlanıb və bp-nin vebsaytında yerləşdirilib. Sənədlərlə aşağıda verilmiş link vasitəsilə tanış ola bilərsiniz:**

**https://www.bp.com/az_az/azerbaijan/home/news/hesabatlar/Etraf-muhit-ve-sosial-tesirlerin-qiymetlendirilmesi-hesabatlari.html**

***19 fevral 2024-cü il tarixindən etibarən bu sənədlərin nüsxələri ictimaiyyətin tanış olması üçün aşağıdakı ünvanlarda da yerləşdirilib:***

- **bp-nin Xəzər Mərkəzi ofisinin qəbul şöbəsi: Neftçilər prospekti 153**
- **M.F. Axundov adına Milli Kitabxana: Xaqani küçəsi 29**
- **Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Kitabxanası: Hüseyn Cavid küçəsi 31**
- **Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kitabxanası: Azadlıq prospekti 20**
- **Orxus İctimai Ekoloji İnformasiya Mərkəzi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi: Bəhram Ağayev küçəsi 100a.**

**Sizi ƏMSSTQ sənədinin layihə variantına dair rəylərinizi və fikirlərinizi bildirməyə dəvət edirik.**

***Xahiş olunur, öz rəy və təkliflərinizi 20 mart 2024-cü il tarixinədək bp-nin hökumətlə əlaqələr üzrə müşaviri Qivami Rəhimliyə göndərəsiniz:***

***e-poçt: esiafeedback@bp.com***

***telefon: (012) 599 3000 və ya (055) 212 68 52***

# "Araz Vadisi İqtisadi Zonası" bölgəyə dirçəliş gətirir

**Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsi və sənaye potensialının inkişaf etdirilməsi məqsədilə sənaye parkları yaradılır. Onlardan biri də Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkıdır. 200 hektar ərazini əhatə edən parkda işlər mərhələli şəkildə davam etdirilir. O, tam fəaliyyətə başladıqdan sonra burada logistika və anbar kompleksləri, TIR parkı, topdan və pərakəndə satış obyektləri və müxtəlif istehsal və xidmət müəssisələri fəaliyyət göstərəcək. Bundan başqa, tikinti üçün üzlük və izolyasiya materialları, müxtəlif qatqı maddələri, metal konstruksiya istehsalı müəssisələrinin təşkili nəzərdə tutulur.**

Parkın ərazisində, həmçinin kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, süd və ət məhsulları istehsalı və emalı, şərab, yem, gübrə istehsalı, ipəkçilik müəssisələrinin, kiçik istehsal və xidmət sahələrinin yaradılması eləcə də soyuducu kameraların qurulması planlaşdırılır. Bunlar işğaldan azad edilmiş ərazilərdə qeyri-neft sektorunun inkişafı ilə bərabər, ölkənin qeyri-neft məhsulları ixracında əhəmiyyətli rol oynayacaq.

**Bu barədə İqtisadi Zonaların İnkişafı Agentliyinin mətbuat katibi Elçin Kazımov dedi:**

**– Prezident İlham Əliyevin 2021-ci il 4 oktyabr tarixli Fərmanına əsasən, Cəbrayıl rayonunda 200 hektar ərazidə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb. Şərqi Zəngəzur iqtisadi rayonunun Arazboyu ərazisinin, əsasən, düzənlik relyefə və bölgənin cənub istiqamətində giriş qapısı mövqeyinə malik olması "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının fəaliyyəti üçün əlverişli şəraiti təmin edir.**

Logistik imkanlar baxımından əlverişli ərazidə təşkil olunması investorların diqqətini cəlb edən əsas məqamlardan biridir. Belə ki, sənaye parkı yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşir ki, bu da ərazidən həmin magistral yollara birbaşa giriş-çıxışı təmin edəcək. Bu avtomobil və dəmir yolları Zəngəzur dəhlizi vasitəsilə Azərbaycandan Türkiyəyə və Türkiyədən Azərbaycana, eləcə də Azərbaycan ərazisindən Rusiyaya yüklərin daşınması üçün yeni imkanlar yaradacaq.



Ölkəmizdə fəaliyyət göstərən digər sənaye parklarında olduğu kimi, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında da sahibkarların fəaliyyət göstərmələri üçün əlverişli biznes mühiti formalaşdırılır, rezidentlər dövlət vəsaiti hesabına hazır infrastrukturla təmin edilirlər.

**– Sənaye Parkında çalışacaq işçilərin rahatlılığının təmin edilməsi üçün hansı işlər görülüb?**

– İlkin olaraq parkda çalışacaq işçilərin rahatlılığının təmin edilməsi üçün mobil şəhərcik salınıb. Tikinti aparılacaq sahənin su və elektrik enerjisi ilə təmin edilməsi məqsədilə subartezian quyusu qazılıb, 630 kilovoltluq transformator məntəqəsi quraşdırılıb. Mobil şəhərcikdə konteyner tipli yataqxanalar, ofis, aptek, anbar, mağazalar, yeməkxana və digər xidmət obyektləri yaradılıb. Şəhərciyin perimetri boyunca hasarlanma işləri başa çatdırılıb.

**– Bəs sahibkarlığın inkişafı üçün yaradılan əlverişli şərait barədə nə deyə bilərsiniz?**

– Bu sənaye parkında sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradılır və rezidentlər üçün stimullaşdırıcı tədbirlər tətbiq olunur. Belə ki "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında rezidentlər üçün infrastruktur sisteminin qurulması istiqamətində işlər görülür. Qeyd edim ki, sənaye parklarının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla – qaz, işıq, su, kanalizasiya, daxili avtomobil və dəmir yolları, fiber optik xəttlərlə təmin edilirlər. Eyni zamanda, qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq və gəlir vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar.

Bundan başqa, Vergi Məcəlləsinə edilən dəyişikliyə əsasən, işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlar üçün əlavə güzəştlər tətbiq edilir. Buraya sosial sığorta haqlarının subsidiyalaşdırılması, işğaldan azad edilmiş ərazilərdə məskunlaşaraq işləyən mütəxəssislərə (hər il 5 gün əlavə məzuniyyət verilməsi; aylıq vəzifə maaşına əlavələrin hesablanması; 600 manat birdəfəlik müavinət verilməsi), iş icazələrinin alınmasının sadələşdirilməsi, əmək miqrasiyası kvotasının tətbiq edilməməsi (əcnəbi mütəxəssislərə əmək miqrasiyası kvotasının 5 il tətbiq edilməməsi) də daxildir. İşğaldan azad edilmiş ərazidə fəaliyyət göstərən sahibkar tərəfindən istehsal prosesində istifadə edilən bir sıra xammal və materialların idxalı 10 il müddətinə ƏDV-dən azad olunur.

Eyni zamanda, istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara 10 il müddətində hər ay istehlak olunan kommunal xidmətlərin (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) tariflərinə uyğun olaraq ödədikləri vəsaitin 20 faizi məbləğində dövlət büdcəsinin vəsaiti hesabına maliyyə yardımı edilir.

**– Hazırda sənaye parkında neçə rezident var və onlar tərəfindən investisiya yatırılıbmı?**

– Yaradılan əlverişli investisiya mühitinin nəticəsidir ki, hazırda sənaye parkının 8 rezidenti və 1 qeyri-rezidenti var. İnvestorlar tərəfindən ümumi olaraq parka 59 milyon manatdan çox investisiyanın yatırılması, 580-dən artıq daimi iş yerinin yaradılması nəzərdə tutulur. Artıq bugünədək rezidentlər tərəfindən sənaye parkına 10 milyon manata yaxın investisiya yatırılıb, 20-dən artıq daimi iş yeri yaradılıb.

Bu rezidentlərdən biri ("Avto Lizinq Azərbaycan") artıq fəaliyyətə başlayıb. Belə ki, ötən ilin iyununda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanovun iştirakı ilə müəssisənin açılış mərasimi keçirilib. Mərkəzdə işğaldan azad olunmuş ərazilərimizdə istifadə olunan 1500-dək avtomobilə, həmçinin yüklərin daşınmasını həyata keçirəcək tranzit avtomobillərə və digər texnikalara peşəkar xidmət göstərilir.

Bu il sənaye parkında daha 3 müəssisənin (2 min tonluq sement terminalının, minatəmizləyən, xüsusi təyinatlı texnika və metal məmulatların, müxtəlif növdə yapışqan lentlərin istehsalı müəssisələri) fəaliyyətə başlaması planlaşdırılır.

Şərqi Zəngəzur iqtisadi rayonunda biznes mühitinin yaradılması regionunda əlverişli investisiya mühiti yaratmaqla həmin regiona investisiya axınını sürətləndirməklə yanaşı, sahibkarlığın inkişafına səbəb olacaq. Bu kimi tədbirlər həmin ərazilərin qısa müddətdə ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin edəcək.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan Turizm və Menecment Universiteti

## aşağıda qeyd olunan vakant vəzifəni tutmaq üçün

## MÜSABİQƏ ELAN EDİR

Dekan:

"Sosial menecment" fakültəsi.

Sənədlər elan qəzetdə dərc olunduğu gündən bir ay ərzində təqdim edilməlidir.

Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlər:

1. Azərbaycan Turizm və Menecment Universitetinin rektorunun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi.
3. Tərcümeyi-hal.
4. Dekan profilinə uyğun olaraq ali təhsil, alimlik dərəcəsi və elmi ad haqqında sənədlərin təsdiq olunmuş surətləri.
5. Elm və elmi-metodiki işlərin siyahısı.
6. Dekanın müvafiq struktur bölmənin inkişafı ilə əlaqədar platforması.
7. 4x6 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil.
8. Şəxsiyyəti təsdiq edən sənədin surəti.

Sənədləri bir ay ərzində (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat 10.00-dan 17.00-dək Azərbaycan Turizm və Menecment Universitetinin insan resursları şöbəsinə təqdim etmək lazımdır. Ünvan - AZ1072, Bakı şəhəri, K.Rəhimov küçəsi 822/23-cü məhəllə, 103 nömrəli otaq.

Yaranan suallarla bağlı Azərbaycan Turizm və Menecment Universitetinin İnsan resursları şöbəsinə müraciət etmək lazımdır. Telefon- 564-42-33 (dax. 115)

Məlumat ATMU-nun web səhifəsində də ( www.atmu.edu.az) yerləşdirilmişdir.

Qeyd – dekan vəzifəsinə namizədin göstəriciləri vəzifə tələblərinə uyğun gəlmədikdə və ya ərizənin verilmə müddəti bitdikdə sənədlərin qəbulundan imtina olunur.

**Rektorluq**

Füzuli – 530

# “Hər sözüm bir pəhləvandır…”

**Məlum olduğu kimi, Prezidenti İlham Əliyev ötən ayın 25-də dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb. Sənəddə göstərilir ki, Füzuli Azərbaycan bədii fikrinin inkişafında müstəsna yer tutan, Şərq ölkələri ədəbiyyatına güclü təsir göstərən qüdrətli sənətkardır və onun yubileyinin keçirilməsi şairin bədii-fəlsəfi irsini layiqincə dəyərləndirmək amalına xidmət edəcək.**



Mövzu ilə əlaqədar Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının humanitar fənlər kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Tərlan Quliyevlə müsahibəni təqdim edirik.

***– Tərlan müəllim, sözügedən sərəncamda da qeyd olunduğu kimi, Füzulinin həyata, insana dərin məhəbbət aşılayan və daim gözəllik duyğusu ilə, ülvi ideallarla yaşamağa çağıran çoxcəhətli bədii irsi Azərbaycan xalqının bəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi misilsiz mənəvi sərvətdir. Öncə sərəncama münasibətiniz bildirərdiniz.***

– Azərbaycan xalqı cənab Prezidentimizin və müstəqil dövlətimizin sayəsində son illər bir çox uğurlara imza atıb. Bu illərdə dövlət başçımızın mədəniyyət sahəsində imzaladığı bir sıra fərman və sərəncamlar da üreyimizdəndir. Belə ki, onun bir neçə il bundan qabaq Nəsimi və Nizami ilə bağlı sərəncamları, bu şairlərin həyat və yaradıcılıqlarını öyrənmək, təbliğ etmək, onların əsərlərindən alınan mənəvi dəyərləri bütün dünyaya tanıtmaq baxımından olduqca əhəmiyyətlidir. 2024-cü ilin əvvəlində isə Füzulinin yubileyi barədə sərəncam verilməsi bütün xalqımız kimi, eyni zamanda, ziyalılara, alimlərimizə daha xoş təəssürat bağışlayır. Çünki bu sərəncamdan irəli gələn tədbirlər əsasında, biz, xalqımızın böyük şairi Məhəmməd Füzuli (1494–1556) yaradıcılığı ilə bir daha tanış olacaq, onun əsərlərini öyrənəcək və Füzuli sənətini istər genc nəslə, istərsə də bütün dünyaya bir daha tanıdacağıq. Füzulinin isə bir şair kimi buna haqqı vardır.

Məhəmməd Füzuli Azərbaycan xalqının yetişdirdiyi elə dahi şairlərdəndir ki, onun əsərlərini daima öyrənmək və təbliğ etmək lazımdır. Təsadüfi deyil ki, hələ ingilis şərqşünası Gibb Füzulini Şərq şeirinin günəşi adlandırmışdır. Füzuli, həqiqətən də, ümumiyyətlə, bütövlükdə Şərq şeirində, xüsusilə də türk xalqları ədəbiyyatı tarixində, türk dilində yazıb-yaradan sənətkarlar içərisində müstəsna yer tutur. Məlumdur ki, Məhəmməd Füzuli bizim 3 dildə yazıb-yaradan sənətkarlarımızdandır. O, ana dili ilə bərabər, ərəb və fars dillərində də gözəl əsərlər yazmış, Azərbaycan dilində olduğu kimi, fars dilində də divan bağlamışdır. Bu, bir daha Azərbaycan şairlərinin, hətta, orta əsrlərdə belə, yüksək savada, intellektə, mənəvi dəyərlərə və tolerantlığa sahib olduğunu göstərir.

***– Siz əruz vəzninin, qəzəl janrının mahir bilicisi kimi, sevgi və digər insani hisslərin ən gözəl tərənnümçüsü saydığınız Füzulinin şərhi və dərki ilə bağlı nə deyə bilərsiniz?***

– Füzuli Azərbaycan şeirinin zirvəsidir. Belə ki, onun qələmə aldığı əsərlər öz lirik ovqatıyla 500 ildən artıqdır ki, könülləri fəth edir. Başqa sözlə desək, onun əsərləri ilə tanış olarkən, insan hisslərinin, mənəvi dəyərlərinin, yüksək əxlaqi keyfiyyətlərinin heç birinin bu əsərlərdən kənarda qalmadığını görürsən. Füzulinin əsərlərini sevdirən ən mühüm cəhətlərdən biri də məhz onun yüksək əxlaqi keyfiyyətə malik olmasıdır. Belə ki, insanın daxili aləmini də-



rindən duyan, bilən və tərənnüm edən şair, bunları yazarkən heç bir mənəvi qüsura yol verməmiş və bununla da öz əsərlərinin əxlaqi dəyərlərinin daima yüksək səviyyədə qalmasına çalışmışdır. Əslində orta əsrlər elmi təfəkkürü ilə yanaşsaq, həqiqətə çatmaq yolunda yürüyən şair, şəriət, təriqət, mərifət, həqiqət mərhələlərində demək olar ki, sona qədər yüksəlmişdir.

Füzuli öz yaradıcılığının sənətkarlıq xüsusiyyətləri ilə də seçilən şairdir. Füzuliyə qədər ədəbiyyat tariximizdə təqribən 300 illik bir dövr yaşayan qəzəl janrı, Füzuli yaradıcılığında demək olar ki, tam formalaşır. Füzuli öz qəzəlləri ilə bütün türkdilli xalqlar ədəbiyyatı tarixində müstəsna yer tutmaqla bərabər, eyni zamanda, qəzəl janrının bir janr kimi farsdilli ədəbiyyatdan, Hafiz və Sədi yaradıcılıqlarındakı qəzəllərdən heç də geridə qalmadığını sübut edir. Füzuli, eyni zamanda, digər janrların da Azərbaycan ədəbiyyatı tarixində, lirik şeirimizin ovqatının müəyyənləşməsində mühüm rol oynayır. Belə ki, onun qələminə məxsus tərkibbənd, mürəbbe, müxəmməs, müsəddəs, rübayi və s. janrların və nəhayət, məsnəvi janrının, “Leyli və Məcnun” poemasının mövcudluğu dediklərimizə sübutdur. Füzuli öz “Leyli və Məcnun” əsəri ilə bu nakam məhəbbət dastanına, ölməz mövzuya elə bir abidə qoymuşdur ki, üstündən 500 il keçməsinə baxmayaraq, bu məhəbbət abidəsi onu mütaliə edənlərin qəlbini bu gün də riqqətə gətirir. Təsadüfi deyil ki, akademik Kraçkovski təqribən belə demişdir: “Qərb “Leyli və Məcnun” əsərini tanımayana qədər nakam məhəbbət mövzusunda ən böyük əsərin “Romeo və Cülyetta” olduğunu güman edirdi. Amma “Leyli və Məcnun”la tanış olduqdan sonra Şərqdə də belə bir mövzunun olduğunu bildi”. Füzulinin “Leyli və Məcnun”unun poetik və fəlsəfi keyfiyyəti ondan ibarətdir ki, Füzuli zahirən bu əsərdə eşq hekayəsindən danışsa da, poemanın alt qatlarında irfani mətləblərə toxunaraq, eşqin irfani məzmununu açır. Bununla da həm eşqdən danışaraq, həm də orta əsrlər Şərq fəlsəfi düşüncəsinə sadiq qalıb eşqin həqiqi məzmununu, mahiyyətini tərənnüm edir.

***– Professor, siz “Azərbaycan şeirinin qədim dövrü”, “Əruz və qafiyəşünaslıq tarixi (VIII-XVI əsrlər)” adlı məqalələrin müəllifi, həmçinin Nəsimi və Füzulinin Azərbaycan və Şərq poeziyasında oynadığı rolu, o cümlədən, bu şairlərin poeziyası arasında olan fərqləri, əruz və muğam məsələlərini maraqlı şəkildə araşdıran alimsiniz. Əkrəm Cəfərin Füzuli haqqında “Yandım avazeyi eşqinlə sənin” monoqrafiyasının da elmi redaktorusunuz. Füzuli və ana dilimiz barədə nə deyərdiniz?***

– Anadilli şeirimizin zirvəsi olan Füzuli həm də XVI əsr Azərbaycan ədəbi dilinin zirvəsidir. Azərbaycan dilinin tarixi olduqca qədim və zəngindir. Amma Füzuli elə böyük sənətkardır ki, o Azərbaycan dilinin, Azərbaycan türkcəsinin potensialından ən maksimum dərəcədə istifadə etməyi bacarmış, bu dilin şəhdini, şəkərini, imkanlarını bütün dünyaya, o cümlədən, bilavasitə türkdilli xalqlara nümayiş etdirmişdir. Məhz bu incəliyi duymağı və onu qələmə ala bilmək istedadının nəticəsidir ki, Füzuli 530 ildir ki, sevilir və oxunur. Füzuli yaradıcılığı meydana çıxan gündən ətrafındakıları sehirləmiş, onları öz cazibəsi altında saxlamağı bacarmışdır. Bu mənada, təsadüfi deyil ki, onun əsərləri öyrənilir və araşdırılır.

***– Bir qədər də Füzuli irsinin müasir elmi-metodoloji baxımdan öyrənilməsinin tarixi barədə...***

– Əslində, bu, o qədər də qədim tarix deyil. Belə ki, Füzuli irsinin öyrənilməsinin əsasları təqribən ötən əsrin 40–50-ci illərindən başlamış və bu təqiqatları əsasını XX əsr Azərbaycan ədəbiyyatşünaslıq tarixində görkəmli yer tutan iki böyük alim, akademik Həmid Araslı və professor Mir Cəlal Paşayev qoymuşlar. Belə ki, professor Mir Cəlal Paşayev hələ 1940-cı ildə Füzuli sənətkarlığı haqqında tədqiqat qələmə almış, 1958-ci ildə isə bu tədqiqatı bir daha genişləndirərək, onu “Füzuli sənətkarlığı” adı altında nəşr etdirmişdir. Bununla da o, Azərbaycan ədəbiyyatşünaslığı tarixində, Azərbaycan füzulişünaslığında poetika məktəbinin əsasını qoymuş, Füzuli sənətkarlığının öyrənilməsi istiqamətinə rəvac vermişdir. Akademik Həmid Araslı isə ilk dəfə, 1944-cü ildə Füzulinin türkcə “Divan”ı-nın elmi-tənqidi mətnini hazırlamış və 1958-ci ildə bu “Divan”ı təkrar nəşr etdirmişdir. Beləliklə, Füzulinin anadan olmasının 400 illiyi münasibətilə keçən dövrdən günümüzə qədər füzulişünaslıq böyük bir inkişaf yolu keçmiş, bu illər ərzində Füzuli yaradıcılığı haqqında qiymətli əsərlər, monoqrafiyalar çap olunmuşdur. Və budur, bu günlərdə cənab Prezidentimiz Füzulinin 530 illiyi ilə bağlı yenidən sərəncam vermiş, bu böyük şairin irsinin öyrənilməsi, təbliği, təşviqi sahəsinə öz qayğısını göstərmişdir.

***– Maraqlı müsahibə üçün təşəkkür edirik.***

***Əli NƏCƏFXANLI***
**XQ**

# Türk Dünyası Milli Elmlər Akademiyaları Birliyi əməkdaşlığı gücləndirəcək

**Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayev Daşkəndə işgüzar səfəri çərçivəsində Özbəkistan Elmlər Akademiyasının prezidenti, akademik Behzod Yuldaşevlə görüşüb.**

Görüş zamanı tərəflər qardaş Türk dövlətləri arasında elmi əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Akademik Behzod Yuldaşev Özbəkistan Elmlər Akademiyasında prioritet istiqamətlər üzrə görülən işlərdən danışıb, birgə layihələrlə bağlı fikirlərini bölüşüb.

Türk Dünyası Milli Elmlər Akademiyaları Birliyinin qarşıdan gələn toplantısına hazırlıq məsələlərinin müzakirə olunduğu görüşün sonunda tərəflər elmi əməkdaşlıq potensialının tam şəkildə reallaşdırılması və qarşılıqlı əməkdaşlığı gücləndirmək barədə razılığa gəliblər.



İclasda Özbəkistan Elmlər Akademiyasının vitse-prezidentləri Sirociddin Mirzəyev, Bəhrom Abduhalimov və Milli Arxeologiya İnstitutunun direktoru Farhod Maksudov da iştirak ediblər.

**Qabil YUSİFOĞLU**
**XQ**

İsmayıl Ömərov – 70

**Dəyərli həmkarımız İsmayıl Ömərovun adı televiziya tamaşaçılarına yaxşı tanışdır. Uzun illər dövlət televiziyasında çalışıb, sonra iki dönəm yeni yaranan İctimai televiziya və Radio Yayımları Şirkətinin (İTV) baş direktoru olub. İstər sovet dövründə, istərsə də müstəqillik illərində audiovizual jurnalistikamızın layiqli simalarından sayılır.**

# Təcrübəli jurnalist və media təşkilatçısı

Hələ AzTV-də “İctimai-siyasi proqramlar”ın baş redaktoru olduğu zaman fərqli redaksiyalarda çalışan müxbir, rejissor və operatorlar bir müşküllləri olanda ümid yeri kimi məhz İsmayıl müəllimə üz tutub və onun köməkliyi ilə problemlərinin həllinə nail olublar. Elə vəzifəsindən asılı olmayaraq, bütün həmkarlarının xeyir-şərində də o, yaxından iştirak edib, sadə və səmimi davranışları ilə könülləri fəth edib. Odur ki, bü gün köhnə iş yoldaşları onu görəndə sevinir, sidq-ürəklə hal-əhval tuturlar.



İsmayıl Ömərov 1954-cü il fevralın 20-də Gürcüstanın qədim Borçalı mahalında – Kəpənəkçi kəndində anadan olub. Orada orta məktəbi bitirib və arzu qanadlarında Bakıya gələrək, Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olub. 1976-cı ildə ali təhsilini müvəffəqiyyətlə başa vuraraq təyinatla Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində əmək fəaliyyətinə başlayıb. Eyni zamanda, Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda iki̇nci təhsil alaraq politoloq ixtisasına yiyələnib.

Dövlət Televiziyasında kiçik redaktordan baş redaktor vəzifəsinə qədər böyük yaradıcılıq yolu keçən İsmayıl Ömərov “Siyasi proseslərin idarə olunmasında televiziyanın rolu” mövzusunda dissertasiya müdafiə edərək siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb. “Qızıl qələm” və “Araz” Ali Media mükafatlarının sahibidir. 1998-ci ildə “Azərbaycanın əməkdar incəsənət xadimi” fəxri adına layiq görülüb. Prezident İlham Əliyevin 10 noyabr 2011-ci il tarixli sərəncamı ilə Azərbaycan televiziyasının və radiosunun inkişafındakı xidmətlərinə görə 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif olunub. İsmayıl Ömərov həm də Azərbaycan Respublikası əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının üzvü olub.

2005-ci ildə 22 namizəd arasından səs çoxluğu ilə İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru seçiləndə o, artıq 30 illik təcrübəyə malik qələm və mikrofon sahibi idi. Seçkidən çox az vaxt – cəmi 3 ay keçəndən sonra elan etdi ki, yaradıcı və texniki heyət efirə çıxmağa hazırdır. Həmin il avqustun 29-da İctimai televiziyanın açılış mərasimi əsl bayrama çevrildi. Dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, müxalifət düşərgəsinin təmsilçiləri, elm və sənət adamları tədbirə qatıldı... Çünki hamı İctimai televiziyanı özününkü bilirdi.

Təşkilatçılıq və idarəetmə bacarığı sayəsində qısa bir müddət ərzində İsmayıl müəllim Azərbaycanda vizual media sahəsində ən demokratik və şəffaf institutlardan olan İctimai teleradionun pərvəriş tapmasını bacarıqla reallaşdıra, həsəd aparılacaq dərəcədə sağlam mühit yarada bildi. Azərbaycanda ənənəvi televiziyalardan fərqli, müxtəlif siyasi cərəyanların, ideya, fikir daşıyıcılarının düşüncələrini böyük auditoriyaya çatdırmağa, onunla paylaşmağa imkan verən, cəmiyyətin ayrı-ayrı təbəqələrinin maraqlarını uzlaşdıran yeni televiziyanı sıfırdan yaratmaq elə də asan məsələ deyildi. Amma İsmayıl Ömərov bunu bacardı.

...Bir il olardı ki, İTV fəaliyyətdə idi. İsmayıl müəllimin görüşünə getdik. Yaradılan studiyalar, aktual verilişlər, ilk yaradıcılıq uğurları barədə həvəslə söhbət açdı və bununla kifayətlənməyərək, bizi müavinlərindən birinə qoşdu ki, “möcüzə”ləri gəzib öz gözlərimizlə görük. Bax, gördüyü işlərdən, yaratdığı şəraitdən zövq alan belə bir rəhbər olub İsmayıl müəllim.

Bu gün 70 yaşı tamam olan İsmayıl Ömərov fəxr edə bilər ki, İTV-yə rəhbərlik etdiyi dövrdə vulqar əcnəbi seriallərın, sənət və sənətkarlıqdan uzaq, tozanaq yaradan bəsit düşüncəli “sənət” adamlarının ekran və efir məkanını primitiv şou proqramlarla zəbt etdiyi bir vaxtda, tamaşaçını dərindən düşündürən, onu özünün və Vətənin taleyinə biganə qalmağa qoymayan, döyüşkən, mübariz ruhlu siyasi proqramlar ekrana gətirdi və qısa bir müddətdə üstünlük qazanan ciddi teleppublisistikanın ən parlaq simalarından biri kimi məşhurlaşdı, tamaşaçıların sevimli kanalını ərsəyə gətirdi.

Yaxın tariximizin, ötən əsrin 90-cı illərinin qaranlıq səhifələrinin, həmin dövrdə Azərbaycanın üzləşdiyi çoxsaylı faciələrin ciddi şəkildə araşdırılması və ilk dəfə ekranlaşdırılmasında İsmayıl Ömərovun danılmaz rolu olub. Bir-birinin ardınca, müəllifi və aparıcısı olduğu “Qanlı yanvar”, “Qarabağ düyünü”, “Blokada”, “Əsrin faciəsi”, “Xəyanət”, “Qurtuluş” və s. silsilə teleserialları ilə yaşadığımız ağrılı-acılı illərə ayna tutub, qaranlıq hadisələrə aydınlıq gətirib, bir çox məchullara cavab arayıb. Görkəmli dövlət və ictimai xadimlərlə, partiya sədrləri, hüquq mühafizə orqanlarının, Milli Ordumuzun rəhbərləri ilə müsahibələri və cəsarətli suallar verməsi, ciddi jurnalist arqumentləri gətirməsi diqqət çəkib, böyük rezonans doğurub və hələ də yaddaşlardan silinməyib. Əvvəlcə onun çıxışlarını hay-küylə qarşılayanlar az sonra tutarlı bir cavab verə bilməyikləri üçün geri çəkilməyə məcbur oldular. Gücləri ona çatardı ki, gedib orda-burda İsmayıl Ömərovu “müstəntiq-jurnalist” kimi xarakterizə etsinlər.

Görkəmli alimlərimiz, ziyalılarımız, ictimai xadimlərimiz, şair və yazıçılarımız isə öz çıxışlarında, respublika mətbuatında dərc etdirdikləri məqalələrində bu verilişləri ciddi jurnalist araşdırma işi kimi yüksək qiymətləndirir, onun ictimai-siyasi əhəmiyyətindən bəhs edirdilər. Xalq şairləri Bəxtiyar Vahabzadə, Qabil, Zəlimxan Yaqub, Sabir Rüstəmxanlı və digər çoxsaylı nüfuz sahiblərinin obyektiv fikirləri buna ən gözəl nümunədir.

İsmayıl Ömərovun yaradıcılığını dəyərləndirənlər yaxşı bilirlər ki, bu verilişlər sadəcə istedadlı bir jurnalistin təxəyyülünün məhsulu deyil, konkret faktlara, əsaslı arqumentlərə söykənən, Vətənimizin ağrı-acılarını öz ruhunda, canında yaşadan mübariz qələm sahibinin vətəndaşlıq mövqeyidir. Təsadüfi deyil ki, telejurnalist İsmayıl Ömərov həm məziyyətlərinə görə 2000–2005-ci illərdə Azərbaycan Respublikası ikinci çağırış Milli Məclisinin deputatı seçilmişdir.

Yaxşı xatırlayırıq ki, İctimai televiziya məhz dövlətin, xalqın maraqlarına uyğun olaraq, Azərbaycan həqiqətlərini, Qarabağ münaqişəsini bütün dünyaya çatdırmaq üçün yeni üsul və formalardan daha peşəkarlıqla istifadə etdi. Hər gün bir neçə dəfə efirə gedən “Xəbərlər” proqramının əvvəlində torpaqlarımızın erməni işğalında qalması barədə BMT-nin məlum dörd qətnaməsinin Azərbaycan, rus və ingilis dillərində səslənməsi dünyaya effektli bir çağırış idi...

Yeri gəlmişkən, qarşılıqlı razılaşma əsasında “Azadlıq” radiosunun bütün dünya ölkələrində fəaliyyət göstərən müxbirləri İctimai televiziyanın “Carçı” xəbərlər proqramına ödənişsiz informasiyalar verir, reportajlar hazırlayırdı. Bu da ilk gündən kanalın populyarlığına böyük təkan oldu. Gürcüstan, Türkiyə, Qazaxstan, Macarıstan və başqa ölkələrin kanalları ilə yaranan dostluq əlaqələri əsasında informasiya mübadiləsi edildi, teleköprülər yarandı. TRT, BBS, Eronyus və s. tanınmış Tv-lərlə ciddi iş birliyi başladı. İsmayıl Ömərov xidmətlərinə görə 2 dəfə “Türk Xalqlarına Hizmət” ödülünə layiq görülən yeganə Azərbaycan televizyonçusudur.

2009-cu ildə İsmayıl Ömərov 2-ci müddətə də İTV-nin baş direktoru vəzifəsinə seçilib və öz missiyasını layiqincə yerinə yetirib. İctimai kanalın populyarlığı Avropa Yayımlar Birliyinin diqqətindən yayınmayıb, İTV-ni öz sıralarına qəbul edib və MDB ölkələri arasında ilk dəfə olaraq özünün növbəti sessiyasının məhz Bakıda keçirilməsinə razılıq verib. Eurovision müsabiqəsindəki uğurlarımızı isə İctimai televiziyanın beynəlxalq brendi hesab edə bilərik.

İTV-də məhz İsmayıl Ömərovun rəhbərliyi ilə xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyev, eləcə də, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Yusifbəy Nəsibbəyli, Əhmədbəy Ağayev, Əlibəy Hüseynzadə və başqaları haqqında maraqlı sənədli filmlər çəkilib.

Harada olmasından asılı olmayaraq, İsmayıl Ömərov Azərbaycanın milli dövlətçilik maraqlarını hər zaman qoruyan bir insandır. Tanınmış jurnalist 2017-ci ildə Gürcüstanın Bolnisi rayonunda xidmətlərinə və töhfələrinə görə bələdiyyə üzvlərinin səsvermesi nəticəsində yekdilliklə “Fəxri vətəndaş” seçilib.

Qarabağın azadlığı, hamımız kimi, İsmayıl Ömərovun da ən böyük arzusu idi. Və bu arzu “Ümid sənədir ancaq, Azərbaycan əsgəri!” diləyi ilə hər gün İTV ekranından inadkar bir hayqırtı ilə səslənirdi. Bu gün artıq həmin əzəli yurd yerlərimiz azaddır və Qarabağımızın hər yanında üçrəngli bayrağımız dalğalanır.

Dəyərli ziyalımız buna ən çox sevinənlərdəndir.

İsmayıl Ömərova 70 yaşının ərəfəsində möhkəm cansağlığı və yeni-yeni uğurlar arzulayırıq!

***Əli NƏCƏFXANLI,***
***Əməkdar jurnalist,***
***Müşfiq BORÇALI,***
***fəlsəfə doktoru***

# Özbəkistan da Qərbin cəza mexanizminə qoşulur

**Ötən ilin sonunda dünyanın bir çox siyasi-iqtisadi analitikləri 2024-cü ildə Rusiyaya qarşı sanksiyaların daha da sərtləşəcəyini proqnozlaşdırırdılar. Əksər proqnozlarda iqtisadi blokadanın və ticarət sanksiyalarının yeni mexanizmlərinin tətbiqi və daha çox ölkənin bu cəza tədbirlərinə qoşulmağa məcbur ediləcəyi qeyd edilirdi. Son günlər baş verən proseslər bu proqnozların gerçəkləşdiyini nümayiş etdirir.**



İlin ilk ayından başlayaraq, Qərb isteblişmentinin daha sistemli cəhdləri, ilk növbədə, Rusiya aktivlərinin müsadirə edilməsinə və daha vacibi isə üçüncü dünya ölkələrinin bizneslərinin, xüsusən sənaye təchizatı və texnoloji əməkdaşlıq sahəsində Rusiya ilə əməkdaşlıqdan imtinaya məcbur edilməsinə yönəldilib. Bu üç sahə 2024-cü ildə Rusiyaya qarşı sanksiyalar ssenarisinin əsasını təşkil edir. Onların mahiyyəti nədən ibarətdir və bu, Rusiyaya hansı iqtisadi ziyan vura bilər?

Blokada sanksiyalarının genişləndirilməsi Rusiyaya qarşı məhdudlaşdırıcı tədbirlərin hər yeni dalğasının əsasını təşkil edən çox qəliz bir prosesdir. Rusiyanın bloklanan şəxslərinin siyahısına getdikcə daha çox fiziki və hüquqi şəxslər əlavə olunur. Onların aktivləri dondurulur və əməliyyatlar aparmalarına qadağa qoyulur. Məsələn, Avropa İttifaqı (Aİ) hazırda Ukrayna münaqişəsi ilə bağlı 335 hüquqi və 1645 fiziki şəxsi bloklayıb. Bu, “50 faiz qaydası”na əsasən sanksiyalara məruz qalan aktivləri – törəmə şirkətləri, filialları və sairləri nəzərə almır. Digər sanksiyaların təşəbbüskarlarının – ABŞ, Böyük Britaniya, Kanada və başqalarının – siyahıları həmişə üst-üstə düşməsə də, minlərlə Rusiya vətəndaşı artıq bloklanıb. Bundan əlavə, ABŞ-ın bloklama sanksiyaları, özlərinin sanksiyalara məruz qalacaqları qorxusu altında olan üçüncü ölkələr, o cümlədən Rusiyaya dost olan böyük bizneslər tərəfindən həyata keçirilir.

Bütün bu cəhdlərə baxmayaraq, sanksiyadan yayınma və dost ölkələrin bizneslərinə təzyiqlə mübarizə getdikcə daha geniş miqyas alır. 2023-cü ildə bu tədbirlər daha aktiv idi. ABŞ-ın Rusiyaya qarşı tətbiq etdiyi sanksiyaların demək olar ki, bütün raundları özündə üçüncü ölkələrdən – Türkiyə, BƏƏ, Çin, Sinqapur, Qırğızıstan, Kipr və başqalarından olan şəxslərə qarşı sanksiyaları birləşdirirdi. Çünki ABŞ hakimiyyəti onları ixraca nəzarətdən və digər sanksiya rejimlərindən yayınmada iştirak etdiklərini bildirirdi.

Keçən il Aİ-də də bu cür ikinci dərəcəli sanksiyalar mexanizmi meydana çıxdı. Lakin o, son dərəcə məhdud şəkildə istifadə edildi. Sanksiyalardan yayınaraq RF-ə Aİ-də istehsal edilən mallar tədarük edən üçüncü ölkələrlə bağlı ixrac nəzarəti Aİ-də, ümumiyyətlə tətbiq olunmadı. Buna baxmayaraq, indi Aİ ölkələrində sanksiyaları pozanların cinayət təqibi sürətlə artır və artıq Vaşinqtonunn nümayiş etdirdiyi templə müqayisə oluna bilər. ABŞ-ın özündə yeni hüquqi mexanizmlər yaranıb. Belə ki, ABŞ Prezidenti Co Bayden 14024 və 14068 saylı fərmanlarına düzəlişlər edən yeni icra sərəncamı imzalayıb.

Birinci halda söhbət Rusiya müdafiə sənayesinin maraqları naminə maliyyə əməliyyatları həyata keçirən xarici maliyyə qurumlarına qarşı sanksiya mexanizminin yaradılmasından və Rusiyaya müəyyən növ elektronika və sənaye avadanlıqlarının tədarükündən gedir. İkincisi, Rusiya mallarının (qeyri-sənaye almazları, balıqlar, dəniz məhsulları və s.) idxalına qoyulan qadağaların uzadılması ilə əlaqədardır ki, bu mallar üçüncü ölkələrdən idxal olunan məhsulların tərkib hissəsinə çevrilir. Maraqlıdır ki, Aİ özünün 12-ci sanksiyalar paketində təkcə Rusiya almazlarına deyil, həm də üçüncü ölkələrdə emal edildikdən sonra yaradılan məhsullara qadağa qoymuşdur.

ABŞ-ın maliyyə institutlarına qarşı ikinci dərəcəli sanksiyaları Rusiyaya yaxşı münasibətdə olan ölkələr üçün daha təhlükəlidir. Əgər əvvəllər 14024 saylı fərmanın mexanizmləri ABŞ Maliyyə Nazirliyinə üçüncü ölkələrdən ABŞ-ın sanksiyalar rejimindən yan keçən və ya sanksiyalar altında olan Rusiya vətəndaşları ilə qarşılıqlı əlaqədə olan şəxslərin qarşısını almaq səlahiyyəti verirdisə, indi onların fəaliyyət dairəsi daha genişlənib. Yəni, hətta əməliyyat faktiki Amerika malları və ABŞ-ın sanksiya rejimi ilə bağlı olmasa belə, üçüncü ölkədən olan maliyyə qurumu yenə də sanksiyalara məruz qala bilər.

Bu kimi təhlükələrdən sığortalanmaq üçün, hətta bir çox postsovet ölkələri belə, öz maliyyə sistemlərini təziyqlər və sanksiyalardan qorumaq üçün qanunvericilik aktlarında ciddi dəyişiliklər etmək məcburiyyətində qalırlar. Məsələn, MDB kimi qurumda Rusiya ilə bir masada oturan Özbəkistan Respublikası qanunvericilik səviyyəsində RF-yə qarşı sanksiyalara qoşulmaq qərarına gəlib.

“The Moscow Times” nəşri yazır ki, Özbəkistan hakimiyyəti de-fakto Qərbin Rusiyaya qarşı sanksiyalarına qoşulmaq qərarına gəlib və bu qərar 2024-cü ildə iştirakçılarının sayı 11 mini keçən şəxsə və şirkətə tətbiq edilə bilər. Nəşr yazır ki, Özbəkistan parlamenti sanksiya tətbiq edilən fiziki və hüquqi şəxslərin ölkədə bank əməliyyatlarını qadağan edən qanun layihəsini birinci oxunuşda qəbul edib.

Ölkə parlamentinin mətbuat xidməti faktı şərh edərək bəyan edib ki, bu qanun layihəsi Özbəkistana qarşı ikinci dərəcəli sanksiyaların tətbiqi riskləri – sanksiya rejiminin pozulması ilə bağlı tədbirlərlə əlaqədar təklif edilib. Sanksiyaya qoşulan Çexiya, Latviya və Estoniyanın təcrübəsi nəzərə alınaraq hazırlanan qanun layihəsi ölkənin Mərkəzi Bankına əlavə səlahiyyətlər verir. Belə ki, qanun layihəsi “bank sektorunda sanksiyalara uyğunluq sisteminin səmərəliliyini artırmaq üçün lazımdır”.

Məclisdən, həmçinin bildiriblər ki, Rusiyaya “paralel idxal” adlanan “hab”-lardan və Rusiya vətəndaşları üçün “kart turizmi”nin əsas istiqamətlərindən birinə çevrilən Özbəkistan böyük müharibənin birinci ilində 300 mindən çox rusiyalını qəbul edib və onlardan 60 mini bu ölkənin baklarında hesab açıb.

Amma bunda Rusiyadan artıq bəlkə də Özbəkistan qazanıb. 2022-ci ildə RF-dən Özbəkistana pul köçürmələrinin həcmi 160 faiz artaraq rekord həddə – 14,5 milyard dollara çatıb və rusiyalı sahibkarlar bu ölkədə rekord sayda şirkətlər açıblar. Lakin Aİ və ABŞ rəsmilərinin Mərkəzi Asiyaya müntəzəm səfərlərindən sonra Özbəkistandakı banklar ruslar üçün şərtləri sərtləşdiriblər.

Rusiyalı ekspert Denis Primakov məsələyə münasibətini belə açıqlayıb: “Əslində, qəbul edilmiş qanun layihəsi artıq formalaşmış təcrübəni birləşdirəcək: Özbəkistandakı banklar artıq sanksiyaya məruz qalan şəxslərlə əməliyyatlar aparmır”.

Parlamentin aşağı palatasının büdcə və iqtisadi islahatlar komitəsi bildirib ki, bəzi KİV və sosial şəbəkələr sənədin “mahiyyətini və mənasını yanlış və təhrif olunmuş şəkildə şərh edir. Bu qanun layihəsi heç bir dövlətə qarşı yönəlməyib. Layihədə nəzərdə tutulan prosedur demək olar ki, dünyanın bütün ölkələrində mövcuddur, bunun məqsədi milli maliyyə institutları tərəfindən onlara qarşı ikinci dərəcəli sanksiyaların tətbiqindən yayınmaqdır”.

Qanunvericilik Palatası məlumat verir ki, bu gün müxtəlif dövlətlər, beynəlxalq təşkilatlar və maliyyə institutları tərəfindən iqtisadi sanksiyaların tətbiqi beynəlxalq iqtisadi həyatın reallığına çevrilib. Amma Özbəkistanın milli qanunvericiliyində kredit və ödəniş təşkilatlarının fəaliyyətində ikinci dərəcəli iqtisadi sanksiyaların tətbiqi ilə bağlı riskləri tənzimləmək və onlara nəzarət etmək üçün hüquqi baza yoxdur. Buna əsaslanaraq, qəbul edilən sənəd iqtisadi sanksiyalarla bağlı risklərin idarə edilməsi üçün vahid tələblərin müəyyən olunması səlahiyyətlərinin Mərkəzi Banka verilməsini nəzərdə tutur”.

“Veta” ekspert qrupunun icra tərəfdaşı İlya Jarski hesab edir ki, sanksiya siyahılarına yüz minlərlə və ya milyonlarla rusiyalı daxil olmadığı vaxtda, bundan qorxmağa hələ ki, ehtiyac yoxdur. Hazırda şəxsi iqtisadi məhdudiyyətlər altında olan insanların sayı “statistik siyahılar çərçivəsində” qalır. Amma qanun layihəsində sanksiya tətbiq edilən hüquqi şəxslər, eləcə də onlarla əlaqəli təşkilatlardan bəhs edilirsə, o zaman risklər artır. Hər halda, sənədin yekun mətnini gözləməyə dəyər, çünki onun məzmunu ilə bağlı hələ də bir sıra suallar var.

“Bu məhdudiyyətlər uyğunluq prosedurlarına necə təsir edəcək? Bu, bankların öz müştərilərinin gəlirlərini Rusiyadan əldə etməkdə maraqlı olmasına səbəb olacaqmı? Qadağalar, ümumiyyətlə, nə qədər davam edəcək?” Jarskinin suallarına cavab qismində vəkil Aleksandr Aronov bildirir ki, Daşkəndin tətbiqi ehtimal edilən qadağalar Rusiya hesablarının kütləvi şəkildə bağlanmasına səbəb olmayacaq. Amma sanksiya siyahısında olan şəxslərlə bağlı qanun layihəsi gözlənilən idi.

Əlbəttə, indiki şəraitdə əsas sual “kim günahkardır” yox, “nə etməli” olmalıdır. Çünki analoji problemlər artıq bir neçə ölkədə yaranıb. Türkiyə, Çin və Qazaxıstan və Birləşmiş Ərəb Əmirliklərinin ən böyük bankları da ödənişləri məhdudlaşdırmaq və Rusiya şirkətləri və fiziki şəxslərin hesablarını bağlamaq məcburiyyətində qalmışdılar. Bu problemi aradan qaldırmaq üçün Rusiyanın biznes və maliyyə ictimaiyyətində bir neçə resept müzakirə olunmaqdadır. Birincisi, rusiyalı kontragentlər ABŞ və digər Qərb ölkələrində əməliyyatlar aparmayan və mümkün ikinci dərəcəli sanksiyalara həssas olmayan kiçik banklar arasından çinli tərəfdaşları seçməlidirlər.

İkincisi, bəlkə də, ən səmərəlisi Türkiyə təcrübəsi nəzərə alınmalıdır. 2023-cü ilin dekabrından sonra türk bankları Rusiya şirkətləri ilə əməkdaşlıqdan imtina etməyə və hesablarını bağlamağa başladılar. Amma indi birbaşa müxbir hesabların açılması ilə yanaşı, Rusiya-Türkiyə müştərək bankının yaradılması üzərində iş gedir ki, bu da ikinci dərəcəli sanksiyalar problemini aradan qaldıracaq.

Bəli, Rusiyanın bank sektorunun əsas hissəsinin beynəlxalq banklararası ödəniş sistemi SWIFT ilə əlaqəsi kəsilib və Ukraynadakı münaqişə səbəbindən onun Qərbin kapital bazarlarına çıxışı praktiki olaraq yoxdur. Lakin nə bu amil, nə də Qərbin sanksiyalar pleyadasının müntəzəm davam etməsi və daha yeni “cəza mexanizmləri” axtarışına çıxması, hələ ki, müsbət bir nəticə vermir. Əksinə, Qərbin istəyinin tam əksi baş verir. Məsələn, Böyük Britaniyanın “Financial Times” nəşri Rusiyanın Mərkəzi Bankına istinadən yazır ki, Ukraynada keçirilən əməliyyatın cəzası olaraq Rusiya maliyyə sistemini təcrid etmək üçün nəzərdə tutulmuş sərt beynəlxalq sanksiyalara baxmayaraq, onun bankları 2023-cü ildə 37 milyard dollar və ya əvvəlki illə müqayisədə xeyli çox gəlir əldə ediblər.

RF Mərkəzi Bankının bank tənzimlənməsi və analitika departamentinin rəhbəri Aleksandr Danilovun sözlərinə görə, belə nəticələr “müəyyən dərəcədə sürpriz olub”. Hələ mart ayında Mərkəzi Bank mənfəətin daha aşağı olacağını və təqribən “11 milyard dolları” keçəcəyini güman edirdi.

“Financial Times” yazır: “ABŞ və Avropanın ticarət məhdudiyyətləri və digər cəza tədbirləri ilə Moskvanı əzmək cəhdlərinə baxmayaraq, rekord mənfəət Rusiya iqtisadiyyatının nisbi dayanıqlığının daha bir əlamətidir. Yanvarın sonunda Beynəlxalq Valyuta Fondu Rusiya iqtisadiyyatının bu il oktyabrda gözləniləndən iki dəfə çox, 2,6 faiz artacağını proqnozlaşdırdığını bildirib.

Beləliklə, Özbəkistanın nümunəsində apardığımız təhlillər və müşahidələr bunu deməyə əsas verir ki, Qərbin təzyiq alətinə çevrilən maliyyə-iqtisadi sanksiyalarının həyata keçirilməsinin yeni kütləvi “yaylım atəşi” 2024-cü il fevralın 24-dək icra oluna bilər. ABŞ və digər Qərb ölkələrinin siyasi elitaları Rusiyanın Xüsusi Hərbi Əməliyyata başlaması tarixini maliyyə-iqtisadi sanksiyalar da daxil olmaqla, ən gurultulu siyasi addımlarla “qeyd etməyə” çalışacaqlar. Artıq belə addımların mexanizmləri hazırlanır. İstisna deyil ki, Rusiya hakimiyyəti də öz növbəsində cavab tədbirləri üzərində işləyir. Bu kimi səbəblər üzündən indi Rusiyada Qərbdən asılı olmayan dost ölkələrlə maliyyə hesablaşmaları mexanizmlərinin yaradılması vəzifəsi daha da aktuallaşıb. Görünür, Rusiya ilə Qərb arasında münasibətlərdə “göz əvəzində göz” qisas məntiqi hələ uzun müddət hakim olmaqda davam edəcək.

**İlqar RÜSTƏMOV**
**XQ**

Sənət araşdırması

# Milli operalarımızın qadın qəhrəmanları

**Gülüstan Əliyevanın “Azərbaycan operalarında qadın obrazlarının bədii həlli” adlı kitabı dərc olunub.**



Əməkdar artist Gülüstan Əliyeva özü opera müğənnisidir. Uzun illərdir ki, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında işləyir. O, həmçinin 2003-cü ildən Milli Konservatoriyanın muğam kafedrasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru olduğu üçün mövzuya dərindən nüfuz edə bilib. Dissertasiya mövzusu olan və elmi şuranın qərarı ilə dərs vəsaiti kimi çap edilən kitabda milli operalarımızda qadın obrazlarının xarakteristikası və tipoloji xüsusiyyətləri araşdırılıb, eyni zamanda, xanəndəlik və milli vokal ixtisasları üzrə təhsil alan tələbələrin tədris repertuarında opera aprtiyalarının öyrənilməsi nəzərdə tutulub.




Müəllif XX əsrin əvvəllərindən üzübəri yaradılmış milli operalara istinadla dramaturji və musiqili təhlil apararaq qeyd edir ki, səhnədə bu və ya digər obrazı yaradarkən, ilk növbədə, əsərini əsas qayəsini və ideyasını mənimsəmək lazım gəlir. Xronoloji ardıcıllıqla opera səhnəmizdə tamaşaya qoyulmuş əsərlərdə əsas qadın surətlərinin musiqi xasiyyətnamələri, bədii-dramaturji həlli məsələləri işıqlandırılıb.

Azərbaycan şifahi xalq yaradıcılığı nümunələrində olduğu kimi, muğam operalarımızda da qadın qəhrəmanların rəngarəng obrazlar silsiləsi var. Kitabda Fikrət Əmirovun “Sevil” operasında Sevilin, Şəfiqə Axundovanın “Gəlin qayası”nda qadın obrazlarının, Zakir Bağırovun “Aygün”ündə əsas qəhrəmanın, Vasif Adıgözəlovun “Natəvan”ında xan qızının obrazlarının təhlilinə geniş yer verilib.

Mövzunun işlənməsində Ü.Hacıbəyli, E.Abbasova, Z.Səfərova, F.Əliyeva, G.Mahmudova, S.Qasımova və başqalarının sanballı tədqiqatlarından yaradıcı şəkildə bəhrələnməklə çağdaş Azərbaycan opera janrının qarşısında duran problemlərin xarakteri ümumiləşmiş şəkildə açıqlanır. Metodoloji baza kimi ərsəyə gələn vəsaitdə xalq musiqisinin klassik opera üçün səciyyəvi olan musiqi dili və forma təşkilinin struktur və ifadə vasitələri, priyomları ilə qarşılıqlı əlaqələri əsasında təhlillər operaların obrazlar sisteminin açılmasında mühüm rol oynayır.

Qeyd edək ki, Üzeyir Hacıbəylinin “Leyli və Məcnun”, “Əsli və Kərəm”, “Koroğlu”, Müslüm Maqomayevin “Şah İsmayıl”, “Nərgiz”, Zülfüqar Hacıbəyovun “Aşıq Qərib” operalarının geniş təhlilə cəlb edildiyi dərs vəsaitinin hazırlanmasında Azərbaycan bəstəkarlarının partitura və klavirlərindən, opera teatrının arxiv materiallarından və fotoşəkillərindən geniş istifadə edilib.

***XQ***

## “Gözəllik” ASC səhmdarlarının nəzərinə!

**“Gözəllik” ASC səhmdarlarının növbəti ümumi yığıncağı 5 aprel 2024-cü il saat 11.00-da keçiriləcəkdir.**

Ümumi yığıncağın gündəliyi:

1. 2023-cü ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.
2. Ləğvetmə komissiyasının yaradılması .
3. Ləğvetmə komissiyasının səlahiyyətlərinin müəyyənləşdirilməsi.
4. Cəmiyyətin müşahidə şurasının və icra orqanının səlahiyyətlərinə xitam verilməsi.
5. Digər məsələlər.

Ümumi yığıncaq göstərilən ünvanda keçiriləcəkdir: Bakı şəhəri, Yasamal rayonu, M.Əliyev küçəsi 130.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün hər həftənin iş günləri saat 10.00-dan 13.00-dək cəmiyyətin icra orqanının rəhbərinə müraciət edə bilərlər.

Əlaqə nömrəsi: +99470-306-66-98.

## “Kəpəz Mehmanxana” ASC səhmdarlarının NƏZƏRİNƏ!

**“Kəpəz Mehmanxana” ASC səhmdarlarının növbəti ümumi yığıncağı 6 aprel 2024-cü il saat 10.00-da keçiriləcəkdir.**

Ümumi yığıncağın gündəliyi:

1. 2023-cü ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.
2. Xüsusi əhəmiyyətli əqdin bağlanılması.
3. Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələ ilə əlaqədar sənədlərlə hər həftənin iş günləri saat 13.00-dək tanış ola bilərlər.

Əlaqə telefonu- 070 - 242 – 52 – 92.

Ünvan- Gəncə şəhəri, Cavadxan küçəsi 1.

## “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyəti

Cəmiyyətə məxsus texnikalar (kran, avtoyükləyici, konteyner yükləyici, gəmi və s.) üçün sürtkü yağlarının satın alınması məqsədilə

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 12 mart 2024-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: +994 12 599 00 03 (daxili 3706).

Ünvan: AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 38 (30442) 20 fevral 2024-cü il, çərşənbə axşamı

# “Azərbaycanın Zəfər operasını yazmaq istəyirəm”

## Müsahibimiz tanınmış bəstəkar, Xalq artisti, professor Faiq Sücəddinovdur

***– Faiq müəllim, gələn ay Heydər Əliyev Sarayında sizin əsərlərinizdən ibarət böyük konsert olacaq. Hazırlıq işləri necə gedir?***

– Martın 27-də Heydər Əliyev Sarayında möhtəşəm konsertimiz olacaq. Orada son illər yazdığım “Şuşa”, “Zəfər”, “Ulu öndər” rekviyemi, “Mən azərbaycanlıyam”, “Vətən balladası” və s. əsərlərim səsləndiriləcək.

Məsələ belədir ki, 44 günlük müharibə vaxtı hamı kimi, mən də çox gərgin və həyəcanlı idim. Bir tərəfdən, öz qanları-canları bahasına torpaqlarımızı qarış-qarış geri alan igid oğulların şücaəti sayəsində dərin fəxarət hissi keçirir, eyni zamanda, cəbhədə ağır döyüşlərdə həlak olan hərbçilərimizin şəhadəti ilə bağlı acı xəbərləri eşidərək çox məyus olurdum. Adı dillər əzbəri olan Xudayarın məşhur ifası məni uşaq kimi ağlatmışdı, bir neçə gündən sonra onun şəhid olduğunu eşidəndə isə sarsılmışdım.

Allaha min şükür, Milli Ordumuz tarixi qələbə qazandı. Həmin günlərdə bir bəstəkar kimi, düşünürdüm ki, bu böyük zəfərə layiq monumental əsərlər yazmalıyam. Gecə-gündüz işləyirdim, əslində, musiqi özü bir saf bulaq suyu kimi qəlbimə axıb gəlirdi. Bu, əsl möcüzə idi, mənə yalnız o melodiyaları nota köçürmək qalırdı.

***– Televiziyalar da sizin Zəfərə həsr olunan əsərlərinizi tez-tez səsləndirirlər...***

– Əvvəlcə böyük Qələbəmizi vəsf edən əsərlərimdən birini İctimai Televiziyanın rəhbərliyinə təqdim etdim, sağ olsunlar, məmnuniyyətlə qəbul etdilər. Dedilər, ki, bizə məhz belə əsər lazımdır. Qələbəmizin ildönümündə televiziya ilə səsləndirildi və musiqi ictimaiyyəti tərəfindən yaxşı qarşılandı.

Sonra “Şuşa oratoriyası”nı yazdım. Bir axşam gənc müğənni Mirələm Mirələmova zəng etdim, gəldi əsərin “Əzan” hissəsini öz məlahətli səsi ilə çox gözəl oxudu və onun səsini oratoriyanın əvvəlinə saldım.

Ötən il xalqımız özünün dahi oğlu Heydər Əliyevin 100 illiyini böyük qədirbilənliklə qeyd etdi. Ulu öndərin əziz xatirəsinə həsr etdiyim “Rekviyem” əsəri də ürəyimcə alınıb. Bu və digər musiqi kompozisiyalarını tamamlayandan sonra mədəniyyət naziri ilə görüşüb böyük konsert vermək arzumu bildirdim. Beləcə, Heydər Əliyev Sarayında “Zəfər konserti”nə razılıq verildi.

***– Faiq müəllim, maraqlı ömür və yaradıcılıq yolu keçmisiniz. İstərdim ki, oxuculara bu barədə qısa məlumat verəsiniz...***

– 1969-cu ildə musiqi məktəbinin fortepiano sinfini bitirəndən sonra Azərbaycan Dövlət Radio və Televiziya Komitəsinin Estrada Orkestrinin rəhbəri Tofiq Əhmədov məni pianoçu kimi işə dəvət etdi.



Eyni vaxtda Azərbaycan Pedaqoji Dillər İnstitutuna daxil oldum. İnstitutun orkestrinin rəhbəri idim, konsertlər verirdik. Ali məktəbi bitirib, əsgərlikdən qayıdandan sonra konservatoriyaya daxil oldum.

Orada bəstəkarlıq ixtisası üzrə təhsil almışam. Diplom işi kimi fortepiano konserti yazmışdım. Böyük bəstəkarımız, Xalq artisti, rəhmətlik Cövdət Hacıyav məni bu əsərə görə çox təriflədi, hətta qucaqlayıb öpdü.

Sonra Mahnı Teatrının müdiri və bədii rəhbəri, Estrada Simfonik Orkestrinin bədii rəhbəri, baş dirijoru vəzifələrində işlədim.

***– Siz xeyli müddət pedaqoji fəaliyyət ilə də məşğul olmusunuz. Bir müddət isə Şimali Kiprdə işləmisiniz...***

– Mən 7 il Şimali Kiprdə çalışmışam, indiyə qədər türk qardaşlarım ilə əlaqələrim kəsilməyib. Kiprin musiqi ənənələri bizim qədər zəngin olmasa da, bu sahənin inkişafına böyük önəm verirlər. Mən orada peşəkar musiqinin inkişafı üçün əlimdən gələni etmişəm, həm də məhsuldar çalışırdım. Kiprdə “Atatürk” poeması, kamera orkestri üçün əsərlər, romanslar və s. yazmışam.

2003-cü ildə qayıtdım vətənə. Bakıda Mədəniyyət və İncəsənət Universitetində bəstəkar və rejissorluq fənnindən 17 il dərs dedim, professor dərəcəsi aldım. Dərs dediyim tələbələr indi daha çox rejissorluqla məşğuldurlar, çünki orada əsas vəzifəm tələbələrə rejissorluğun musiqi ilə vəhdətini anlatmaq idi.

***– Geniş auditoriyaya sizi daha çox sevdirən və tanıtdıran mahnılarınızdır.***

– Mən bütün bəstəkarlıq fəaliyyətim ərzində mahnı yazmağı çox sevmişəm. Necə deyərlər, bu, mənim stixiyamdır. Bəli, çox sayda mahnım var. Bu mahnımı isə hələ 1984-cü ildə yazmışam:

*Yel [illegible]*
*nəğmə qondu dodaqlara...*
*Dönüb baxdım uzaqlara,*
*səni gördüm...*

**– Çoxları bu mahnını bu gün də əzbər bilir.**

– Bunu mən demədim, deməli, yaxşı mahnıdır ki, sizin də yaddaşınızda qalıb. 100 il sonra ola bilər ki, müəllifini unudacaqlar, amma mahnı yaşayacaq. Zaman hər şeyi ələyir, yalnız yaxşılar qalır.

Bu gün yerindən duran mahnı yazır. Mən düşünürəm ki, hər kəs öz işi ilə məşğul olmalıdır, onda hər şey öz yerini alır. Musiqini bilmədən mahnı yazmaq olmaz. Yaza bilərsən, bir müddət auditoriyanın xoşuna da gələr, amma davam edə bilməzsən, çünki baza təhsilin yoxdursa, özünü təkrarlayacaqsan.

***– Xalq artisti İlhamə Quliyeva sizin mahnılarınızı böyük şövqlə ifa edirdi. Bu gün hansı müğənnilərlə işləməyə üstünlük verirsiniz?***

– İlhamə xanım mənim yaradıcılığıma böyük maraq göstərirdi. O, mahnını təkcə ifa etmirdi, melodiyanı böyük şövqlə tamaşaçılara çatdırmağa çalışırdı. Onun ifasında bir çox mahnılarım sevilib.



Mənim bu gün də bir çox istedadlı müğənnilərlə sıx yaradıcılıq əlaqələrim var. Son illər gənc müğənni Zamiq bir çox yeni mahnılarımı ifa edib. O da çox peşəkar ifaçıdır, hər bir mahnını duyğulu oxuyur.

***– Bu gün peşəkar bəstəkar kimi ən böyük arzunuz nədir?***

– Allahdan gizli deyil, bəndədən niyə gizlədim. Mən möhtəşəm bir opera – “Azərbaycan operası yazmaq istəyirəm. Elə bir əsər ki, orada milli musiqimiz, sözümüz, özümüz, ruhumuz, düşüncələmiz əks olunsun. Bu əsərin ilk notundan duyulsun ki, onu Azərbaycan bəstəkarı yaradıb. Hiss olunsun ki, bu, böyük Üzeyir bəyin yoludur.

Hər millətin öz rəngi var, çaları, adət-ənənəsi var. Onlar hamısı operada öz yerini alacaq. Azərbaycan musiqisinin dünya musiqisi xəzinəsində xüsusi yeri var. Bu ənənələri davam və inkişaf etdirmək son dərəcə vacibdir. Bir sözlə, arzular, planlar çoxdur.

***– Sonda XQ-nin oxucularına arzu və tövsiyələrinizi eşitmək xoş olardı....***

– Mən bir Azərbaycan bəstəkarı kimi deyə bilərəm ki, ölkəmizdə musiqiyə, mədəniyyətə böyük diqqət göstərilir. Prezident İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın davamlı qayğısı nəticəsində bu sahədə böyük uğurlar qazanılıb.

Xalqımız tarixi zəfərlərin qürurunu yaşayır. Biz hamımız xoşbəxtik ki, suverenliyimiz və ərazi bütövlüyümüz tam təmin edilib. Ondan ilhamlanıb gözəl əsərlər yaratmaq mümkündür.

“Xalq qəzeti”nin oxucularına, eləcə də bütün musiqisevərlərə arzum və tövsiyəm budur ki, təkcə mahnı və təsnifləri, estrada nümunələrini dinləməklə kifayətlənməsinlər, klassik musiqimizə də biganə qalmasınlar. Necə deyərlər, biz bəstəkarlar yazaq, yaradaq, xalqımız zövq alsın. Yalnız əsl sənətdən zövq almaq olar.

***Söhbəti qələmə aldı:***
***Ramilə QURBANLI***
***XQ***

# Güləş komandamız Avropa 2-cisi oldu

**Azərbaycanın güləş komandası Rumıniyanın paytaxtı Buxarestdə keçirilən Avropa çempionatında daha bir uğurlu çıxışı ilə hamımızı sevindirdi. Qitə çempionatında əldə edilən nəticələrdə yunan-Roma güləşçilərimizin payı daha yüksək oldu.**

Avropa çempionatında növbəti dəfə tarixi uğura imza atan yunan-Roma güləşi üzrə komandamız 3 qızıl, 2 gümüş və 1 bürünc medalla qitə birinciliklərində medalların əyarına görə özünün ən yaxşı nəticəsinə imza atdı. Xal sisteminə görə yalnız Türkiyədən geri qalan Azərbaycan güləşin bu növündə 5-ci dəfə (2011, 2018, 2020, 2023, 2024) komanda hesabında qitə birinciliyində 2-ci yeri tutdu. Yığmamız, ümumilikdə, Avropa çempionatlarında 10-cu dəfə ilk “3-lük”də yer aldı. Buna qədər 4 dəfə (2012, 2014, 2016, 2019) fəxri kürsünün 3-cü pilləsinə yüksələn komandamız 2022-ci ildə Avropa çempionu olub.




Paris Olimpiadasına lisenziyası olan Həsrət Cəfərov qitə birinciliyində çempion olmaqla yanaşı, həm də ikiqat Avropa qalibi titulunu qazandı. Buna qədər Rövşən Bayramov, Elçin Əliyev və Eldəniz Əzizli 2 dəfə qitə birinciliyinin qalibi olmuşdu. İndi güləşçi yalnız 3 qat Avropa çempionu Rafiq Hüseynovdan geri qalır. Digər 2 qızıl medalın sahibləri Nihat Məmmədli (60 kq) və Murad Məmmədov (63 kq) ilk dəfə Avropa çempionu adına layiq görülüblər. Nihat Məmmədli (60 kq) finalda moldovalı Viktor Çebanunu 8:3, Murad Məmmədov (63 kq) isə həlledici görüşdə ukraynalı Aleksandr Qruşini 2:1 hesabı ilə məğlub edərək ilk dəfə Avropa çempionu adına layiq görülüblər. Millinin baş məşqçisi Aleksandr Tarakanov qeyd edib ki, Bakıda keçiriləcək lisenziya turnirində “Paris-2024”ə vəsiqələr qazanmağa çalışacaqlar.

*

**Avropa çempionatında 10 çəkidən yalnız 5-də təmsil olunan qadın millimiz isə 2 qızıl, 1 bürünc medal qazanıb. 83 xalla komanda hesabında 4-cü yeri tutan yığmamız medalların əyarına görə Avropa çempionatlarında son 8 ilin, xallara görə son 6 ilin, komanda sıralamasına görə isə son 5 ilin ən yaxşı nəticəsinə imza atıb.**

Komandanın lideri Mariya Stadnik (50 kq) 10-cu – yubiley çempionluğunu qazanıb. Olimpiya Oyunlarının üçqat mükafatçısı Parisdə “qızıl”ı hədəfləyib. Digər qızıl medala Alyona Kolesnik (59 kq) sahib olub. 29 yaşlı güləşçi qızıl medal qazanmaqla fəxri kürsünün ən yüksək pilləsinə yüksəlib. 3-cü medalı isə yığmamıza Elis Manolova (65 kq) qazandırıb.

Avropa çempionatının son 3 günündə sərbəst güləş üzrə millimiz mübarizə aparıb. Komandamız nüfuzlu turnirdə 7 medal qazanıb. Belə ki, Maqomedxan Maqomedov (97 kq) gümüş, İslam Bazarqanov (57 kq), Nürəddin Novruzov (61 kq), Əli Rəhimzadə (65 kq), Turan Bayramov (74 kq), Arseniy Djoyev (86 kq) və Georgi Meşvildişvili (125 kq) bürünc medala sahib olublar. Sərbəst güləş üzrə millinin böyük məşqçisi Cəbrayıl Həsənov yarışda iştirak edən 10 güləşçimizdən 7-sinin fəxri kürsüyə qalxdığını bildirib.

Beləliklə, Azərbaycan millisi 16 medal qazanaraq Avropa çempionatında ümumi medal sıralamasında ikinci yeri tutub.

# Azərbaycan millisi “Böyük dəbilqə”də liderdir

**Bakıda Paris Olimpiadasına lisenziya xalları qazandıran cüdo üzrə “Böyük dəbilqə” turniri Azərbaycan komandası üçün böyük uğurla başa çatıb.**

62 ölkədən 400-dən çox cüdoçunun mübarizə apardığı yarışda komandamız 3-ü qızıl olmaqla 8 medal qazanıb. Bu nəticə ilə yığmamız ümumi komanda hesabında birinci yeri tutub. Qızıl medalları yığmamızın aktivinə Hidayət Heydərov (73 kq), Zelim Tçkayev (81 kq) və Murad Fətiyev (90 kq) yazdırıblar. Camal Qamzatxanov (+100 kq), Ömər Rəcəbli (81 kq) gümüş medala sahib olublar. Balabəy Ağayev (60 kq), Yaşar Nəcəfov (66 kq) və Vüqar Talıbov (90 kq) isə bürünc medal qazanıblar.

Qeyd edək ki, Bakı “Böyük dəbilqə”sinin qalibləri 1000, gümüş medal sahibləri 700, 3-cü yeri tutanlar isə 500 reytinq xalı qazanırlar.

***Leyla SABİRQIZI***
***XQ***

**Sağlamlıq**

# Sürvə dəmləməsi – şəkərin çarəsi

***El arasında şalfey kimi daha çox tanınan dərman bitkisi sürvə şəkər və diabetə bağlı xolesterin, damar problemlərinin qarşısını almaq üçün çarə ola bilər.***



Alimlər sürvə ekstraktının qanda şəkərə necə təsir etdiyini araşdırıblar. Müəyyənləşdiriblər ki, sürvədən hazırlanan çayı içdikdən sonra xəstələrdə aclıq şəkəri daha aşağı olub.

Aydın olub ki, xolesterin, triqliseridlər, lipid səviyyəsi də düşüb. Tədqiqatçılar bu qərara gəliblər ki, sürvə yarpaqları diabet xəstələrinə antihiperqlikemik təsir edir. Ona görə də bu xəstələrə, xüsusən, aclıq şəkərini aşağı salmaq üçün sürvə cövhərinin yüksək dozalarını içmək tövsiyə olunur.

***Z.HÜSEYNLİ***
***XQ***

***✓ 2018-ci ildə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən “Binəqədi–14” mənzil mülkiyyətçilərinin müştərək cəmiyyətinə verilmiş 1118-MM5-0102 nömrəli qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.***

**Hava**

# Hər yerdə yağmursuz, dağlarda yağıntılı olacaq

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, fevralın 20-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.***

Lakin axşam bəzi yerlərdə yağıntılı olacağı ehtimalı var. Cənub-şərq küləyi əsəcək, axşam mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 1-3°, gündüz 4-7° isti olacaq. Atmosfer təzyiqi 766 mm civə sütunundan 770 mm civə sütununa yüksələcək, nisbi rütubət 65-75 faiz olacaq. Azərbaycanın əksər rayonlarında əsasən, yağmursuz keçəcək. Lakin bəzi dağlıq və dağətəyi rayonlarda yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 0-5° , gündüz 6-11° isti, dağlarda gecə 5-10°, gündüz 0-5° şaxta olacaq.



***Q.QASIMOV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3785
SİFARİŞ 402
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00